RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 133 (9588) 29 iyun 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Prezident növbədənkənar parlament seçkilərini təyin etdi




## VII çağırış Milli Məclisə seçkilər ilk dəfə Azərbaycanın bütün ərazilərində keçiriləcək

**Prezident İlham Əliyevin dünən imzaladığı sərəncamla altıncı çağırış Azərbaycan Milli Məclisi buraxıldı. Sentyabrın 1-nə isə Milli Məclisə növbədənkənar seçkilər təyin edildi. Bu, respublikamızda müstəqillik dövründə keçirilən sayca 7-ci parlament seçkiləri olacaq.**

### Növbədənkənar seçkilərin keçirilməsi üçün mühüm əsaslar var

Azərbaycan Milli Məclisinə sonuncu seçkilər də növbədənkənar olmaqla 2020-ci ilin fevral ayında keçirilib. Həmin seçkilər əsasında formalaşan altıncı çağırış Milli Məclis ötən müddət ərzində respublikamızın daxili və xarici siyasətinin həyata keçirilməsində, dövlət idarəetməsinin daha da təkmilləşdirilməsində yaxından iştirak edib, qanunvericilik fəaliyyətini həyata keçirməklə, üzərinə düşən vəzifələri yerinə yetirib. Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında verdiyi tövsiyələrə uyğun olaraq bu dövrdə parlamentin qanunyaratma və qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, qanunların icrasına nəzarət və təmsilçilik funksiyalarının müasir tələblər səviyyəsində qurulması yolunda lazımi addımlar atılıb. Milli Məclis islahatların hüquqi bazasının daha da möhkəmləndirilməsi və təkmilləşdirilməsinə layiqli töhfələr verib.

→ 4

## Altıncı çağırış Milli Məclis son iclasını keçirdi

Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiya barədə qısa hesabat verib. Spiker xatırladıb ki, növbədənkənar sessiya iyunun 7-də başlayıb. İyirmi bir gün davam edən bu sessiyada Milli Məclisin beş iclası keçirilib, otuz bir qanun və qərar qəbul edilib.

Spiker sessiyanın yekunları ilə bağlı bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin qanunvericilik bazasını daha da möhkəmləndirmək və təkmilləşdirmək üçün Milli Məclis öhdəsinə düşən vəzifələri bu dövrdə də layiqincə yerinə yetirməyə çalışıb.

→ 3

## Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

"Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarını və "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 27 iyun tarixli Qərarını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 98[1]-ci maddəsinin I hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisi buraxılsın.

2. Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

## Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlıq qurulub

### Prezident İlham Əliyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Ceyms O'Brayn ABŞ Dövlət katibi Entoni Blinkenin bu yaxınlarda Prezident İlham Əliyev ilə telefon danışığını və bu əsnada aparılan müzakirələri məmnunluqla qeyd etdi. O, ABŞ-nin regional sülh gündəliyinin irəliyə aparılmasına sadiqliyini və bu prosesi dəstəkləməyə hazır olduğunu vurğuladı. Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən əlaqələrimizin strateji səviyyədə daha da inkişaf etdirilməsi məsələlərinin vacibliyini qeyd etdi. Bu xüsusda regional əməkdaşlıq, Orta dəhliz və digər məsələlər müzakirə olundu.

Prezident İlham Əliyev Entoni Blinkenlə telefon danışığını məmnunluqla xatırladı, bu telefon danışığı əsnasında əlaqələrimizin geniş spektrinin müzakirə olunduğunu dedi.

Azərbaycan ilə ABŞ arasında ölkəmizin müstəqilliyinin ilk günlərindən müxtəlif sahələrdə uğurlu əməkdaşlığın qurulduğu vurğulandı.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, Azərbaycan ilə ABŞ arasında enerji sahəsində əməkdaşlıq, COP çərçivəsində iki ölkənin nümayəndə heyətlərinin səmərəli və faydalı məsləhətləşmələrinin olduğu qeyd edildi. COP29-un uğurla nəticələnməsi üçün ABŞ-nin öz dəstəyini bundan sonra da davam etdirəcəyi vurğulandı.

## BMT-nin Baş katibi COP29-da iştirak etmək üçün Bakıya gələcək

**BMT-nin Baş katibi Antonio Quterreş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün Bakıya gəlməyi planlaşdırır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Quterreş TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanla eksklüziv müsahibəsində bildirib. O, konfransda iştirak etmək planları ilə bağlı suala cavab verərkən deyib ki, COP konfranslarında həmişə iştirak edir.

"Gözləyirəm ki, bu konfrans, uçuruma doğru getdiyimizi qlobal surətdə etiraf etmək baxımından dəyişiklik anı olacaq", - deyə Baş katib əlavə edib.

COP29 bu ilin noyabrında Bakıda keçiriləcək.

## Hərbə hazır sülh ordusu

### Azərbaycanın Silahlı Qüvvələri modernləşməkdə davam edir



→ 5

# "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 442 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 13.4-cü maddə ləğv edilsin.

2. 20.1-ci maddədə "Fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olanlar" sözləri "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2024-cü il*

---

# "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1170-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1170-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 477 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddən "13.4-cü," sözləri çıxarılsın və həmin bəndə "19.2-ci," sözlərindən sonra "20.1-ci," sözləri əlavə edilsin;

1.2. 2.3-cü bənddən "20.1-ci," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1170-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

---

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 321** **QƏRAR** **Bakı şəhəri, 28 iyun 2024-cü il**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı"nın və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 may tarixli 131 nömrəli Qərarının ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" 2001-ci il 19 iyul tarixli 541 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 17 may tarixli 256-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2016-cı il 26 may tarixli 921 nömrəli, "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 788-VQD nömrəli Qanununun tətbiqi və "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 312-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 noyabr tarixli 1103 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2017-ci il 13 noyabr tarixli 1672 nömrəli, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1057-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2018-ci il 22 may tarixli 77 nömrəli fərmanlarında və "Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2005-ci il 22 noyabr tarixli 1114 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2403 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı"nın və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 may tarixli 131 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 510 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2024-cü il martın 1-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 may tarixli 56 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"in icrasını və iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

**Komissiyanın həmsədri**
Azərbaycan Respublikasının energetika naziri

**Komissiyanın üzvləri:**
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri
Azərbaycan Respublikasının Albaniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan Birgə Hökumətlərarası Komissiya Azərbaycan Respublikası ilə Albaniya Respublikası arasında iqtisadi əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Albaniya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

---

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 319** **QƏRAR** **Bakı şəhəri, 26 iyun 2024-cü il**

## "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 25 iyun tarixli 279 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 25 iyul tarixli 324 nömrəli və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 24 iyun tarixli 145-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1561 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin VI hissəsi yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. Nəzərə alınsın ki, bu Qərarın 1-ci hissəsi ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi cari ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin saxlanılması üçün ayrılan büdcə vəsaiti hesabına təmin ediləcəkdir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

---

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 320** **QƏRAR** **Bakı şəhəri, 27 iyun 2024-cü il**

## "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə aparılan struktur islahatlarının nəticəsində yaradılan yeni təşkilatların və xidmətlərin fəaliyyətə başlaması, bəzilərinin ləğv edilməsi və ya birləşdirilməsi ilə bağlı onların maliyyə təminatının həyata keçirilməsi, dövlət maliyyə inzibatçılığının və hesabatlılığın gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin tam təmin edilməsi üçün vahid büdcə təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359) aşağıdakı dəyişikliklər edilsin:

1. "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

1.1. 1.2.4-cü paraqraf ləğv edilsin;

1.2. "1.2.9. "Digər beynəlxalq fəaliyyət" paraqrafında "1.2.4" rəqəmləri "1.2.3" rəqəmləri ilə əvəz edilsin;

1.3. "4.0.0. "Təhsil" bölməsinə "işlər" sözündən sonra "və tədbirlərin keçirilməsi" sözləri əlavə edilsin;

1.4. "4.1.0. "Məktəbəqədər təhsil", "4.2.0 "Ümumi təhsil" köməkçi bölmələrində və "4.2.1. "İbtidai təhsil", "4.2.2. "Ümumi orta təhsil", "4.2.3. "Tam orta təhsil", "4.2.4. "İnternat tipli və xüsusi ümumtəhsil məktəbləri" paraqraflarında "ilə" sözü "və digər tədbirlərlə" sözləri ilə əvəz edilsin;

1.5. "4.3.0. "Peşə təhsili" köməkçi bölməsi aşağıdakı redaksiyada verilsin:

"4.3.0. "Peşə təhsili" köməkçi bölməsinə əmək bazarının tələbatına uyğun olaraq, peşə təhsili müəssisələrində dövlət sifarişi ilə kadr hazırlığı, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif peşələr üzrə ixtisaslı işçi kadrların hazırlanmasını təmin edən təhsil müəssisələrinin saxlanılması və onlara yardım göstərilməsi, tədbirlərin keçirilməsi ilə bağlı xərclər daxildir.";

1.6. "4.4.0. "Orta ixtisas təhsili", "4.5.0. "Ali təhsil" və "4.6.0. "Əlavə təhsil" köməkçi bölmələrinə "göstərilməsi" sözündən sonra ", tədbirlərin keçirilməsi" sözləri əlavə edilsin;

1.7. "4.9.3. "Təhsil sahəsinə aid edilən digər müəssisə və tədbirlər" paraqrafına "xərcləri" sözündən sonra ", habelə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı ilə bağlı xərclər" sözləri əlavə edilsin;

1.8. "11.4.3. "Dövlət əsaslı vəsait qoyuluşu" paraqrafının ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu paraqrafa həmçinin tikinti aparılacaq sahələrdə mövcud obyektlərin söküntüsü, yeni tikilmiş, bərpa olunmuş, əsaslı təmir edilmiş obyektlərin mebel, inventar və avadanlıqla təchiz olunması, həmin obyektlərin ərazilərinin abadlaşdırılması, dövlət ehtiyacları üçün tikinti altına düşən torpaq və digər obyektlərin özgəninkiləşdirilməsi, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması, müəllif nəzarəti, texniki nəzarət və məsləhət xidmətləri, maddi-texniki bazanın təkmilləşdirilməsi, proqram təminatı ilə bağlı və kredit, qrant və digər vəsaitlər hesabına həyata keçirilən layihələrdə dövlətin iştirak payı ilə əlaqədar və bu qəbildən olan digər xərclər daxildir.";

1.9. "12.3.0. "Valyuta konvertasiyası" köməkçi bölməsi aşağıdakı redaksiyada verilsin:

"12.3.0. "Valyuta konvertasiyası" köməkçi bölməsinə valyuta-lararası mübadilənin həyata keçirilməsi, habelə ödəniş sistemlərindən istifadəyə görə xidmət haqlarının ödənilməsi ilə bağlı tələb olunan xərclər daxildir.".

2. "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

2.1. "221100. "Dəftərxana və təsərrüfat xərcləri" paraqrafına "kalkulyatorların," sözündən sonra "möhür və ştampların," sözləri əlavə edilsin;

2.2. "221400. "Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması"paraqrafına "vasitələrin," sözündən sonra "sterilizasiya avadanlıqları üçün dezinfeksiyaedici məhlulların," sözləri əlavə edilsin;

2.3. "222290. "Digər kommunal xidmətlərin haqqının ödənilməsi"maddəsində "kanalizasiya xətləri olmayan yerlərdə çirkab suların daşınması," sözləri "su və kanalizasiya xətləri olmayan yerlərdə içməli suyun alınması və çirkab suların daşınması, yağış novlarının təmizlənməsi," sözləri ilə əvəz edilsin;

2.4. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsinə "avadanlıqların doldurulması," sözlərindən sonra "təbii güllərə və əkmələrə qulluq edilməsi," sözləri əlavə edilsin;

2.5. "222930. "Abadlaşdırma xidmətləri haqqının ödənilməsi" maddəsinə "yazılması," sözündən sonra "ağacların budanması," sözləri əlavə edilsin;

2.6. "263000. "Dövlət sifarişi, dövlət öhdəlikləri və bu qəbildən olan digər öhdəliklərin ödənilməsi" köməkçi bölməsinə "sığortalanması" sözündən sonra "və səhiyyə sahəsində dövlət proqramlarının və tədbirlərin icrası" sözləri əlavə edilsin;

2.7. "263200. "İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsait" paraqrafına "sığortalanması" sözündən sonra "və səhiyyə sahəsində dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi" sözləri əlavə edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

4. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

5. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq olunur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

Milli Məclisin iclasında

# Altıncı çağırış Milli Məclis son iclasını keçirdi

**İyunun 28-də Milli Məclisin 2024-cü ilin növbədənkənar sessiyasında sonuncu plenar iclası keçirilib. İclasın gündəliyi qəbul edildikdən sonra cari məsələlərlə əlaqədar müzakirələr aparılıb. Komitə sədri Fazil Mustafa, deputatlar Vahid Əhmədov, Etibar Əliyev, Bəhruz Məhərrəmov, Ceyhun Məmmədov, Elşad Mirbəşir oğlu, Elman Nəsirov, Qüdrət Həsənquliyev, Rüfət Quliyev, İsa Həbibbəyli, Sabir Rüstəmxanlı bir sıra məsələlərlə bağlı fikirlərini bildiriblər.**



Müzakirələr zamanı Azərbaycanda parlamentarizm ənənələrinin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin rolu xüsusi qeyd edilib. Çıxışlarda VI çağırış Milli Məclisin səmərəli fəaliyyətindən söhbət açılıb, ötən müddət ərzində görülən işlər təqdirəlayiq hesab edilib, parlament diplomatiyasının ölkə Prezidentinin müəyyənləşdirdiyi istiqamət üzrə uğurla davam etdirildiyi bildirilib. Millət vəkilləri VI çağırış Milli Məclisin milli maraqların qorunmasında, ölkənin beynəlxalq əlaqələrinin genişləndirilməsində, qlobal miqyasda Azərbaycan həqiqətlərinin təbliği istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini vurğulayıblar.

Deputatlar bununla yanaşı, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğını yüksək qiymətləndirib, ictimai asayişin təmin olunmasında polis orqanlarının xidmətlərini qeyd edib, həmçinin təhsilin keyfiyyətinin yaxşılaşdırılması, ölkədə mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanılması, sahibkarlığın daha da inkişaf etdirilməsi, bir sıra digər məsələlərlə bağlı öz fikir və qeydlərini açıqlayıblar.

Sonra parlamentin Sədri Sahibə Qafarova gündəliyə 15 məsələnin daxil edildiyini, ilk iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu, hər iki qanun layihəsinin beynəlxalq sənədlərin təsdiqi ilə bağlı olduğunu və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcəyini bildirib.

İclasda ilk olaraq "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Əlavə Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi təqdim olunub. Bildirilib ki, "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında" Saziş 2022-ci il oktyabrın 11-də Bişkek şəhərində imzalanıb. Fondun yaradılmasında məqsəd iki ölkə arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. Müzakirəyə təqdim olunan Əlavə Saziş 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanıb. Əlavə Saziş ikitərəfli investisiya əməkdaşlığının genişləndirilməsi və birgə investisiya layihələrinin maliyyələşdirilməsi üçün Tərəflərin Azərbaycan-Qırğız İnkişaf Fondunun nizamnamə kapitalını artırmaq məqsədi daşıyır. Dəyişikliyə əsasən, sazişin 4-cü maddəsində və Azərbaycan-Qırğız İnkişaf Fondunun Nizamnaməsinin 6-cı maddəsinin 2-ci bəndində "25000000 (iyirmi beş milyon) ABŞ dolları" sözlərinin "100000000 (yüz milyon) ABŞ dolları" sözləri ilə əvəz edilməsi təklif olunur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədin əhəmiyyətindən danışaraq, onun türk dünyasında əlaqələrimizin inkişafına xidmət etdiyini, rəhbərlik etdiyi komitənin məsələyə dair müsbət rəy verdiyini söyləyib.

Komitə sədri Siyavuş Novruzov məsələ barədə öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış Saziş iki ölkə arasında iqtisadi əlaqələri genişləndirmək və vergi sahəsində əməkdaşlığı gücləndirmək məqsədi daşıyır. 31 maddədən ibarət olan saziş razılığa gələn dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə və vergitutma üsulundan asılı olmayaraq, razılığa gələn dövlət və ya onun inzibati-ərazi, dövlət və ya yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə görə tutulan vergilərə tətbiq edilir. Sazişin tətbiq edildiyi vergilərin siyahısı və şərtləri ayrıca maddədə qeyd olunur. Sazişdə müxtəlif vasitələrlə əldə edilmiş gəlir və mənfəətə münasibətdə vergilərin tətbiq edilməsi şərtləri, qarşılıqlı əlaqəli müəssisələrə dair vergitutma qaydaları açıqlanır, dividendlərin, müxtəlif subyektlərə ödənilən faizlərin və royaltilərin vergiyə cəlb olunması prosedurlarına aydınlıq gətirilir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov fikirlərini açıqlayaraq, sənədin iqtisadi məsələlərlə yanaşı, həm də siyasi əhəmiyyətə malik olduğunu deyib, ölkə Prezidentinin ümumtürk iqtisadi, mədəniyyət məkanının yaradılması, ümumtürk geosiyasi fenomeninin dünya siyasətinə təqdim edilməsi ilə bağlı ardıcıl siyasət apardığını vurğulayıb.

Səməd Seyidov rəhbərlik etdiyi komitənin rəyini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti 10 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, qanun layihəsi ilə bağlı hər hansı rəy və təklifin olmadığını deyib.

Layihədə iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulmasına görə inzibati məsuliyyəti nəzərdə tutan maddədə qabarit parametrlərinin pozulmasının, həmçinin çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinin aşılmasının nədən ibarət olması dəqiq müəyyən edilir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihə barədə birinci və ikinci oxunuş zamanı geniş məlumat verildiyini, komitəyə əlavə təklifin daxil olmadığını deyib.

Layihədə müdafiə təyinatlı məmulatların layihələndirilməsi, istehsalı, satışı fəaliyyətinin liberallaşdırılması, bu sahədə yeni iştirakçıların formalaşdırılması, habelə həmin fəaliyyətlərdən irəli gələrək bu sahədə təmir və texniki xidmət göstərilməsi fəaliyyətlərinin tənzimlənməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məsələ barədə bu komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. O, ikinci oxunuşdan sonra sənədə dair əlavə təklifin olmadığını bildirib və məsələnin səsə qoyulmasını xahiş edib. Komitə sədri həmçinin bəzi məqamlarla bağlı fikirlərini də bölüşüb.

Layihədə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasına dair tələblər, həmin sistemin istifadəyə verilməsi, elektron xidmətlərin qeydiyyatının həyata keçirilməsi məqsədilə vahid reyestrin aparılması qaydaları, dövlət informasiya ehtiyatları və sistemlərinin təhlükəsizlik meyarları üzrə monitorinqinə və auditinə dair ümumi qaydalar müəyyən olunur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məsələyə dair bu komitələrin müsbət rəylərini səsləndiriblər.

Müzakirələrdə çıxış edən komitə sədri Siyavuş Novruzov öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. O, layihə ilə bağlı heç bir əlavə təklifin olmadığını deyib.

Layihədə kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyini yüksəltmək üçün kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsinin çevik mexanizminin yaradılması məsələləri təsbit olunur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib.

Komitə sədri qanun layihəsi barədə birinci və ikinci oxunuş zamanı ətraflı məlumat verildiyini, layihənin mətnində dəyişiklik edilmədiyini söyləyib. O, sənədin əsas mahiyyətinin əmək münasibətlərinin rəqəmsal texnologiyalar müstəvisinə keçirilməsi ilə bağlı olduğunu qeyd edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli təmsil etdikləri komitələrin rəyini bildirdikdən sonra layihə üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, ikinci oxunuşdan sonra layihə ilə bağlı bəzi təkliflərin daxil olduğunu, bu barədə qanunvericilik təşəbbüsü subyektinin nümayəndəsi ilə müzakirələrdən sonra bir sıra təkliflərin sənəddə öz əksini tapdığını deyib.

Bildirilib ki, birinci təklif xidməti parklanma yerindən ödənişsiz istifadə edəcək subyektlərin əhatə dairəsinin genişləndirilməsi ilə bağlıdır. Təklif olunur ki, diplomatik nümayəndəlik və konsulluqların, diplomatik nümayəndəlik statusuna malik beynəlxalq təşkilatların nümayəndələri, habelə onların diplomatik personalı xidməti paklanma hüququndan istifadə edə bilsin. İkinci təklif skuterlərin hərəkətinə dair tələblərlə bağlıdır. Burada "sükanı tutmadan hərəkət etmək" sözlərinin əvvəlinə "sükanı olduğu halda" sözlərinin əlavə edilməsi təklif edilir. Üçüncü təklif isə uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, 45.2-ci maddənin 6-cı bəndində "müvafiq icra hakimiyyəti orqanı" sözlərindən sonra "müəyyən etdiyi qurum" sözlərinin əlavə edilməsi təklif olunur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Elşən Musayev "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (üçüncü oxunuş) dair məlumat verib. O, ikinci oxunuşdan sonra məsələyə dair komitəyə heç bir müraciətin daxil olmadığını bildirib.

Layihədə nəzərdə tutulan dəyişikliklər qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının bir neçə komissiya tərəfindən məhv edilməsi üçün hüquqi əsas yaradır. Həmin komissiyaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən yaradılması təklif edilir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihə ilə bağlı deputatların verdiyi təkliflərlə bağlı qanunvericilik təşəbbüsü subyekti ilə müzakirələrin aparıldığını, nəticədə sənədin hazırda təqdim olunan variantda tövsiyə edildiyini söyləyib. Komitə sədri səsləndirilən rəy və təkliflərin gələcəkdə yenidən təhlil olunaraq baxılmasının nəzərdə tutulduğunu da qeyd edib. Hicran Hüseynova qanun layihəsinin dövlətimizin demoqrafik, səhiyyə, sosial, iqtisadi siyasəti baxımından mühüm əhəmiyyət kəsb edən mütərəqqi sənəd olduğunu bildirib.

Layihədə nəzərdə tutulan dəyişikliklərdə nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğvi, habelə 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və dini kəbin kəsməyə görə geniş subyektlər dairəsi üçün məsuliyyətin müəyyən edilməsi təklif olunur.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsi ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb. O, habelə Cinayət Məcəlləsinin qeyd hissəsi ilə bağlı deputat Erkin Qədirlinin təklif irəli sürdüyünü, bunun qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə olunduğunu və məqsədəmüvafiq hesab edilmədiyini, sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Bildirib ki, sənəd şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mənzilə ehtiyacı olan şəhid ailələrinin dairəsinin genişləndirilməsi və əlçatanlığın təmin edilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov "Auditor xidməti haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Millət vəkili layihə ilə bağlı birinci və ikinci oxunuş zamanı əlavə rəy və təklifin verilmədiyini söyləyib.

Sənəddə nəzərdə tutulan dəyişiklikdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində xarici ölkələrin səlahiyyətli orqanlarından daxil olan sorğuların icrası üçün qanunla müəyyən edilmiş hallarda vergi orqanlarının tələbi ilə auditorun məlumat verməsinin hüquqi əsası yaradılır.

Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin üçüncü oxunuşda olan qanun layihələrinin başa çatdığını deyib. Spiker növbəti iki məsələnin uyğunlaşdırma xarakterli qanun layihələri olduğunu və bir oxunuşda baxılıb qəbul ediləcəyini bildirib.

Gündəliyin 13-cü məsələsi olan "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumatı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov təqdim edib. Bildirib ki, layihə lisenziyalar və icazələr sahəsində prosedurların daha da təkmilləşdirilməsi, eyni zamanda səmərəliliyin artırılması məqsədilə hazırlanıb. Bu kontekstdə sənəd üç istiqamətdə dəyişiklikləri özündə ehtiva edir. Vüqar Bayramov layihədə təklif olunan dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması müddətlərinin yenilənməsi, dövlət rüsumunun ödənilməməsinin hüquqi nəticələrinin genişləndirilməsi, bir sıra termin və ifadələrin dəqiqləşdirilməsi ilə bağlı təklif olunan dəyişikliklərdən danışıb.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc dəyişikliklərlə əlaqədar bu komitələrin rəylərini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev növbəti məsələ - "Bədən tərbiyəsi və idman haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, "Bədən tərbiyəsi və idman haqqında" Qanunun 59-cu maddəsinə təklif olunan dəyişiklik paralimpiya sahəsində yüksək nəticə göstərmiş idmançıların və idman işçilərinin əməyinin qiymətləndirilməsini və paralimpiya təqaüdlərinin təsis olunmasını nəzərdə tutur.

Vitse-spiker Adil Əliyev diqqətə çatdırıb ki, dəyişikliyə əsasən, Azərbaycan Respublikasının vətəndaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi olimpiya təqaüdləri ilə yanaşı, paralimpiya təqaüdləri, fərdi təqaüdlər, dövlət mükafatları və fəxri adlar veriləcək. Bu da ölkəmizdə paralimpiya sahəsində fəaliyyət göstərən idmançıların və idman mütəxəssislərinin sosial rifahlarının yüksəldilməsinə, onların maddi təminatlarının yaxşılaşdırılmasına xidmət edəcək.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin sonuncu məsələsi - "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair Regional məsələlər komitəsinin üzvü Səbinə Xasayeva məlumat verib. Bildirib ki, layihədə təklif edilən dəyişiklikləri şərti olaraq iki qrupda birləşdirmək olar. Belə ki, bir qrup dəyişikliklər bələdiyyələrin fəaliyyəti sahəsində yaranan münasibətlərin tənzimlənməsi üçün hüquqi əsasların yaradılması, ikinci qrup dəyişikliklər isə yuxarıda göstərilən qanunlarda bəzi maddələrin qanunvericiliyin tələblərinə uyğun təkmilləşdirilməsi, normaların daha aydın və birmənalı ifadə edilməsi, icra müddətlərinin dəyişdirilməsi məqsədilə hazırlanıb.

Müzakirədə komitə sədrləri Fazil Mustafanın və Siyavuş Novruzovun, deputatlar Razi Nurullayevin və Kamran Bayramovun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, həm iclasın, həm də növbədənkənar sessiyanın gündəliyinə daxil olan məsələlər başa çatdı. Spiker diqqətə çatdırıb ki, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin qərarı ilə hər il iyunun 30-da Beynəlxalq Parlamentarizm Günü qeyd edilir: "Yaxşı məlumdur ki, Azərbaycan xalqı özünün zəngin parlamentarizm ənənələri ilə fəxr edə bilər. Ölkəmizdə müasir peşəkar parlamentin formalaşmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ümummilli Liderimiz qanunvericilik orqanına 4 ay rəhbərlik etmiş, sonrakı dövrdə isə Milli Məclisə böyük qayğı göstərmiş, parlament quruculuğu məsələlərini daim diqqət mərkəzində saxlamışdır.

Ulu Öndərin başladığı işləri əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev ölkəmizdə parlamentarizm ənənələrinin inkişafına böyük töhfələr vermişdir. Azərbaycanda parlamentarizmin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da rolu xüsusi qeyd edilməlidir.

Möhtərəm cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva parlamentin deputatları olduqları dövrdə Milli Məclisin peşəkarlıq səviyyəsinin yüksəlməsi naminə dəyərli işlər görmüşlər".

Sahibə Qafarova Beynəlxalq Parlamentarizm Günü münasibəti ilə deputatları təbrik edib, onlara cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.

Milli Məclisin Sədri bildirib ki, iyulun 2-də Azərbaycan Polisi Günü qeyd ediləcək: "106 yaşlı Azərbaycan polisi, daxili işlər orqanları ölkəmizdə ictimai asayişin və qanunçuluğun qorunması sahəsində öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Bu haqda hörmətli həmkarlarımız burada çıxış etdilər.

Bir çox polis əməkdaşı dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması naminə döyüşlərdə, xüsusən 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərmişdir.

Azərbaycan Polis Günü münasibəti ilə biz Daxili İşlər Nazirliyinin şəxsi heyətini təbrik edirik, onlara məsul və çətin xidmətlərində yeni uğurlar arzulayırıq".

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiya barədə qısa hesabat verib. Spiker xatırladıb ki, növbədənkənar sessiya iyunun 7-də başlayıb. İyirmi bir gün davam edən bu sessiyada Milli Məclisin beş iclası keçirilib, otuz bir qanun və qərar qəbul edilib.

Spiker sessiyanın yekunları ilə bağlı bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin qanunvericilik bazasını daha da möhkəmləndirmək və təkmilləşdirmək üçün Milli Məclis öhdəsinə düşən vəzifələri bu dövrdə də layiqincə yerinə yetirməyə çalışıb.

Milli Məclisdə bu dövrdə bir ictimai dinləmə keçirilib. Ailə, qadın və uşaq məsələləri komitəsi ilə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin birgə təşkil etdikləri dinləmədə "Sağlam ailə modeli və nikah hüququ" mövzusunda müzakirələr aparılıb.

Sessiya müddətində qanunvericilik fəaliyyəti ilə yanaşı, Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də zəruri tədbirlər görülüb. Milli Məclisin on dörd deputatı yeddi xarici ölkəyə on yeddi səfər həyata keçirib. Bir deputat Bolqarıstan Milli Assambleyasına növbədənkənar parlament seçkilərini, eləcə də Avropa Parlamentinə növbəti seçkiləri müşahidə edib. Səkkiz xarici ölkənin və on bir beynəlxalq təşkilatın nümayəndə heyətləri, ümumən doxsan altı nəfər xarici qonaq Milli Məclisdə qəbul edilib.

Sahibə Qafarova qeyd edib ki, Milli Məclis böyük beynəlxalq tədbirə evsahibliyi edib. Belə ki, Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının 13-cü Şura və plenar iclasları keçirilib. Bundan başqa, Assambleyanın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun iclasları, parlament Baş katiblərinin birinci görüşü də təşkil olunub.

Diqqətə çatdırılıb ki, Milli Məclisin Sədri ölkəmizdə səfərdə olan beş ölkənin parlament sədri, bir ölkənin parlament sədrinin müavini, altı beynəlxalq təşkilatın rəhbəri ilə görüşlər keçirib.

Milli Məclis Sədrinin Belarus Respublikasına rəsmi səfəri olub. Bundan başqa, Milli Məclis ilə Özbəkistan Ali Məclisinin Senatı arasında parlamentlərarası əməkdaşlığın inkişafına dair praktiki tədbirlər planı ("Yol Xəritəsi") imzalanıb. Sənəd Milli Məclisin Sədri və Özbəkistan Senatının Sədri tərəfindən imzalanıb.

Milli Məclisin Sədri iki ölkənin - Liviya və Ukraynanın Azərbaycandakı səfirləri, eləcə də Azərbaycan Respublikasının Omandakı səfiri ilə görüşüb.

Spiker çıxışına yekun vuraraq qeyd edib ki, Milli Məclis növbədənkənar sessiyanı uğurla başa çatdırır və bununla əlaqədar o, deputatlara səmərəli iş üçün təşəkkürünü bildirib və Milli Məclisin növbədənkənar sessiyasını bağlı elan edib.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici işlər naziri ABŞ Dövlət katibinin köməkçisi ilə regional məsələləri müzakirə edib



**İyunun 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli gündəlikdə duran məsələlər, habelə Azərbaycan və Ermənistan arasında ikitərəfli əsasda normallaşma prosesinin cari vəziyyəti və perspektivləri, eləcə də regional məsələlər müzakirə edilib.

Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi əlaqələr və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə aparılan danışıqlar barədə qarşı tərəfə məlumat verib. Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülhün və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğu xatırlanıb.

Layihə üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistanın Konstitusiyasında və qanunvericilik aktlarında, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı davam edən iddialardan əl çəkməyin, konstitusiyaya dəyişiklik edilməsinin vacibliyi vurğulanıb.

Bununla yanaşı, Ermənistanın hərbiləşmə siyasətinin bölgədə sülhə və sabitliyə xidmət etmədiyi bildirilib.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident növbədənkənar parlament seçkilərini təyin etdi

## VII çağırış Milli Məclisə seçkilər ilk dəfə Azərbaycanın bütün ərazilərində keçiriləcək

*Əvvəli 1-ci səh.*

Azərbaycan Konstitusiyasının 84-cü maddəsinə görə, Milli Məclisin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda Konstitusiyanın $98^1$-ci maddəsinin II hissəsinə əsasən növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər Milli Məclisin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

Lakin noyabr ayında respublikamız mühüm tədbirlərə də evsbahibliyi edəcək. Belə ki, 2024-cü ilin noyabr ayında bir çox ölkədən nümayəndə heyətlərinin iştirakı ilə ən mötəbər beynəlxalq tədbirlərdən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycanda keçiriləcəkdir.

Göründüyü kimi, sözügedən tədbirlərin və parlament seçkilirənin keçirilmə vaxtı noyabr ayına təsadüf edir. Əlbəttə, həm beynəlxalq tədbirlərin, həm də parlament seçkilərinin yüksək səviyyədə keçirilməsi respublikamız üçün olduqca vacib məsələdir. Eyni zamanda həmin dövrdə parlamentin tam fəaliyyətdə olması, qanunvericiliklə bağlı fəaliyyətin fasiləsiz həyata keçirilməsi də vacibdir. Bu isə noyabr ayına qədər parlamentin tam formalaşması zərurətini gündəmə gətirir və görünən odur ki, Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üçün mühüm əsaslar var.

### YAP üzvü olan deputatların müraciətini digər partiyaları təmsil edən deputatlar da dəstəkləyiblər

Xatırladaq ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iyunun 20-də keçirilən iclasında YAP-ı parlamentdə təmsil edən deputatlara altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Prezidentinə müraciət olunması üçün təşəbbüs göstərmələrinin tövsiyə edilməsi barədə yekdil qərar qəbul edilib.

Parlamentin iyunun 21-də keçirilən plenar iclasında Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə qərar qəbul edilib. Qərarda qeyd olunur ki, COP29 zamanı Azərbaycan Respublikası Milli Məclisinin ərazi bütövlüyümüzün bərpasından sonra yeni tərkibdə təmsil olunması, parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsi, habelə ölkəmiz üçün bu əhəmiyyətli tədbir zamanı normayaratma fəaliyyətinin fasiləsiz həyata keçirilməsi üçün həmin vaxta qədər Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının tam formalaşdırılması zəruridir.

Onu da qeyd edək ki, YAP üzvü olan deputatların müraciəti digər siyasi partiyaları təmsil edən deputatların, habelə heç bir siyasi partiyaya mənsub olmayan müstəqil deputatların əksəriyyəti tərəfindən dəstəklənib.

Konstitusiya Məhkəməsi Plenumunun iyunun 27-də keçirilən iclasında isə Azərbaycan Prezidentinin Milli Məclisin 2024-cü il 21 iyun tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Milli Məclisin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğuna dair sorğusuna baxılıb. Konstitusiya Məhkəməsinin Plenumunun Qərarına əsasən "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Milli Məclisin Qərarı və bu Qərar əsasında Milli Məclisin Azərbaycan Prezidenti tərəfindən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Konstitusiyasının $98^1$-ci maddəsinə uyğundur.

Bu, torpaqlarımızın azad edilməsindən və ərazi bütövlüyümüzün bərpa edilməsindən sonra respublikamızda keçirilən sayca ikinci seçki olacaq. Xatırladaq ki, Vətən müharibəsindən və ərazi bütövlüyümüzün bərpa edilməsindən sonra, cari ilin fevral ayının 7-də ölkəmizdə ilk olaraq növbədənkənar prezident seçkiləri keçirilib.

Bu seçki isə Azərbaycanın bütün ərazilərində təşkil ediləcək ilk parlament seçkisi kimi tarixə düşəcək. Bütün qürurdoğuran tərəfləri ilə yanaşı, növbədənkənar parlament seçkiləri həm də Azərbaycanda demokratiyanın növbəti təntənəsinə çevriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

İyunun 28-də baş prokuror Kamran Əliyev Qazax rayon prokurorluğunun inzibati binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 24 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

* * *



"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov iyunun 28-də cənab Prezident İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq, Ağcabədi və Zərdab rayonlarından olan vətəndaşlarla görüşüb. Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən təşkil olunub.

Ağcabədi Elektrik Şəbəkəsinin inzibati binasında baş tutan görüş zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, həmçinin qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Hər iki rayonun müxtəlif kəndlərindən gələn sakinlər regionların elektrik şəbəkələrində həyata keçirilən yenidənqurma işlərinə, həmçinin vətəndaşlara göstərdiyi diqqət və qayğıya görə Cənab Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, "Azərişıq" ASC-nin həyata keçirdiyi bütün tədbirlər abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına, həmçinin elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

# Azərbaycan və Moldova arasında münasibətlər inkişaf edir



**Moldovanın "Purcari Wineries" şirkətinin baş icraçı direktoru Viktor Bostanla görüşdə azad edilmiş ərazilərimizin iqtisadi potensialı və orada şərab zavodunun fəaliyyətinin təşkili barədə müzakirə aparılıb.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, nazir Mikayıl Cabbarov Şuşada Moldovanın "Purcari Wineries" şirkətinin baş icraçı direktoru Viktor Bostanla görüşüb. Görüşdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov da iştirak edib.

Vurğulanıb ki, Azərbaycan və Moldova arasında münasibətlər inkişaf edir, iqtisadi gündəlik genişlənir. Moldova ilə iqtisadiyyatın bir çox sahələri, o cümlədən aqrar istiqamətlər üzrə tərəfdaşlığa dair mövcud potensial qeyd olunub, işğaldan azad olunmuş ərazilərimizdəki biznes layihələrində Moldova şirkətlərinin iştirakı imkanları diqqətə çatdırılıb.

Tərəflər işğaldan azad edilmiş ərazilərimizdə biznes qurmaq üçün yaradılmış şərait, potensial əməkdaşlıq və şərab zavodunun fəaliyyətinin təşkili imkanları barədə fikir mübadiləsi aparıblar.

# Müdafiə və milli təhlükəsizlik xərcləri 7 milyardı ötdü

## Azərbaycan hərbi potensialını daha da gücləndirməklə regionda sabitliyi təmin etmək niyyətindədir

**"2024-cü ilin dürüstləşmiş büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri 705 milyon manat artırılaraq 7 milyard 126 milyon manata çatdırılıb. Hərbi xərclərin artırılması bütövlükdə müdafiə və milli təhlükəsizliyin gücləndirilməsinin prioritet olduğunu göstərir".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Azərbaycan həm müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, həm də milli təhlükəsizliyin möhkəmlənməsinə xüsusi önəm verən ölkələrdəndir. Təbii ki, məqsəd Cənubi Qafqazda formalaşmış və bütövlükdə regionun inkişafına xidmət edən yeni düzənin qorunub saxlanılmasından ibarətdir. "Azərbaycan heç bir halda müharibənin tərəfdarı deyil, sülhün və xüsusən də dayanıqlı sülhün əldə edilməsində maraqlıdır. Bununla da praktiki olaraq sülhə töhfə verən ölkələrdən biridir. Sözsüz ki, özünümüdafiə, ərazi bütövlüyü və suverenliyimizin qorunması prioritetdir və bu da təbii ki, müdafiə və milli təhlükəsizlik xərclərinin artırılmasını tələb edir", - deyə o əlavə edib.

V.Bayramov qeyd edib ki, Azərbaycanın təxminən dörd il əvvəl müharibə aparmış ölkə olduğunu nəzərə alsaq, bu, xüsusən maddi-texniki bazanın yenidən gücləndirilməsinə ehtiyac olduğundan xəbər verir. Təbii ki, bütün bunlar fonunda dövlət büdcəsinin bu istiqamətlərinə ayrılan vəsaitin həcminin artırılmasını müşahidə edirik. Bu, birmənalı şəkildə Azərbaycanın müdafiə gücünü daha da artırmaqla, ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunmasından sonra məhz bu düzənin qorunub saxlanmasına xidmət edən prioritet istiqamət olduğunu bir daha göstərir. Ona görə də hərbi xərclərimizin artmasında məqsəd stabilliyə, sülhə töhfə verməkdir.

Deputat vurğulayıb ki, Azərbaycan hərbi xərclərini artırmaqla bir sıra ölkələrdən fərqli olaraq müharibə etmək niyyətində deyil. Yeganə niyyət regionda sülhə və stabilliyə töhfə verməkdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *BMT-nin Baş katibi:* "Bakıda keçiriləcək COP29-da qətiyyətli addımlar atılmalıdır, əks halda dünya uçuruma yuvarlanacaq"

**Noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) qətiyyətli addımlar atılmalıdır, əks halda dünya uçuruma yuvarlanacaq. AZƏRTAC xəbər verir ki, bu barədə BMT-nin Baş katibi Antonio Quterreş TASS Agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində bildirib.**



Özünün də iştirak etməyi planlaşdırdığı iqlim konfransından bəhs edən Baş katib ümidvar olduğunu bildirib ki, məhz bu tədbir planetin uçuruma doğru hərəkət etməsi həqiqətinin etirafı kontekstində dönüş məqamı olacaq. O deyib: "Son 12 ayın hər biri əvvəlkindən daha isti olub. Alimlər ilk dəfə qeyd edirlər ki, yaxın bir neçə ildə bizdə 1,5 dərəcədən çox qlobal istiləşmə müşahidə oluna bilər və bu, təbii ki, vəziyyətin dönməzliyi anlamına gəlmir. Xeyr, demək istəyirəm ki, 1,5 dərəcə məqsədi uzunmüddətli hədəfdir".

Baş katibin sözlərinə görə, əgər daha bir sıçrayış baş verərsə, dünya onu qısaltmaq və axını tamamilə dəyişmək üçün hər cür səy göstərməli olacaq. "Ancaq biz tarixin çox dramatik anındayıq. İstərdim ki, bu konfransda bəzi qətiyyətli tədbirlər görülsün, amma yenə də iqlim ədaləti çərçivəsində; iqlim dəyişikliyinə töhfə verməyən, lakin ondan çox əziyyət çəkən inkişaf etməkdə olan ölkələrin maraqları nəzərə alınsın. Bu, həm dəniz səviyyəsinin yüksəlməsi amilindən təsirlənən kiçik adalara, həm də quraqlığın icmalara dağıdıcı təsir göstərdiyi Afrika ölkələrinə aiddir", - deyə Quterreş vurğulayıb.

BMT-nin rəhbəri deyib: "Əgər biz iqlim dəyişikliyi tendensiyasını əks istiqamətə çevirən qərarlar qəbul edə bilsək, eyni zamanda dramatik təsirlərlə üzləşən və resurslara ehtiyacı olan inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına cavab versək, onda bu, irəliyə doğru atılmış mühüm bir addım olardı. İnkişaf etmiş ölkələr öz üzərinə öhdəliklər götürməli və iqlim dəyişikliyinin təzyiqi altında inkişaf etməkdə olan ölkələrin üzləşdiyi problemlərə daha effektiv töhfə verməlidir".

# "Sıfır Tullantı" Bakı Təşəbbüsü qəbul edilib

**İyunun 28-də "Yaşıl dünya naminə həmrəylik: Dayanıqlı gələcək üçün tullantıdan dəyərə" Beynəlxalq Forumu çərçivəsində tədbirdə iştirak edən təşkilat və şirkətlər tərəfindən "Sıfır Tullantı" Bakı Təşəbbüsü qəbul edilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Mehman Nəbiyev şirkət və təşkilatların öz təşəbbüsləri ilə tullantıların idarə olunması sahəsində ən son nailiyyətlərdən istifadə edərək müasir təcrübənin tətbiqi, istehsalçı məsuliyyətinin gələcəkdə fəaliyyət sahələrində nəzərə alınması məqsədilə bir çağırış hazırlandığını diqqətə çatdırıb: "Çağırışda həm istehsalçıların məsuliyyəti, həm sıfır tullantının, müasir texnologiyaların və "yaşıl iqtisadiyyat"ın tətbiqi sahəsində planlaşdırılan işlər öz əksini tapıb. Təşəbbüsü bir neçə şirkət imzalayıb və bununla bağlı nazirlikdə görüş də keçirilib. Çağırış açıq şəkildə saxlanılır və təşəbbüsə qoşulmaq istəyənlər onu imzalaya bilərlər".

Sonra "Sıfır Tullantı" Bakı Təşəbbüsünün mətni oxunub.



Bakı Təşəbbüsünə qoşulan şirkət və təşkilatlar Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etdiyi üçün Azərbaycan hökumətinə dərin təşəkkürlərini bildirib və 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndiriblər.

Bakı Təşəbbüsündə, həmçinin qeyd olunub: "Qlobal ətraf mühit problemlərinin vacibliyini dərk edərək Paris Sazişinin və 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərinin gündəliyinə sadiqliyimizi bəyan edirik. Bu və Azərbaycanın tərəfdar olduğu digər beynəlxalq çərçivələrə uyğun olaraq dayanıqlı inkişafı təşviq edən və iqlim dəyişmələrinin təsirlərini azaltmağa yönəlmiş strategiyaların həyata keçirilməsini dəstəkləyirik.

Məhsulun keyfiyyətini və təhlükəsizliyini qorumaqla Azərbaycanda təkrar emal olunan, kompostlaşdırıla bilən və ya təkrar istifadə oluna bilən innovativ həlləri təşviq edərək tullantıların İstehsalçının Genişləndirilmiş Məsuliyyəti modeli üzrə idarə olunması zəruriliyini qəbul edirik.

Biz ekoloji cəhətdən təmiz qablaşdırma texnologiyalarını və qabaqcıl tullantıların idarə olunması həllərini inkişaf etdirmək üçün innovativ layihələri dəstəkləməyə, beləliklə, daha dayanıqlı gələcəyin təmin edilməsinə töhfə vermək üçün səy göstərəcəyimizi bildiririk.

Biz Azərbaycanda tullantıların toplanması, çeşidlənməsi və təkrar emalı üçün kompleks həlləri əhatə edən tullantıların səmərəli və effektiv idarə olunması sisteminin qurulmasının zəruriliyini qəbul edirik.

Biz tullantıların azaldılması və dayanıqlı idarə edilməsi təcrübələrini yaxşılaşdırmaq məqsədilə siyasət və qaydaların hazırlanması və həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Təmiz Şəhər" ASC, yerli hakimiyyət orqanları və digər əsas tərəfdaşlarla əməkdaşlığın vacibliyini vurğulayırıq.

Şəffaflıq və hesabatlılığa olan bağlılığımızla tullantıların azaldılması məqsədlərinə doğru irəliləyişimizi hər il izləməyin və nailiyyətlərimizi ictimaiyyətə açıq şəkildə çatdırmağın əhəmiyyətini təsdiqləyirik.

Tullantıların azaldılması, təkrar emalın və məsuliyyətli istehlakın vacib əhəmiyyətini ictimaiyyətə çatdırmaq üçün maarifləndirmə təşəbbüslərində iştirak etməyin əhəmiyyətini vurğulayırıq.

Biz "Sıfır Tullantı" təşəbbüslərində iştirak etmək üçün milli və beynəlxalq şirkətlərlə tərəfdaşlıq imkanlarını araşdıracağıq və onları təşviq edəcəyik, beləliklə, dayanıqlılığa yönəlmiş kollektiv addımları dəstəkləyəcəyik.

Nəhayət, məqsədimiz tullantıların minimuma endirildiyi, resursların optimallaşdırıldığı və təbii mühitin gələcək nəsillər üçün qorunduğu Azərbaycanda dövri iqtisadiyyatın həyata keçirilməsinə töhfə verməkdir.

Bu təşəbbüsə imza atanlar kimi, Azərbaycan və dünyada dayanıqlı gələcəyi təmin etmək üçün kollektiv səylərimizin əhəmiyyətini başa düşərək, bu prinsiplərə sadiq qalırıq".

Bakı Təşəbbüsünü imzalayan tərəflər onun prinsiplərinə və məqsədlərinə sarsılmaz sədaqətlərini bəyan ediblər.

# Revanşizmin artması Ermənistana ciddi problemlər yaradacaq

## İrəvan sülh tərəfdarıdırsa, əməli fəaliyyəti ilə bunu göstərməlidir

**"Hazırda Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi Azərbaycan üçün ən əsas məsələdir. Bu səbəbdən ərazilərini işğaldan azad etmiş dövlətimiz Ermənistana sülh sazişi imzalamağı təklif edib. Rəsmi İrəvan da sülhdən danışır, amma görünən odur ki, bu, yalnız spekulyasiya xarakteri daşıyır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, Ermənistanın bəzi rəsmi şəxslərinin, o cümlədən Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın son açıqlamaları da bundan xəbər verir. Əgər Ermənistan Cənubi Qafqazda sülhün tərəfdarıdırsa, Azərbaycana qarşı ərazi iddialarına son qoymalıdır, çünki bu ölkənin konstitusiyasında ölkəmizə qarşı ərazi iddiaları hələ də qüvvədə qalır. Azərbaycan rəsmi səviyyədə bununla bağlı dəfələrlə rəsmi xəbərdarlıq edib. Nəzərə almaq lazımdır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-ə yenidən birləşmək haqqında" birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də Azərbaycan torpağına iddia ortaya qoyur. "Lakin erməni tərəfi bu mövzuda spekulyasiyanı davam etdirməkdədir. Əslində, bu, beynəlxalq ictimaiyyətin diqqətini iki ölkə arasında sülhə nail olmaq üçün manevr təşkil edən çağırışlardan yayındırmaq niyyətindən başqa bir şey deyil", - deyə o əlavə edib.

Komitə sədrinin müavini qeyd edib ki, bu gün əsas problem başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran, Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarıdır. Azərbaycanın milli təhlükəsizliyinə bilavasitə təsir edən bu iddiaların Konstitusiyadan çıxarılmasını tələb etməyə legitim hüququ var və bu, Ermənistanın daxili işlərinə müdaxilə kimi qələmə verilə bilməz. Görünən odur ki, erməni tərəfi dayanıqlı sülhdə maraqlı deyil və yalnız bu vəziyyəti gələcəkdə yenidən Azərbaycana qarşı ərazi iddialarına başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışır.

S.Fətəliyeva söyləyib ki, digər narahatedici məqam isə rəsmi İrəvanın hərbiləşmə siyasətini davam etdirməsidir: "Ötən ildən başlayaraq Fransa Ermənistana silah tədarük edir, eyni zamanda Hindistan da İrəvana müxtəlif növ silahlar satır. Təbii ki, Ermənistanın silahlandırılması regionda hərbi gərginliyin yaradılmasına xidmət edir. Bu baxımdan Fransa xüsusi canfəşanlıq edərək Ermənistan vasitəsilə Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışır. Parisin məqsədi regionda yeni müharibə alovlandırmaqdır və Ermənistan buna görə hərbiləşdirilir. Hərbiləşmə siyasətini davam etdirməsi Ermənistanın Azərbaycana qarşı gizli gündəminin mövcud olduğunu nümayiş etdirir. Son vaxtlar şərti dövlət sərhədində erməni hərbi birləşmələrinin Azərbaycan ordusunun mövqelərini atəşə tutması da bunun göstəricisi ola bilər".

Komitə sədrinin müavini vurğulayıb ki, Ermənistan regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolunun qonşu ölkələrin suverenliyinin və ərazi bütövlüyünün tanınması olduğunu anlamalıdır. Eyni zamanda həmin şərtlərə əməl etməklə münasibətlər qurulmalı və bu istiqamətdə təhlükə yaradan çağırışlar aradan qaldırılmalıdır. Rəsmi İrəvan həqiqətən sülhün tərəfdarıdırsa, əməli fəaliyyəti ilə bunu nümayiş etdirməlidir. Əks halda revanşizmin artması, silahlanmanın davam etməsi Ermənistanın özü üçün ciddi problemlər yaradacaq.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Hərbə hazır sülh ordusu

## Azərbaycanın Silahlı Qüvvələri modernləşməkdə davam edir

**Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoyub. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən dövlət başçısının diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimiz ən müasir silah və texnika ilə təchiz olunub və proses davam edir. Məhz bunun nəticəsidir ki, Azərbaycanın Silahlı Qüvvələri qısa müddət ərzində regionun ən qüdrətli ordusuna çevrilib, dünyanın güclü orduları sırasında yer alıb.**



Təbiidir ki, ordunun gücü, qüdrəti onun şəxsi heyətinin döyüş hazırlığının yüksək səviyyədə olmasında, istifadəsindəki silah-sursatın müasirliyində və digər texniki vasitələrindədir. Dövlətimiz ordunu gücləndirmək, ən müasir silahlarla təmin etmək üçün dünyanın hərbi cəhətdən qabaqcıl, inkişaf etmiş ölkələri ilə sıx əməkdaşlıq edir. Rusiya, İsrail, Türkiyə, Belarus və digər ölkələrdən alınan silahlar təlimlərdə və döyüşlərdə özünü doğruldur. Bunlardan əlavə, müxtəlif ölkələrdən alınan pilotsuz uçuş aparatları da ordumuzun döyüş qabiliyyətini xeyli artırıb.

2020-ci il sentyabrın 27-də ermənilərin təxribatı ilə başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında düşmən üzərində qazandığı qələbə həm Azərbaycan, həm də dünya hərb elmi tarixində mühüm izlər qoydu. Bu Zəfər Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya göstərdi. İkinci Qarabağ müharibəsinin davam etdiyi günlər Müdafiə Nazirliyinin yaydığı videolardan da gördük ki, Türkiyə istehsalı olan zərbə təyinatlı PUA-lar düşmənin zirehli texnikalarını, artilleriya qurğularını və hava hücumundan müdafiə sistemlərini necə dəqiqliklə məhv edir. Bu, ordumuzun arsenalındakı ən müasir silahlardan xəbər verirdi, gücünü, qüvvəsini, hazırlığını göstərirdi.

Ordu quruculuğu, onun təchizatı bu gün də davam edir. Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi, müasir silahlarla təmin edilməsi istiqamətində zəruri tədbirlər görülür. Ötən il iyul ayının 23-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında ordu quruculuğu istiqamətində həyata keçirilən islahatlardan və quruculuq işlərindən bəhs edərək demişdir: "Biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm Zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində daha islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. Buna, əlbəttə ki, ehtiyac var".

Ali Baş Komandanın qeyd etdiyi kimi, bu gün ordumuz üç il əvvəlkindən daha güclü, daha hazırlıqlı, daha peşəkardır. İkinci Qarabağ müharibəsindən sonra müasir silahların alınması ilə yanaşı, Silahlı Qüvvələrimizdə yeni ordu birləşməsinin yaradılmasına da başlanılıb. Qısa zaman ərzində Quru Qoşunlarının komandanlığı, ümumiyyətlə, strukturu formalaşdırılıb. Bununla eyni vaxtda Quru Qoşunlarının tərkibində daha çevik, daha hazırlıqlı, daha peşəkar Komando hərbi birləşmələri yaradılıb. Zabit və gizirlər, eləcə də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları qardaş Türkiyədə Komando kursları keçiblər. Xüsusi Təyinatlı Qüvvələrin hazırlanması, müddətdən artıq həqiqi hərbi xidmətlə bağlı müqavilə bağlayanların strukturunun formalaşdırılması ordu quruculuğuna böyük təkan verib.

Eyni zamanda ordumuzun digər strukturlarında da silah-texnika arsenalının təkmilləşdirilməsi üçün ciddi addımlar atılıb. Aparılan müvafiq quruculuq işləri, yaradılan yeni strukturlar Silahlı Qüvvələrin peşəkar hərbi birləşməyə keçidi və ixtisaslı döyüşçülərdən formalaşdırılması istiqamətində atılan addımlar ordumuzu daha da gücləndirib.

Azərbaycan Ordusunu gücləndirmək məqsədi ilə ölkəmiz Türkiyə, Gürcüstan, Rusiya ilə yanaşı, Ukrayna, Belarus, ABŞ, Böyük Britaniya, Pakistan, İsrail, İtaliya və digər dövlətlərlə hərbi, hərbi-texniki və hərbi-siyasi əməkdaşlıq edir. Ölkəmizin NATO bloku ilə əməkdaşlığı xüsusi olaraq qeyd edilməlidir.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı isə ayrıca qeyd olunmalıdır. Ölkələrimiz arasında "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" imzalanmış müqaviləyə əsasən, hərbi sahədə sıx əməkdaşlıq edilir. Azərbaycan Türkiyədən mütəmadi olaraq NATO standartlarına cavab verən silah və sursat alır. Təkcə bir misal: Türkiyənin "Bayraktar Makina" şirkətinin istehsalı olan "Bayraktar TB2" aparatı İkinci Qarabağ müharibəsi zamanı erməni qəsbkarlarının canlı qüvvəsinin, zirehli texnikalarının məhv edilməsində mühüm rol oynadı. Bütün bunlar bir daha ordumuzun artan gücündən xəbər verir.

Hazırkı mürəkkəb zamanda güvənə biləcəyimiz ordumuz var. Ona görə də dövlətimiz müstəqilliyimizin təminatçısı olan ordumuzun daha da gücləndirilməsi, ən müasir silahlarla təmin edilməsi istiqamətində mühüm addımlar atır. Bu addımlar isə ilk növbədə regionda sülhə, əmin-amanlığa xidmət edir.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

## Elşad İSKƏNDƏROV:

# "Mina qurbanlarının hüquqlarının bərpası üçün əməli addımlar atmağın zamanı çatıb"




**İyunun 27-də BMT-nin Cenevrə ofisində İnsan Hüquqları Şurasının 56-cı sessiyası çərçivəsində "Minalarsız dünya naminə insan haqları sistemindən istifadə və mina qurbanlarının hüquqlarının bərpası" adlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın, Xorvatiyanın, Mozambikin, Panamanın diplomatik nümayəndələri, habelə beynəlxalq qurum rəhbərləri yerüstü minaların fəsadlarının aradan qaldırılması və insan haqları üzrə BMT sisteminin mina qurbanlarının, onların ailə üzvlərinin hüquqlarının qorunmasında istifadəsi mövzusunda keçirilən panel müzakirələrdə çıxış ediblər.

Tədbirdə "Minalar və təmiz ətraf mühit hüququ" mövzusunda məruzə ilə çıxış edən Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov bildirib ki, minalar təkcə bilavasitə qurbanlarının deyil, bütün insanlığın haqqı olan təmiz ətraf mühit hüququna dağıdıcı təsir göstərir. Səfir konkret misallar gətirərək minaların torpağın eroziyasına, su mənbələrinin çirklənməsinə təsiri ilə ekosistemi və biomüxtəlifliyi məhv etdiyini diqqətə çatdırıb. Bu baxımdan təmiz ekologiya probleminin xüsusi aktuallıq daşıdığı bir dönəmdə BMT-nin İnsan Haqları Şurasının bu hüququn müdafiəsi istiqamətində konkret addımlar atmasının vacibliyi vurğulanıb.

"Məhz burada - Cenevrədə həm insan haqları, həm silahsızlaşdırma, həm də humanitar dəstək üzrə BMT strukturlarının və digər beynəlxalq qurumların fəaliyyət mərkəzləri yerləşir. Ona görə də İnsan Haqları Şurası bu fürsətdən istifadə edərək mina qurbanlarının xüsusi həssas kateqoriya kimi tanınması, onların hüquqlarının bərpa və təmin olunması üzrə konkret addımlar atmalıdır" deyən azərbaycanlı diplomat əlavə edib ki, işğaldan azad olunmuş ərazilərimizdə 2 milyona yaxın minanın təmizlənməsi on illər və milyardlarla dollar vəsait tələb edir. E.İskəndərov Azərbaycanın mina ilə çirklənmənin ağır nəticələrini yaxşı bildiyini vurğulayıb. Minaların insan həyatlarını məhv etməsi ilə bərabər, inkişafda olan dövlətlər üçün ağır iqtisadi yük olduğunu qeyd edən Azərbaycan nümayəndəsi deyib: "Azərbaycan BMT İnsan Haqları Şurasına bu sahədə hərtərəfli dəstək, mina qurbanlarının hüquqlarının bərpasına töhfəsini verməyə hazırdır".

Qeyd edək ki, BMT-nin Cenevrə ofisi nəzdində Azərbaycan daimi nümayəndəliyi və "Universal Hüquqlar Qrupu" ("Universal Rights Group") beynəlxalq təşkilatının təşəbbüsü ilə keçirilən tədbirin həmtəşkilatçıları Avstriya, Xorvatiya, Sloveniya, İrlandiya, Panama, Monteneqro və Niderlandın nümayəndəlikləri olub.

# Belə getsə, keşişin də leşi çıxacaq

**44 günlük müharibədə Ermənistan təkcə məğlub olmadı, həm də dərin siyasi böhrana, çıxılmaz depressiyaya düşdü. Çünki Azərbaycan Ordusunun sarsıdıcı zərbəsi ermənilərin 200 illik "böyük Ermənistan" yaratmaq xülyasına birdəfəlik son qoymuşdu.**

Bu gün Ermənistan cəmiyyəti və siyasi elitası iki yerə parçalanıb. Birincilər reallığı qəbul edənlər, ikincilər isə acı məğlubiyyətlə barışmayan revanşistlərdir. İndi bu iki qrup arasında ölüm-dirim mübarizəsi gedir.

Qonşu ölkədə baş verən prosesləri izləyəndə görürük ki, erməni cəmiyyəti həqiqətən xəstədir. Yəni onlar dünyada baş verən reallıqları anlamaq və nəticə çıxarmaq iqtidarında deyillər. İndi də məğlubiyyətlərinin bütün günahını Rusiyada və ruslarda görürlər. Belə fikirləşirlər ki, rus əsgərləri onların əvəzində Azərbaycanla döyüşməli idi. Daha fikirləşmirlər ki, onları Azərbaycan ərazisini 30 il işğal altında saxlamaq zəlil günə qoydu.

Ermənilər bu günədək bir arada saxlayan "böyük Ermənistan" ideyası olub. Hamı yaxşı xatırlayır: Ermənistanın keçmiş prezidenti Serjik Sarkisyan tələbələrin Ağrı dağı (yəni Türkiyə ərazisi) ilə bağlı sualına cavab olaraq demişdir ki, bizim nəslimiz Qarabağı azad etdi, siz də o torpaqları azad etməlisiniz. Bu xəyaldan sonra Azərbaycan Ordusu Serjik və onun kimilərini elə cəzalandırdı ki, bir daha başlarını qaldıra bilməyəcəklər.

Amma bir məsələni də unutmaq olmaz ki, 200 il erməni cəmiyyətində formalaşmış "böyük Ermənistan" ideyası qısa zamanda onların beyinlərindən silinib getməyəcək. Hətta bunu istəsələr belə, bunu onlara xaricdəki havadarları, diaspora və kilsə imkan verməyəcək. Çünki illər boyu bu cəmiyyət xəstə təfəkkürlə yaşayıb. Amma faydası yoxdur, qarşılarındakı iqtisadi və hərbi cəhətdən güclü Azərbaycandır. Elə buna görə ermənilərin üçüncü Qarabağ müharibəsi barədə çağırışları boş hay-küydür.

Ermənistanın baş naziri və xarici işlər nazirinin revanşistlərə tez-tez dediyi "siz yenə də 4 min erməni əsgərinin ölməsini istəyirsiz" sözləri onların Azərbaycan Ordusundan çəkinməsindən qaynaqlanır. Bu gün qonşu ölkədə iqtidarda olanlar himayədarları tərəfindən qızışdırılsa da, reallığı nəzərə alırlar. N.Paşinyan bunu açıq şəkildə deyib: "Əgər yenidən müharibə olsa, heç kəs bizim əvəzimizdən vuruşmayacaq və Azərbaycanla üzüə qalacağıq".

Qaşınmayan yerdən qan çıxarmaq ermənilərin tarixi mərəzidir. Son 100 ildə qonşuları ilə çəkişmə yaradan ermənilərin, el arasında deyildiyi kimi, həmişə "çanaq başlarında çatlayıb". İndi də Ermənistandakı revanşist qüvvələr bir keşişi tapıb ortaya atıblar. O, meydan-meydan, şəhər-şəhər gəzib Ermənistan iqtidarını devirib revanşist müharibəyə başlamaq istəyir. Amma deyəsən, qonşu ölkədə yeni reallıqları dərk edənlər revanşistlərdən çoxdur. Əks halda bu müddət ərzində Ermənistanda çoxdan çevriliş olmuşdu.

Bu gün heç kəsə sirr deyil ki, keşiş Boqratın apardığı avantürist çağırışların arxasında duran əsas qüvvə Qarabağ klanıdır. O klan ki, ermənilər illərlə yaşadıqları rəzalətə görə onlara nifrət edirlər. Bu üzdən də müharibə çağırışları edən keşişə böyük dəstək verilmir. Digər tərəfdən, hər kəsə məlumdur ki, Baqrat kimi bir əyalət keşişinin arxasınca minlərlə insan düşməz, ona pərdə arxasında dəstək verən daxili və xarici qüvvələr var. Yoxsul, səfalət içində yaşayan ermənilərə hər mitinqdə iştiraka görə 5 min dramın verildiyini N.Paşinyan parlament tribunasından bəyan etdi. Əsas maliyyəçilərinin Qarabağ klanı, diaspor və erməni kilsəsi olduğu isə hər kəsə bəllidir.

Ermənistanın ən böyük bəlası bu günədək sözün həqiqi mənasında coğrafi ərazi statusunda qalmasıdır. Qonşu ölkədə 4 dəfə iqtidar dəyişsə də, o, heç vaxt müstəqil dövlət olub azad şəkildə daxili və xarici siyasət həyata keçirə bilməyib. Əvvəlki iqtidarlar dövründə üzlərini şimala, indi isə qərbə tutublar. Azərbaycanla bu günədək sülh sazişinin bağlanmaması da bununla bağlıdır. N.Paşinyan indi Qərbdən aldığı tapşırıqları yerinə yetirməklə məşğuldur. Belə olmasaydı, silahlanmaq əvəzinə ölkəmizlə sülh müqaviləsi bağlayıb iqtisadi və siyasi xaosdan xilas olmaq üçün səy göstərərdi.

Rusiya ilə münasibətlərin kəskinləşməsinin Ermənistana baha başa gələcəyini söyləyən erməni siyasətçiləri və politoloqları da kifayət qədər çoxdur. Onlar dərk edirlər ki, şimal qonşumuz təkcə enerji daşıyıcılarının qiymətini artırmaqla Ermənistanı qısa bir zamanda dərin sosial-iqtisadi və siyasi böhrana sürükləyə bilər. Qeyd etdiyimiz kimi, bunun kökündə Ermənistanda milli maraqlara uyğun siyasət apara biləcək siyasətçi və siyasi iradənin olmaması durur. Nə qədər ki, bu ölkə öz milli maraqlarını qoruya bilməyəcək, onu başqa ölkələrdən gələn emissarlar idarə edəcək.

*Rüstəm KAMAL, "Azərbaycan"*






# Azərbaycan 2026-cı ildə Ümumdünya Ətraf Mühit Gününə ev sahibi seçilib

**Azərbaycan 2026-cı ildə Ümumdünya Ətraf Mühit Gününə ev sahibi seçilib. Tezliklə bu böyük məsələni elan edəcəyik. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen deyib.**



"Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı ətraf mühit, iqlim, biomüxtəliflik və çirklənmə üzrə dünyanın aparıcı orqanıdır. Əlbəttə ki, bir ölkə COP-a evsahibliyini öz üzərinə götürürsə, onu dəstəkləmək bizim borcumuzdur. Onu da vurğulamaq istərdim ki, Azərbaycan 2026-cı ildə Ümumdünya Ətraf Mühit Gününə evsahibliyi etmək üçün seçilib. Tezliklə bu böyük məsələni elan edəcəyik.

Azərbaycanda olmaqdan böyük məmnunluq duyuram. Bu ölkənin nə qədər qeyri-adi və gözəl olduğunu bildirmək istəyirəm. Mən həqiqətən iqlim məsələlərində addımlayaraq liderlik edən bir ölkəni görə bilirəm. Beləliklə, bu gün mən Şirvan Milli Parkı ilə yanaşı, fövqəladə işlər görən, nərə balıqlarının buraxılması ilə məşğul olan müəssisəyə baş çəkə bildim. Gənclərlə dialoq aparmaq fürsətim də oldu. Azərbaycan artıq COP29-a evsahibliyi etməyə hazır olduğunu bildirir. Biz qlobal səviyyədə liderlik etməyə hazırıq. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı olaraq bu gözəl ölkəyə yardım etmək üçün əlimizdən gələni edəcəyik", - deyə İ.Andersen qeyd edib.

# Azərbaycanda qlobal miqyasda ən vacib tədbirlərdən biri keçiriləcək



**Azərbaycan BMT-nin Ətraf Mühit Proqramının (UNEP) xətti ilə 2026-cı il iyunun 5-də Ümumdünya Ətraf Mühit Gününə evsahibliyi edəcək. Bu, qlobal miqyasda ətraf mühit baxımından ən vacib tədbirlərdən biri olacaq.**

Bunu COP29-la bağlı keçirilən brifinqdə AZƏRTAC-ın sualına cavabında COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji mühitin qorunması istiqamətində mühüm işlərin görüldüyünü bildirən nazir qeyd edib ki, Azərbaycanda bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, eləcə də COP29-un Bakıda keçirilməsi də ölkəmizin bu sahəyə verdiyi önəmin göstəricisidir. "Ümumdünya Ətraf Mühit Günü kimi beynəlxalq tədbirin Azərbaycanda uğurla keçirilməsi ilə bağlı mühüm işlər görüləcək. Bu tədbir Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində görülən işlərin təbliği baxımından da olduqca uğurlu addımdır. Həmçinin ekologiyanın qorunması üçün də faydalı olacaq", - deyə nazir əlavə edib.

# Dünyanın COP29-dan gözləntiləri çoxdur

**Azərbaycan daha bir mötəbər tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməyə hazırlaşır. Noyabr ayında ölkəmizin paytaxtında keçiriləcək COP29 indidən dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların diqqət mərkəzindədir.**

Etiraf olunur ki, COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında növbəti sessiyanın Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın, hörmətin, eyni zamanda respublikamızın milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişikliklərinin qarşısının alınması işinə verdiyi töhfələrin nəticəsidir.

Qazaxıstanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim siyasəti departamentinin direktoru Saule Sabiyeva deyir ki, ölkəsi COP29-a böyük ümidlər bəsləyir. Qazaxıstan rəsmisinin sözlərinə görə, ölkəsi iqlim maliyyəsinin əsas aspektləri, tərəflərin iqlim həllinə necə nail olmaq niyyətində olduqları və ümumilikdə karbon neytrallığı üzrə öhdəliklərin yerinə yetirilməsi üzrə konsensus əldə etməyi gözləyir: "Bakıda keçiriləcək COP29 Qazaxıstan üçün vacibdir. Müvafiq olaraq, biz COP29-dan su hövzələri, ehtiyatları və Xəzər dənizində çirklənmənin monitorinqi üzrə xüsusi regional əməkdaşlıqdan mühüm nailiyyətlər gözləyirik". S.Sabiyeva həmçinin iqlim problemlərinin həlli yollarından danışaraq diqqətə çatdırıb ki, Qazaxıstan "yaşıl iqtisadiyyat"a nail olmaq baxımından "yaşıl maliyyə" bazarının və "yaşıl taksonomiya"nın inkişafı kimi birgə regional həll yollarına ümid edir: "Bu, regiona ekoloji cəhətdən təmiz məhsul istehsalına yönəlmiş investorların diqqətini cəlb etməyə imkan verəcək".

İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançesko ölkəsinin Respublika Gününə həsr olunmuş tədbirində deyib ki, İtaliyanın "Böyük yeddilik"dəki (G7) sədrliyi və Bakıda keçiriləcək COP29 uğurlu olacaq. "Bu il ölkələrimizin çiyinlərinə böyük məsuliyyət düşür. Amma eyni zamanda əməkdaşlıq üçün əlavə imkanlar açılır. İtaliya G7-yə, Azərbaycan isə COP29-a sədrlik edir. Əminik ki, COP29 uğurlu olacaq".

ICESCO-nun baş katibi Səlim Əl-Malik isə Şuşa şəhərində keçirilən "By Youth for Youth" (Gənclər tərəfindən gənclər üçün) Beynəlxalq Forumundakı çıxışı zamanı gələcəkdə Azərbaycanla tərəfdaşlığın genişləndirilməsini nəzərdə tutduqlarını bildirib: "Bunun üçün əlimizdən gələni edəcəyik. Bu il Azərbaycanda keçiriləcək COP29 tədbirində də iştirak etmək istəyirik".

Beynəlxalq Enerji Agentliyinin (IEA) rəhbəri Fatih Birol "Beynəlxalq Enerji Agentliyi - COP29" adlı ikinci yüksəksəviyyəli görüşdən sonra Londonda "Anadolu" agentliyinə müsahibəsində bildirib ki, IEA bərpaolunan enerji potensialının və enerji səmərəliliyinin artırılması üzrə qlobal öhdəliklər çərçivəsində Azərbaycan hökuməti ilə üç yeni təklif üzərində işləyir: "Bunlardan birincisi akkumulyatorlara (enerji saxlama sistemləri) aiddir. 2030-cu ilə kimi akkumulyator tutumunun nə qədər artacağını müəyyən etmək üzərində çalışırıq. İkincisi şəbəkələr, üçüncüsü isə bu regionda metan emissiyalarının azaldılması ilə bağlıdır. Biz Qazaxıstan, Türkmənistan və regionun digər ölkələrinə Azərbaycanın rəhbərliyi altında birləşdirici öhdəlik təklif edirik. Söyləyə bilərəm ki, biz COP29-dan əvvəl bu üç məsələyə diqqət yetirəcəyik".

IEA-nın rəhbəri danışıqların digər əsas mövzusunun təmiz enerjinin maliyyələşdirilməsi olduğunu diqqətə çatdırıb. O, xüsusilə inkişaf etməkdə olan ölkələrdə bu sahəyə qoyulan investisiyaların 6 dəfə artmalı olduğunu deyib: "Təmiz enerjini maliyyələşdirmək üçün təkcə inkişaf etməkdə olan ölkələrə ildə 2 trilyon ABŞ dolları məbləğində maliyyə vəsaiti lazımdır. Bu mənada biz maliyyələşdirmə modelini hazırlamaq və konkret çərçivə yaratmaq üçün birlikdə işləyirik". O, "Beynəlxalq Enerji Agentliyi - COP29" adlı ikinci yüksəksəviyyəli görüşdə maliyyə sektoru, Avropa Yenidənqurma və İnkişaf Bankı, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və özəl sektorun maliyyə institutlarının nümayəndələrinin fəal iştirak etdiklərini xatırladıb. Onu da bildirib ki, COP29 üzrə növbəti iclas BMT Baş Assambleyası çərçivəsində baş tutacaq: "O vaxta qədər biz konkret təkliflə çıxış etmək üçün çox çalışacağıq. Azərbaycan bizi strateji tərəfdaş hesab edir, biz çox sıx əməkdaşlıq edirik. Düşünürəm ki, COP29 tədbiri ilə iki mühüm nəticəyə nail olunacaq. Birincisi, iştirakçı ölkələr üç qlobal öhdəliklə razılaşacaq. İkincisi, yeni maliyyələşdirmə hədəfləri və onlara necə nail olmaq barədə razılıq əldə olunacaq".

Qeyd edək ki, dünya mətbuatında da mütəmadi olaraq COP29-la bağlı yazılar dərc olunur. İsraildə ingilis dilində nəşr olunan nüfuzlu "The Jerusalem Post" qəzeti 23 iyun tarixli sayında dərc olunmuş inkişaf etməkdə olan kiçik ada ölkələrindən (Small Island Developing Countries - SIDS) bəhs edən məqalədə COP29-un əhəmiyyətinə də diqqət çəkib. "Dərhal hərəkətə keçmək lazımdır: İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyi problemi ilə qarşılaşıb" sərlövhəli məqaləsində coğrafi təcrid, təbii fəlakətlər, məhdud resurslar və iqlim dəyişikliyinin təsirləri daxil olmaqla, SIDS-in üzləşdiyi əsas problemləri ətraflı şəkildə araşdırmış Vanuatu Respublikasının iqlim dəyişikliyi üzrə xüsusi elçisi Ali Serim qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyası SIDS tarixində yeni eradan xəbər verir. Müəllif bu kontekstdə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə hərtərəfli dəstək verən Azərbaycanın COP29 iqlim sammitinin sədri kimi roluna xüsusi diqqət yetirib. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, iqlim dəyişikliyinin mənfi təsirlərinə ən çox həssas olan inkişaf edən kiçik ada dövlətlərinin üzləşdiyi problemlərin həlli Azərbaycanın COP29-da sədrliyinin gündəliyində prioritet məsələlərdən biri olacaq.

Bu günlərdə tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş "Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili elan edilib" sərlövhəli məqalədə vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il ölkəsində keçiriləcək COP29 konfransı öncəsi 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edib. Sözügedən qərar Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə mübarizədə qlobal tərəfdaş olduğunu nümayiş etdirmək məqsədi daşıyır. Müəllif ölkəmizin qarşısına 1990-cı ilin baza ili ilə müqayisədə 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35, 2050-ci ilə qədər isə 40 faiz azaltmaq kimi iddialı hədəflər qoyduğunu nəzərə çatdırıb. Müəllif onu da qeyd edib ki, 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını və 2000-ci ildə konvensiyanın Kioto Protokolunu ratifikasiya etdikdən sonra Azərbaycan Respublikası qlobal iqlim dəyişmələrinin mənfi nəticələrinin yumşaldılması istiqamətində beynəlxalq səylərə fəal qoşulub. Ölkəmiz antropogen emissiyaların və istixana qazlarının atılmasının inventarının hazırlanması və müntəzəm olaraq yenilənməsi, o cümlədən milli məlumatların hazırlanması və bu məlumatların konvensiyanın Katibliyinə təqdim edilməsi kimi öhdəliklər götürüb. Məqalədə bu öhdəliklərin sistemli şəkildə yerinə yetirildiyi, Azərbaycanın emissiyaların azaldılması üzrə qlobal səylərə artıq öz töhfəsini vermiş olduğu vurğulanıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə göstərilən diqqət təqdirəlayiqdir



**"COP29-a hazırlıq çərçivəsində Samoa kimi inkişaf etməkdə olan kiçik ada dövlətlərinə göstərilən diqqətə görə çox şadam". Bu sözləri AZƏRTAC-ın Britaniya bürosuna açıqlamasında Samoanın Belçika və Avropa İttifaqı üzrə səfiri Françella Striklend söyləyib.**

Avropa İttifaqı tərəfindən Londondakı Təbiət Tarixi Muzeyində keçirilən COP29-la bağlı paneldə iştirak edən F.Striklend Azərbaycanın COP29 sədrliyindən çox məmnun olduğunu bildirərək deyib: "Mən xüsusilə şadam ki, Samoa kimi inkişaf etməkdə olan kiçik ada dövlətlərinə diqqət göstərilir. Həm Azərbaycanın COP29-un ev sahibi kimi gördüyü işlərdən, həm də bizim iqlim dəyişikliyi komandamızın məlumatlarından görünür ki, COP29-un uğur qazanmasını təmin etmək üçün bütün öhdəliklər yerinə yetirilir. Biz bu cür fəaliyyəti alqışlayırıq və COP29-un başlanmasını səbirsizliklə gözləyirik. Təkcə Azərbaycanda, Bakıda olmaq baxımından deyil, həm də iqlim dəyişikliyindən ən çox əziyyət çəkən kiçik ada dövlətləri olaraq bir sıra önəmli vəd və layihələrin yerinə yetiriləcəyi ümidi ilə COP29-u gözləyirik".

# COP29 insan sağlamlığının qorunmasına da mühüm töhfə verəcək

**Son illər iqlim dəyişiklikləri nəticəsində ortaya çıxan bir sıra problemlər dünyanı qlobal çətinliklərlə üzüzə qoyub. Problemlərin getdikcə daha da dərinləşməsinin qarşısının alınmasında planetin bütün sakinləri məsuliyyət daşıyırlar. Bu baxımdan dövlətlərin qlobal istiləşmə ilə mübarizədə üzərinə mühüm öhdəliklər düşür.**



Atmosferə atılan zərərli qazlar hava keyfiyyətini aşağı salmaqla həm də temperaturun qalxmasına səbəb olur. Nəticədə təbii fəlakətlərin sayının artması, anomal hava şəraiti və iqlim dəyişikliklərinin yaratdığı digər fəsadlarla qarşılaşırıq. İqlim dəyişiklikləri fonunda baş verən bütün proseslər isə insan sağlamlığına təsirsiz ötüşmür. Bir sıra xəstəliklərin artdığı müşahidə edilir ki, bu da təbiətdə baş verən dəyişikliklərlə əlaqədardır.

## İqlim dəyişiklikləri ən çox həssas və müdafiəsiz əhali qruplarına təsir edir

İqlim dəyişikliklərinin yaratdığı problemlərlə birgə mübarizə günümüzdə ən aktual məsələlərdən biridir. Bu baxımdan Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 böyük əhəmiyyətə malikdir. Konfrans çərçivəsində müxtəlif panellər üzrə müzakirələr aparılaraq, mütəxəssislər tərəfindən təkliflər səsləndiriləcək.

İqlim dəyişikliyinin insan sağlamlığına təsiri barədə əməkdaşımızla danışan Almaniyanın Bad Salzungen şəhər xəstəxanasının Qulaq, burun, boğaz və üz plastik cərrahiyyə şöbəsinin müdiri, Yena Universitetinin doktorantı Cavid Hüseynzadə bildirib ki, iqlim dəyişiklikləri ən çox həssas və müdafiəsiz əhali qruplarına təsir edir. Məsələn, maddi imkanları məhdud olan şəxslər iqlim dəyişikliklərinin yaratdığı fəlakət və dəyişikliklərə daha az hazırlıqlıdırlar. Onlar təbii fəlakətlər zamanı daha çox zərər çəkir və bərpa prosesində çətinliklər yaşayırlar.

Bundan başqa, kənd təsərrüfatı ilə məşğul olan əhali iqlim dəyişikliklərinin təsirlərinə - quraqlıq, daşqın və fırtınalara qarşı daha həssasdır, çünki onların fəaliyyəti birbaşa təbiətə bağlıdır. "Eyni zamanda uşaqlar və yaşlılar sağlamlıq baxımından risk qrupuna daxildirlər, onlar iqlim dəyişikliyinin yaratdığı ekstremal hava şəraitinə tab gətirə bilmirlər. Xüsusən inkişaf etməkdə olan ölkələrdə qadınlar iqtisadi və sosial səbəblərdən daha həssas kateqoriya hesab olunur. Çünki onlar məişətdə, kənd təsərrüfatında çalışaraq daha çox məsuliyyət daşıyırlar. Xroniki xəstəlikləri olanlar, əlillər də iqlim dəyişikliyi nəticəsində yaranan sağlamlıq risklərinə daha çox məruz qalan əhali qrupudur. Həmçinin miqrantlar və qaçqınlar yeni mühitə uyğunlaşma ilə bağlı problemlər yaşadıqlarından müdafiəsiz hesab olunurlar", - deyə o bildirib.

## Çirkli hava bu xəstəlikləri artıra bilər

Həkim qeyd edib ki, çirkli hava, bəzi qazların havada miqdarının artması və ozon təbəqəsinin deşilməsi ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Nəticədə keyfiyyətsiz hava tənəffüs yollarını qıcıqlandıraraq astma və bronxit kimi xəstəliklərin yaranmasına gətirib çıxarır. Uzun müddət çirkli hava ilə təmasda olmaq ağciyərlərin xroniki obstruktiv xəstəliyinin inkişaf riskini artırır. Bu xəstəlik nəfəs darlığı və öskürək kimi simptomlarla xarakterizə olunur. Həmçinin ağciyər, dəri xərçəngi, ürək qan-damar sistemi xəstəlikləri, hipertoniya, infarkt və insult, dəri problemləri keyfiyyətsiz hava şəraitində daha da artır.

C.Hüseynzadə vurğulayıb ki, bu təsirlər insan sağlamlığını ciddi şəkildə təhdid edir və ətraf mühitin qorunmasının vacibliyini göstərir. Hava çirkliliyi ilə mübarizə aparmaq və ozon təbəqəsini qorumaq üçün hər kəsin üzərinə böyük məsuliyyət düşür.

İqlim dəyişikliklərinin bir sıra xəstəliklərinin gedişinin ağırlaşmasına səbəb olduğunu vurğulayan şöbə müdiri bildirib ki, allergik xəstəliklərin gedişatı pisləşir. Allergik rinitin ən çox görünən səbəblərindən biri polendir və Avropada geniş yayılıb. Almaniyada 12 milyondan çox uşaq və yeniyetmədə allergik renit aşkarlanıb. Ümumiyyətlə, astma və allergik rinokonyunktivit kimi xroniki respirator allergik xəstəlikləri olanlar tozcuqlara məruz qalma, hava çirkləndiricilərinin konsentrasiyası və paylanmasının artması səbəbindən risk altında olurlar. Dərhal müdaxilə edilmədiyi halda insan sağlamlığına ciddi təsirləri olur.

Həkim deyib ki, iqlim dəyişiklikləri nəticəsində isti havalar bitkilərin erkən çiçəklənməsinə səbəb olduğundan polen mövsümü daha öncə başlayır və uzun çəkir. Eyni zamanda atmosferə atılan zərərli qazlar karbon dioksidin səviyyəsini artırır ki, bu da bitkilərin polen istehsalına təsir edir.

Beləliklə, soyuq iqlimə malik ölkələrdə havanın temperaturunun yüksəlməsi polen istehsal edən bitkilərin də daha geniş yayılmasına və inkişafına gətirib çıxarır.

## Allergiyadan əziyyət çəkənlərin sayı artacaq

C.Hüseynzadə növbəti 5-15 il ərzində polen mövsümlərinin daha uzun çəkəcəyini, bu fonda allergiyadan əziyyət çəkənlərin sayının artacağını vurğulayıb. Havada olan polen allergenlərinə məruz qalma və ya inhalyasiya burun, göz və bronxlarda allergik reaksiyalara səbəb ola bilər. Bu da yuxu problemləri yaratmaqla, psixi sağlamlıq səbəbindən həyat keyfiyyətinin aşağı düşməsinə, məhsuldarlığın azalmasına, uşaqlar arasında dərs göstəricilərinin zəifləməsinə, nəticədə isə yüksək səhiyyə xərclərinə səbəb olacaq.

O vurğulayıb ki, allergik xəstəliklərdən ən çox uşaqlar əziyyət çəkir və son illərdə azyaşlılar arasında belə halların artdığı müşahidə olunur: "Havanın orta temperaturu yüksəldikcə bu tendensiyanın artacağı proqnozlaşdırılır. Lakin karbon emissiyalarının azaldılması istiqamətində tədbirlər görülərsə, proses zəifləyə bilər. Orqanizmimiz ekoloji dəyişikliklərə uyğunlaşmaq qabiliyyətinə malikdir, amma bu, çox vaxt alır. Buna görə də iqlim dəyişikliyinin yaratdığı problemlərin fəsadlarının qarşısının alınması və ya yumşaldılması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi vacibdir".

Həkim iqlim dəyişikliklərinin sağlamlığa mənfi təsirlərini azaltmaq məqsədilə görüləcək tədbirlərdən də söz açıb. O bildirib ki, istilik dalğalarına qarşı sərin mühitlər təmin etmək, xəbərdarlıq sistemləri qurmaq, yoluxucu xəstəliklərin qarşısını almaq, hava çirkliliyinə qarşı mübarizədə təmiz hava məkanlarının yaradılması, maska istifadəsi, hava keyfiyyəti barədə xəbərdarlıqlar, sağlamlıq sistemlərinin gücləndirilməsi, eyni zamanda səhiyyə xidmətlərinin artırılması, ətraf mühitin qorunması və bərpası, su ehtiyatlarının qorunması, təhsil və ictimai maarifləndirmə bu istiqamətdə görüləcək tədbirlər sırasına daxildir. Görüləcək işlər iqlim dəyişikliklərinin sağlamlığa mənfi təsirlərini azaltmaq üçün mühümdür və qlobal səviyyədə koordinasiya və əməkdaşlıq tələb edir.

C.Hüseynzadə sonda iqlim dəyişikliklərinin mənfi təsirlərini minimuma endirmək üçün təcili tədbirlər görülməli olduğunu diqqətə çatdırıb və bu baxımdan COP29-un olduqca böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb: "Bakıda keçiriləcək İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında müəyyən panellərdə qlobal istiləşmənin sağlamlığa təsirləri də müzakirə olunacaq.

Beləliklə, mənfi təsirlərin aradan qaldırılması və ya yumşaldılması istiqamətində təkliflər irəli sürüləcək. Beynəlxalq konfransın Azərbaycanda keçirilməsi isə ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizədə səyləri birləşdirmək, bu istiqamətdə töhfə vermək istəyinin bariz nümunəsidir. Azərbaycan artıq qlobal ekoloji platformaya çevrilib".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# "Sahibkarlar üçün yeni imkanlar: Qarabağı birlikdə quraq"

## Dövlət qurumları və iş adamları Şuşada bir araya gəldilər

**İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən "Sahibkarlar üçün yeni imkanlar: Qarabağı birlikdə quraq" mövzusunda tədbirdə azad olunmuş ərazilərimizin iqtisadi potensialı, biznes üçün güzəştlər, azadolmalar və digər dəstək tədbirləri barədə məlumat verilib.**

İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində "Sahibkarlar üçün yeni imkanlar: Qarabağı birlikdə quraq" mövzusunda tədbir keçirilib. 100-dən çox sahibkarın, eləcə də müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirin məqsədi sahibkarlıq subyektlərinə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının investisiya imkanlarının və biznes perspektivlərinin təqdim edilməsi, dövlət-özəl sektor əməkdaşlığı modeli üzrə müzakirələrin təşkilidir.

Tədbirdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub. Həmçinin işğaldan azad edilmiş ərazilərdə görülən işlərə, özəl sektorun inkişafı məqsədilə həyata keçirilən tədbirlərə həsr olunmuş film nümayiş edilib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət və biznes təmsilçilərinin iştirakı ilə keçirilən birgə tədbirlərin müsbət ənənəyə çevrildiyini, bugünkü görüşün də regionun inkişafına və özəl sektorun güclənməsinə töhfə verəcəyini vurğulayıb. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində böyük uğurlar əldə edilib. Prezident İlham Əliyev azad olunmuş ərazilərin iqtisadi reinteqrasiyasına böyük diqqət yetirir. Azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri iqtisadi və sosial inkişaf üçün yeni imkanlar açıb. Regionda biznesin inkişafı üçün yaradılan şərait, dövlət-sahibkar işbirliyi müstəvisində yeni layihələr reallığa çevrilib. İlk növbədə vətəndaş olaraq hər birimiz üçün işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi dirçəlişi prioritetdir. Dövlət bu sahədə üzərinə düşən öhdəlikləri yerinə yetirir, biznes üçün bölgədə əlverişli şəraiti təmin edir. Vurğulanıb ki, bölgəyə biznes subyektlərinin artan marağı nəzərə alınsa, belə fürsətlərdən yararlanmaq həmişə asan olmayacaq. Nazir azad olunmuş ərazilərə ilk vaxtlarda investisiya yatırmış sahibkarlara təşəkkürünü bildirib. Bildirilib ki, bugünkü tədbir çərçivəsində azad edilmiş ərazilərin biznes imkanları ilə tanış olmuş bir sıra sahibkarlar artıq bölgədə öz layihələrini reallaşdıracaqları ilə bağlı qərar veriblər. Regionda əhalinin iş yerləri və mənzillə təmin olunması məqsədilə müvafiq qurumlarla birgə iş aparıldığı diqqətə çatdırılıb.

İqtisadiyyat naziri işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialı, buradakı sənaye parkları, biznes üçün yaradılan əlverişli şərait barədə məlumat verib. Qeyd edilib ki, özəl təşəbbüsləri hərtərəfli təşviq etmək və dövlət-özəl sektor tərəfdaşlığını inkişaf etdirməklə regiona investisiya qoyuluşunun artırılması hədəflənir. Bundan başqa, bölgədə biznes qurmaq istəyən sahibkarların maliyyə imkanlarına çıxışı İqtisadiyyat Nazirliyinin müvafiq qurumları tərəfindən təmin edilir, eləcə də banklarla bu sahədə birgə mexanizmin hazırlanması gündəmdədir. Daha bir stimul isə azad edilmiş ərazilərdə ölkədə istehsal edilməyən məhsul istehsalı ilə məşğul olan sahibkarların istehsal etdikləri məhsulun alışının təşkil edilməsidir ki, bunun da üzərində iş aparılır.

Nazir sahibkarları Qarabağ və Şərqi Zəngəzurda biznes imkanlarından səmərəli şəkildə yararlanmaqda və bölgənin iqtisadi reinteqrasiyasına töhfə verməkdə fəal olmağa dəvət edib: "Hər qarışı bizə doğma olan bu torpaqların dirçəlişi üçün dövlət-özəl sektoru olaraq bərabər çalışmalıyıq. Sahibkarlarımızın həmrəylik və birlik kimi milli dəyərlərimizə sadiq qalaraq Qarabağın iqtisadi yüksəlişinə töhfə verəcəyinə ürəkdən inanırıq".

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Qarabağda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, bu sahədə dövlət, biznes və ictimai strukturlar arasında əməkdaşlığın inkişafı, Qarabağa əhalinin qayıdışı barədə məlumat verib. Qeyd edilib ki, bölgədə, o cümlədən Ağdam, Füzuli və Xocavənd rayonlarında sürətli bərpa və yenidənqurma işləri aparılır. Regionda infrastruktur layihələri uğurla reallaşdırılır. İşğaldan azad edilmiş ərazilərin böyük iqtisadi, o cümlədən sənaye, aqrar və turizm potensialı var. Sahibkarların bu potensialdan geniş və səmərəli istifadə etməsi onların bölgədə uğurlu biznesini təmin edəcək, Qarabağın dirçəlişinə böyük töhfə verəcək.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov işğaldan azad olunmuş ərazilərin dirçəlişinin ölkəmiz və onun iqtisadiyyatı üçün önəmini qeyd edib, Şuşada yenidənqurma işləri, tarixi və mədəniyyət abidələrinin bərpası, sosial infrastruktur tikintisi, sakinlərin ata-baba yurdlarına qayıtması məsələlərindən danışıb. Bildirilib ki, Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşanın əvvəlki şöhrəti artıq özünə qayıdır. Sürətlə bərpa olunan şəhər bölgədə beynəlxalq tədbirlər məkanına çevrilib. Bununla yanaşı, Şuşada uğurla fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı artır, burada əlverişli işgüzar mühit üçün münbit şərait var.



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov azad edilmiş ərazilərdə reinteqrasiya tədbirləri, yaşayış məskənlərində infrastrukturun yenilənməsi, əhalinin öz yurdlarına geri dönməsi, məşğulluğun təmin edilməsi prosesi barədə iştirakçıları məlumatlandırıb. Qeyd olunub ki, keçmiş məcburi köçkün ailələr mərhələli şəkildə qədim Azərbaycan yurdu Xankəndi və ətraf rayonlara qayıdırlar. Proses yaxın gələcəkdə xeyli sürətlənəcək. Bununla yanaşı, bölgədə əlverişli biznes fəaliyyəti, müəssisə və iş yerlərinin yaradılması imkanları barədə məlumat verilib. Bildirilib ki, bölgədə müxtəlif istiqamətlər üzrə sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar var və iş adamları biznes fürsətlərindən lazımınca yararlana bilərlər.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev azad edilmiş torpaqlarımızda, o cümlədən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilanda aparılan bərpa və quruculuq işlərindən, layihələrdən bəhs edib. Vurğulanıb ki, bölgədə xarici və yerli sərmayədarların diqqət və marağına səbəb olan effektiv və innovativ layihələr gerçəkləşdirilir. Regionda "yaşıl layihə"lərin icrası bu baxımdan xüsusilə qeyd olunmalıdır. Cəbrayıl, Qubadlı və Zəngilanın təbii resurs və imkanları, iqtisadi və biznes potensialı barədə məlumat verilib, burada sahibkarlıq üçün böyük imkanlar olduğu bildirilib.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov işğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişi məqsədilə həyata keçirilən layihələrin regionun və ümumilikdə ölkənin iqtisadi inkişafı üçün strateji əhəmiyyətə malik olduğunu vurğulayıb, bölgədə müasir infrastruktur təminatının yüksəldilməsi tədbirlərindən danışıb. Bildirilib ki, Laçında infrastruktur quruculuğu səmərəli şəkildə həyata keçirilir, beynəlxalq hava limanının tikintisi davam etdirilir, regionun alternativ və "yaşıl enerji" zonasına çevrilməsi uğurla təmin edilir. Bölgənin əlverişli mövqeyi, təbii resursları və çayların hidropotensialının yüksək olması burada "yaşıl enerji", sənaye və digər istiqamətlər üzrə layihələrin səmərəliliyini artırır. Bu istiqamətdə özəl sektorla faydalı əməkdaşlıq qurulması bölgənin iqtisadi cəlbediciliyini artıracaq, biznes fəaliyyətini genişləndirəcək.

Tədbir panel müzakirələrlə davam edəcək.

*"Azərbaycan"*

# Monteneqro-Azərbaycan biznes-forumu və iki ölkənin hökumətləri arasında Birgə Komissiyanın 3-cü iclası keçirilib




**Monteneqronun paytaxtı Podqoritsa şəhərində Monteneqro-Azərbaycan biznes-forumu və iki ölkənin hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 3-cü iclası keçirilib.**

Hər iki tədbirdə iştirak etmək üçün komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin başçılıq etdiyi nümayəndə heyəti Monteneqroda səfərdədir. Nümayəndə heyəti Podqoritsadakı "Kral parkı"nda böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin büstünü ziyarət edib, önünə gül dəstələri düzüblər.

S.Babayev və Birgə Komissiyanın Monteneqro tərəfindən həmsədri, Monteneqronun Baş nazirinin iqtisadi siyasət üzrə müavini və həmin ölkənin iqtisadi inkişaf naziri Nik Qjeloşaj komissiyanın 3-cü iclası çərçivəsində keçirilən Monteneqro-Azərbaycan biznes-forumunun açılış mərasimində iştirak ediblər.

Tədbirdə çıxış edən S.Babayev Azərbaycan və Monteneqro arasında əlaqələrin dostluq və əməkdaşlıq ruhunda daim inkişaf etməkdə olduğunu, yüksəksəviyyəli qarşılıqlı səfərlərin, davamlı siyasi dialoqun əlaqələrimizin gələcək inkişafı üçün mühüm önəmini qeyd edib. İki ölkənin ticarət dövriyyəsinin də artmaqda olduğu, ötən il bu artımın 54,32 faiz təşkil etdiyi diqqətə çatdırılıb.

Keçirilən belə biznes-forumların ölkələrimizin işgüzar dairələri arasında əlaqələrin qurulması və genişlənməsində əhəmiyyəti vurğulanıb. Qeyd edilib ki, artıq Bakı və Podqoritsada 4 biznes-forum və işgüzar görüş keçirilib.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Monteneqronun İqtisadiyyat Palatası tərəfindən təşkil edilən bugünkü biznes-forumda da Azərbaycandan 10-dək, Monteneqrodan 5 şirkət iştirak edir.

N.Qjeloşaj çıxış edərək ölkəsi ilə Azərbaycanın əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini, bu istiqamətdə məqsədyönlü işlərin aparıldığını, hazırki biznes-forumun da müsbət nəticələr verəcəyinə əminliyini ifadə edib.

Birgə Komissiyanın iclasında komissiyanın həmsədrləri ölkələrimiz arasında yüksək səviyyədə münasibətlərin mövcud olduğunu vurğulayıb, əlaqələrimizin getdikcə daha da dərinləşməsi üçün qarşılıqlı səylərin uğurla davam etdirilməsindən razılıq ifadə ediblər.

İclasda Azərbaycan və Monteneqro arasında gələcək əməkdaşlıq istiqamətlərinə dair fikir mübadilələri aparılıb, ticarət dövriyyəsinin daha da artırılması üçün böyük potensialın olduğu bildirilib.

İki ölkənin müxtəlif sahələrdə əməkdaşlığının gələcək perspektivləri, enerji, nəqliyyat, investisiyaların qarşılıqlı təşviqi, turizm, kənd təsərrüfatı, əmək və sosial müdafiə, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Prioritet sektorlar üzrə qarşılıqlı maraq doğuran məsələlər, habelə bərpaolunan enerji sahəsində təcrübə mübadiləsi imkanları və s. müzakirə olunub.

Daha sonra S.Babayev və N.Qjeloşaj Birgə Komissiyanın 3-cü iclasının yekunlarına dair protokolu imzalayıblar. Sənəddə gələcək əməkdaşlıq istiqamətləri əks olunub.

# BMT Azərbaycanın "yaşıl enerji" siyasətini dəstəkləyir

**Bu ilin noyabrında ölkəmiz qlobal iqlim dəyişiklikləri məsələsinin müzakirəsi baxımından bütün dünyanın toplaşdığı bir mərkəzə çevriləcək. Burada iqlim dəyişikliyi ilə əlaqədar istər maliyyə, istər şəffaflıq hesabatlarının təqdim olunması və digər parametrlər nöqteyi-nəzərindən çox ciddi və önəmli qərarların qəbul edilməsi gözlənilir.**



Bu fikirlər Prezident İlham Əliyev iyunun 27-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Anderseni qəbul edərkən bir daha vurğulanıb. İ.Andersenin fikrincə, ölkəmizdə keçiriləcək COP29 çox vacibdir, bu mühüm tədbirə evsahibliyi etməsi həqiqətən də Azərbaycanın iqlim dəyişikliyi məsələsində liderliyinin təcəssümü və nümunəsidir. Qonaq eləcə də "Troyka" mexanizminin yaradılmasını çox vacib bir addım kimi dəyərləndirib və bu müdrik qərara görə təbriklərini çatdırıb.

Bu gün dünya qazıntı yanacağından yeni yanacaq növünə doğru keçid prosesindədir. Azərbaycanda da bərpaolunan enerji sahəsində sürətli inkişaf gedir. Qazanılan nailiyyətlər ölkəmizin və beynəlxalq tərəfdaşlarımızın qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir.

Lakin bəzi dairələr bir məsələdən narahatlıqlarını bildirirlər. Deyirlər ki, nə üçün COP28-in də, COP29-un da, COP30-un da ev sahibi neft ölkəsi (müvafiq olaraq Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan, Braziliya) olmalıdır. Üstəlik də, yanacaq enerjisi ilə zəngin olan ölkələri ətraf mühiti çirkləndirməkdə günahlandırırlar.

Xatırladaq ki, Prezident İlham Əliyev bu dairələrə bir neçə çıxışında tutarlı cavab verib. Məsələn, iyunun əvvəlində Bakı Enerji Həftəsinin açılış mərasimindəki çıxışında dövlətimizin başçısı bu məsələyə bir daha toxunub: "Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyatlarına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik, biz xarici borcumuzu təxminən 100 faizdən 7,7 faizə endirməyə müvəffəq olmuşuq.Yəni bizə qiymət verilən zaman bütün bu amillər nəzərə alınmalıdır. Bununla yanaşı, COP-a evsahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik. Ancaq biz bu məsələyə sadiqik".

Bu məsələdə bizi dəstəkləyənlər də az deyil. BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İ.Andersen də bu günlərdə dövlətimizin başçısı tərəfindən qəbul edilərkən neft və qaz ixrac edən ölkələrin tənqid olunması cəhdlərinin ədalətli olmadığını deyib. Belə ki, dünyada hər bir insanın bu cür enerji formasına ehtiyacı var.

UNEP-in icraçı direktoru eləcə də Azərbaycanın "yaşıl iqlim" və "yaşıl keçid" baxımından qəti siyasi iradə nümayiş etdirdiyini vurğulayıb, metan öhdəliyi, dekarbonizasiya, neft və qaz sənayesinin modernləşdirilməsi istiqamətində ölkəmizdə atılan addımların önəmli olduğunu bildirib. Onun dedikləri göstərir ki, UNEP Azərbaycanda milli səviyyədə ətraf mühit istiqamətində həyata keçirilən tədbirləri təqdir edir, "ağıllı kənd təsərrüfatı" konsepsiyasının inkişaf etdirilməsi, tullantıların idarə olunması, ətraf mühitin, Xəzər dənizinin ekoloji mühitinin və biomüxtəlifliyin qorunması və digər istiqamətlərdə ölkəmizdə görülən işləri, Azərbaycanda bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndirir.

Qeyd edək ki, İnger Andersen ölkəmizə səfəri çərçivəsində ətraf mühit sahəsində fəaliyyət göstərən gənclər təşkilatı - IDEA-nın ətraf mühit könüllüləri və gəncləri ilə də görüşüb, Şirvan Milli Qoruğunda olub. Beləliklə, UNEP və Azərbaycan arasında əməkdaşlıq genişləndirilir. 2026-cı il iyunun 5-də UNEP-in xətti ilə Azərbaycanda Dünya Ətraf Mühit Günü keçiriləcək. Bu da qlobal miqyasda ətraf mühit baxımından ən vacib tədbirlərdən biri olacaq. Axı ölkəmizin özü də iqlim dəyişikliyi problemlərindən əziyyət çəkir.

Prezident İlham Əliyev UNEP-in icraçı direktoru ilə söhbətdə də məhz bunu vurğulayıb. Belə ki, bir dövrdə Azərbaycanda quraqlıq halları, yağıntının miqdarının azalması baş verirdisə, son zamanlar yağıntının miqdarının artdığı müşahidə olunur. Tullantıların idarə olunması, Xəzərin ətraf mühit məsələləri, dənizin suyunun azalması və bu istiqamətdə daha sistemli iş diqqət mərkəzində olan məsələlərdir.

BMT Baş katibinin müavini və Ətraf Mühit Proqramının icraçı direktoru ilə İqtisadiyyat Nazirliyinin və Energetika Nazirliyinin rəhbərliyinin də görüşləri olub. Bütün görüş və söhbətlərdə Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları, o cümlədən Ətraf Mühit Proqramı ilə sıx əməkdaşlıq etdiyi vurğulanıb, əlaqələrin genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Milli mətbuatımızın banisi

# Həsən bəyin yandırdığı sönməz məşəl

**"Aləmi-İslam bir qaranlıq içərisində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışırdı. O məşəl nə idi? Əvvəlinci mətbu kəlam idi..." Xalqını zülmətdən işığa çıxarmaq istəyən isə Həsən bəy Zərdabi idi...**

1907-ci il noyabrın 29-da - Həsən bəyin dəfn mərasimində görkəmli türk ideoloqu, mütəfəkkir, publisist Əli bəy Hüseynzadə çıxışına belə davam etdi: "Həsən bəy əvvəlinci şəxsdir ki, Qafqaz, bəlkə Rusiya, demək olar ki, bütün dünyada müsəlmanlar içində əvvəlinci türk müsəlman qəzetəsi nəşr etmişdir. Biz Qafqaz türklərinin öhdəsində bu adamın artıq haqqı vardır. Çünki bu şəxs bizim üçün dil yaratmışdır. Ədəbiyyata qapı açmışdır". Sonra Əli bəy Hüseynzadə ustadın gördüyü digər işlərdən danışdı, onun xidmətlərinin çox olduğunu bildirdi.

Həsən bəy Zərdabi ömrünün son günlərinədək xalqını düşünmüşdü. Özünə təntənəli bir dəfn mərasimi belə qıymamışdı. Odur ki, ölümündən bir neçə gün öncə vəsiyyət etmişdi: "Sizdən xahiş edirəm, mənim üçün təntənəli dəfn mərasimi düzəltməyin. Məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu, mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olardı…" Ancaq bu dəfə onu dinləməmişdilər...

O, ömür boyu Vətəninin, yurddaşlarının əsarətdən, səfalətdən, ətalətdən qurtulması uğrunda çalışdı. Bu yolda çox işlər gördü, fitri istedadı, dərin, əhatəli biliyi sayəsində hansı sahəyə üz tutdusa, uğur qazandı.

1842-ci il iyunun 28-də Şamaxı quberniyası Göyçay qəzasının Zərdab kəndində dünyaya gələn Həsən bəy kiçik yaşlarından aydın zəkası ilə seçilirdi. Yeddi-səkkiz yaşlarında ikən atası Səlim bəy onu mədrəsəyə qoydu. Oğlunun ilahiyyatla çox da maraqlanmadığını görən atası Həsəni 1852-ci ildə Şamaxıdakı ibtidai rus məktəbinə apardı. Məktəbin buraxılış imtahanında Qafqaz Təhsil İdarəsi müdirinin diqqətini cəlb edən Həsən onun təqdimatı ilə dövlət vəsaiti hesabına 1-ci Tiflis Gimnaziyasına qəbul olundu. 1861-ci ildə gimnaziya təhsilini də uğurla başa vurdu. Moskva Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin təbiət elmləri şöbəsinə daxil oldu. "Dövlət təqaüdçüsü" statusunu aldı.

Gənc tələbə biliyi, Şərq-islam tarixi üzrə geniş məlumatı ilə universitetin rektoru, tarixçi Sergey Mixayloviç Solovyovun rəğbətini və dostluğunu qazandı. Həsən bəy 1865-ci ildə təhsildə ən yüksək müvəffəqiyyətə və əxlaqa görə verilən namizəd diplomu ilə ali məktəbi bitirdi və ona Moskvada qalıb işləmək təklif edildi. Moskvanın kübar cəmiyyəti, yaxşı iş... Təklif cazibəli idi. Amma Həsən bəy hətta qonşu ölkələrdən belə geri qalmış Vətənini, əksəriyyəti savadsız, cahil olan və düşdüyü girdabdan nəinki şikayətlənməyən, hətta oradan çıxmasına çalışanlara qənim kəsilən soydaşlarını üz tutduqları qaranlıqdan maarif işığı ilə aydınlığa çıxarmaq yolunu seçdi. Bunun nə qədər ağır, müşkül olduğunu bilə-bilə geri döndü.

Tiflisdə Torpaq Palatasında, Bakıda Quberniya İdarəsində, Qubada məhkəmədə işləyərkən məşəqqətlərlə, sui-qəsdlə üzləşdi. 1869-cu ildə çətinliklə Bakı Realnı



Gimnaziyasına təbiət tarixi müəllimi təyin edildi. Həsən bəy Zərdabi Qafqazda fəaliyyət göstərən 10 gimnaziyada çalışan müəllimlər arasında ali təhsilli ilk azərbaycanlı idi.

Şagirdlər arasında azərbaycanlıların yox dərəcəsində olması Həsən bəyi kədərləndirsə də, həvəsdən salmadı. O, millət övladlarını məktəbə cəlb etməyə çalışdı. Yoxsul, kimsəsiz uşaqların təhsilinə yardım göstərilməsi üçün müsəlmanlar arasında ilk dəfə 1872-ci ildə Bakıda "Cəmiyyəti-xeyriyyə" yaratdı. Gimnaziyada təhsil alan şagirdləri Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlov Gorani ilə Azərbaycan şəhərlərini, kəndlərini dolaşdı, "Cəmiyyəti-xeyriyyə"yə üzvlər yazdırdı. Toplanan 1600 manatla 2 kasıb və kimsəsiz şagirdin təhsil haqqı ödənildi.

Həsən bəy Zərdabi vətənin, xalqın tərəqqisində mətbuatın böyük rol oynayacağına əmin idi. Ona görə də qəzet açmağa çalışırdı. Arzusunu gerçəkləşdirmək yolunda maneələr isə çox idi. Əvvəla, çar imperiyası öz müstəmləkəsi altında olan ölkələrdə, xüsusilə də əhalisi müsəlmanlar, türklər olan yerlərdə məktəblərin açılmasına, mətbuatın inkişafına yol vermək istəmirdi.

Həsən bəy Zərdabi illər sonra - 1905-ci ildə "Həyat" qəzetində dərc olunmuş "Rusiyada əvvəlinci türk qəzetəsi" adlı məqaləsində "Əkinçi" qəzetinin nəşri ərəfəsində Vətəninin, soydaşlarının halını belə təsvir edirdi: "Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus, bizim yerlərdəki qonşularımız elm təhsil edib gün-gündən irəli gedir, bizim əlimizdə olan mülk-malımıza sahib olurlar..." O çətin günlərdə çıxış yolu aradığını yazırdı: "Belədə nə qayırmalı? Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın!.. Belədə qəzetə çıxarmaqdan savay bir qeyri-əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar... Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar..."

Çarizmin müvafiq idarələrinə göndərdiyi məktublardan birinə, nəhayət, müsbət cavab alan Həsən bəy mətbəə problemini də böyük çətinliklə həll edə bildi. Və 1875-ci il iyulun 22-də Abbasqulu ağa Bakıxanovun kiçik qardaşı, rus ordusunun general-mayoru Abdulla bəy Bakıxanovun maliyyə yardımı ilə Bakıda ilk anadilli qəzetin - "Əkinçi"nin birinci sayı işıq üzü gördü. Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgərağa Gorani və başqaları "Əkinçi"dən köməklərini əsirgəmədilər. Bakı qubernatoru Staroselski qəzetin nəşrinə xeyli kömək etdi.

Xalqı maariflənməyə, anadilli məktəblərin, mətbuat orqanlarının açılmasına səsləyən ilk milli qəzetimizin cəmi 56 sayı çıxdı. "Əkinçi"nin bağlanması üçün hökumətə göndərilən donosların ardı-arası kəsilmədi. 1877-ci il sentyabrın 29-da qəzetin nəşrinə son qoyuldu. Lakin Həsən bəy Zərdabinin "Əkinçi" ilə yandırdığı məşəlin işığı müxtəlif səbəblərdən bəzən öləzisə də, heç zaman sönmədi. Ardıcılları - "Ziya" və "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Açıq söz" və başqa mətbuat orqanları onun başladığı müqəddəs yolu davamsız qoymadılar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ədəbi simalar

# Tarixi romanlar müəllifi



**Azərbaycan ədəbiyyatında daha çox tarixi romanları ilə tanınan Cəlal Bərgüşad (Cəlal Novruz oğlu Cavadov) vətənpərvər, doğulduğu yurda ürəkdən bağlı olan qeyrətli, milli düşüncəli, sözünü düz, mərdanə və sərrast deyən yazıçı idi. Onun qələmə aldığı "Bozatın belində", "Gələcəyi yaradanlar", "Dərilməmiş salxımlar" "Sıyrılmış qılınc", "Şərq çiçəyi" və başqa əsərlər bu gün də oxucular tərəfindən sevilə-sevilə oxunur.**

Cəlal Bərgüşad 1924-cü ilin iyununda Qubadlı rayonunun Qəzyan kəndində dünyaya göz açıb. Orta təhsilini kənddəki fəhlə-gənclər məktəbində alıb. Böyük Vətən müharibəsi başlayanda döyüşlərə yollananlardan biri də o olub. Qanlı döyüşlərin birində ağır kəllə-beyin travması alan gələcəyin yazıçısı ordu sıralarından tərxis edilib.

Kiçik yaşlarından poeziyaya maraq göstərən Cəlalın "Cənub taydan əsən meh" adlı ilk şeiri Qubadlı rayonunda çıxan "Avanqard" qəzetində dərc olunub. Şeirlə yaradıcılığa başlayan Cəlal Bərgüşad ömrünün sonrakı illərində bir-birindən maraqlı nəsr əsərləri yazıb.

Cəlal Bərgüşad ali təhsil almaq arzusu ilə Qubadlıdan Bakıya üz tutub. Azərbaycan Dövlət Universitetinin Fılologiya fakültəsinin jurnalistika şöbəsinə qəbul olub. Ali təhsilini başa vurduqdan sonra "Azərbaycan pioneri" qəzetində ədəbi işçi kimi yaradıcılıq fəaliyyətinə başlayıb. Qəzetin səhifələrində məktəblilər üçün bir-birindən dəyərli məqalə və şeirlər yazıb.

1958-ci ildən isə Cəlal Bərgüşad Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində böyük redaktor vəzifəsində işləməyə başlayıb. Burada çalışdığı illər ərzində onun ssenarisi əsasında "Çoban Boran", "Göy göl", "Torpağın ətri", "Çinar yarpağı" televiziya filmləri çəkilib. Çəkilən bu filmlər böyük tamaşaçı rəğbəti qazanıb. "Babək" əsəri Tehranda (1984) farsca, "Qaçaq Nəbi" İstanbulda (1979) türkcə kütləvi tirajla çap olunub.

Calal Bərgüşadın dəyərli əsərlərindən biri də "Sıyrılmış qılınc" tarixi romanıdır. Romanda 30 ildən artıq bir dövrdə ərəb xilafətinə qarşı qəhrəmancasına mübarizə aparan Azərbaycan xalqının igid sərkərdəsi Babək Xürrəminin həyatından və qəhrəmanlığından bəhs olunur. Əsərdə Babəkin azadlıq və istiqlaliyyət uğrunda xilafətə qarşı apardığı şanlı döyüşlər, o dövrün tarixi xronologiyası ardıcıllıqla təsvir edilir.

Müəllif əsərində obrazlarını fərdləşdirərək onların hər birini öz dili ilə danışdırır. Romanda ərəb, fars və Azərbaycan dillərində atalar məsəlləri çəkilir. Obrazlar öz fikirlərini həmin atalar sözləri və hikmətli kəlamlarla bəzəyir, özlərinin milli mənsubiyyətini, siyasi-ictimai mövqelərini nümayiş etdirirlər. Romanın dili sadə və obrazlı olduğuna görə çox oxunaqlıdır. Hər bir sənət əsəri xalqın mənəvi sərvətidir və bu sərvətin qiyməti onun müasirliyi baxımından xüsusilə qiymətlidir. "Sıyrılmış qılınc" zamanla səsləşən romandır. Təsadüfi deyil ki, bu romana ön söz yazan akademik Ziya Bünyadov bu əsəri ədəbiyyatımızın ən dəyərli tarixi romanlarından biri hesab edirdi.

Erməni işğalçıları torpaqlarımıza hücum edən ilk günlərdən Cəlal Bərgüşad qələmini silaha çevirmişdi. Onun bir ayağı Qubadlıda, Laçında, Zəngilanda və başqa bölgələrdə qalmışdı. Yazıçı cəbhə bölgələrinə səfərləri zamanı döyüşçülərlə görüşür, çıxışları ilə onların döyüş ruhunu yüksəldirdi. Təəssüflər olsun ki, torpaqlarımız ermənilər tərəfindən işğal olundu. Qoynunda dünyaya göz açdığı Qubadlının ermənilər tərəfindən ələ keçirilməsi yazıçını sarsıtdı, onu için-için üzdü.

Cəlal Bərgüşad torpalarımızın erməni işğalçılarından azad olunduğu günü görə bilmədi, ömür buna vəfa etmədi. O, 1996-cı il iyulun 9-da dünyasını dəyişdi. Amma xatirəsi dostlarının, doğmalarının qəlbində yaşayır. Yazıçı yaddaşlarda tarixi roman müəllifi kimi qalır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## "Şərqi Zəngəzur - Quruculuq və Böyük qayıdışın ünvanı" kitabının təqdimatı olub

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında (MEK) yazıçı-publisist Hacı Nərimanoğlunun "Şərqi Zəngəzur - Quruculuq və Böyük qayıdışın ünvanı" kitabının təqdimatı olub.**




Tədbirdə çıxış edən MEK-in direktoru Hüseyn Hüseynov kitab haqqında məlumat verib. Qeyd olunub ki, bu nəşr Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi tərəfindən həyata keçirilən "Şərqi Zəngəzur - Quruculuq və Böyük qayıdışın ünvanı" layihəsi çərçivəsində ərsəyə gətirilib. Kitabda Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, sarsılmaz siyasi iradəsi, qətiyyətli sərkərdəlik bacarığı sayəsində xalqımızın və rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər, dövlət başçısının rəhbərliyi ilə Şərqi Zəngəzur iqtisadi rayonunda başlanan genişmiqyaslı işlər əks olunub. "Prezident İlham Əliyev Şərqi Zəngəzurun bərpasının və Böyük qayıdışın memarıdır" adlı "Ön söz"lə açılan kitabda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 44 günlük tarixi qələbədən bir neçə gün sonra Şərqi Zəngəzur bölgəsinə ilk səfərindən başlayaraq Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarında çoxsaylı görüşlərinə, açılış və təməlqoyma mərasimlərinə dair məlumatlar fotolarla təqdim olunub.

Bakı Dövlət Universitetinin kafedra müdiri professor Abbas Abbasov kitabda Vətənimizin ayrılmaz parçası olan Zəngəzurun tarixi keçmişi, Prezident İlham Əliyevin Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması haqqında qərarının siyasi əhəmiyyəti, nankor qonşularımızın törətdikləri vandalizmin nəticələrinin aradan qaldırılması üçün gerçəkləşən dövlət proqramlarının, reallaşan layihələrin bugünkü mənzərəsi və gələcək perspektivləri, Şərqi Zəngəzurun iqtisadi potensialı, təbii sərvətləri barədə materiallara geniş yer verilməsini müsbət dəyərləndirib.

Şəhid polkovnik Babək Səmidlinin bacısı Röxsanə Səfərzadə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın şəhid ailələrinə diqqət və qayğısının kitabda geniş sənədli yazılı materiallarla, fotolarla əks olunmasını razılıqla qeyd edib. Bildirib ki, MEK-də yaradılmış Qarabağ müharibəsi qəhrəmanları fondunda müəllifin "Şəhidlər", "Qardaşlığın Zəfəri" kitabları ilə yanaşı, bu nəşr də öz layiqli yerini tutacaq.

## Çingiz Əlioğlunun elektron məlumat bazası hazırlanıb

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında şair, Əməkdar mədəniyyət işçisi Çingiz Əlioğlunun 80 illik yubileyi münasibətilə elektron məlumat bazası hazırlanıb.**




Kitabxanadan bildirilib ki, elektron məlumat bazasında çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Çingiz Əlioğlunun çoxşaxəli bədii yaradıcılığı, Azərbaycan xalqının zəngin ədəbiyyatının tədqiqi və təbliği sahəsində əvəzsiz xidmətləri haqqında məlumat verilib.

Bazada görkəmli şəxslərin şair haqqında söylədikləri fikirlər, müəllifi və redaktoru olduğu əsərlər, tərtib etdiyi kitablar təqdim olunub. Həmçinin onun tərcümələri, sözlərinə bəstələnən musiqi əsərlərinin siyahısı, izonəşrlər də yer alır. Məlumat bazasında müəllifin filmoqrafiyası, video və foto qalereyası, virtual kitab sərgisi də təqdim edilir.

● İncəsənət xadimləri

# "Arzum Qarabağda layihələrimi gerçəkləşdirməkdir"

**"Mənim üçün Qarabağ ruh, can, Vətən deməkdir. Qarabağ adı çəkiləndə gözlərimin qarşısında qənirsiz gözəlliyi ilə yaddaşıma əbədi həkk olunan doğulduğum, böyüyüb boya-başa çatdığım gözəl Ağdam canlanır. Çox şükür ki, ermənilərin dağıdıb viran etdiyi bu torpaqlara yenidən həyat verilir, insanlar öz doğma yurduna qayıdır. Bir zamanlar silahların guruldadığı bu torpaqlardan indi musiqi səsi gəlir, körpə qığıltısı eşidilir. Yurdumun hər qarışı cənnətə dönür...**

Bu günlərdə Şuşaya getmişdim. Orada gedən abadlıq-quruculuq işlərini görüb dövlətimin gücü, qüdrəti ilə qürur duydum. Bu torpaqları azad edən əsgərlərə alqış etdim. Torpaqlarımızı azad edib gülüstana döndərən Prezidentimizə dualar etdim... Qarabağda aparılan abadlıq-quruculuq işləri bir memar və şəhərsalma üzrə mütəxəssiz kimi ürəyimi dağa döndərdi".

Həmsöhbətimiz Əməkdar memar, professor Yeganə Hacıyeva 1960-cı ildə Ağdam şəhərində anadan olub. 1976-cı ildə orta məktəbi bitirib. Əmək fəaliyyətinə Ağdam rayon XDS icra komitəsinin tikinti və memarlıq işləri şöbəsində başlayıb.

Yeganə xanım deyir ki, gəncliyindən içində qəribə bir hiss var idi: "Böyüdükcə sanki arzularım da böyüyürdü. Özümü daim bitməyən, tükənməyən bir aləmdə görmək istəyirdim. Məndən sonra da dunya durduqca unudulmayanlardan olmağı arzu edirdim. Odur ki, böyük iddia ilə çalışmağa, yaratmağa kökləndim. Xalamın əri memar idi. Bir gün onun kağız üzərində necə maraqla işlədiyini gördüm. "Eskizlərini çəkdiyi bir layihənin sabah şəhərin bir yerini bəzədiyi gözlərim qarşısında canlandı. Qərar verdim ki, mən də memar olacağam. Memarlıq bir xalqın daş yaddaşıdır. Çox şükür ki, arzularımı bu sənətlə gerçəkləşdirə bildim".

1983-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsini bitirən Yeganə Hacıyeva ümumilikdə 15 şəhərin baş planı, 12 müfəssəl plan layihələri, 4 yaşayış kompleksinin, 6 körpü və yolötürücüləri, piyada yeraltı və yerüstü keçidlərin, 67 elmi əsərin, monoqrafiya, dərslik və metodik vəsaitlərin müəllifidir. Hazırda Azərbaycan Memarlıq və İnşaat Universietinin fəxri professoru, "Mühit dizaynı" kafedrasının müdiridir.



Yeganə xanım deyir ki, şəhərsalma layihələri 25-30 ilə uğurla həyata keçən bir prosesdir: "Yollar, körpülər, iki-üç səviyyəli yolötürücüləri, yaşayış kompleksləri, inzibati binalar, kiçik mərtəbəli yaşayış evləri, keçidlər və tunellər şəhərlər üzərində icra olunduqca hansı hissləri yaşamışam, onu ifadə etməyə hələ söz tapa bilmirəm. Yeraltı, 1-səviyyəli, 2-səviyyəli "Exsellsor" mehmanxanası (Heydər Əliyev mərkəzi ərazisi) ərazisində yolötürücüsünün layihəsində və icrasında birbaşa iştirak edəndə, işin çətinliyinə baxanda külək, beton toru, soyuq hava belə çox xoş gəlirdi. Çünki bu, mənim arzularımın həyata keçməsi idi. Sevinirdim ki, məndən sonra işlərim qalacaq. Bu işlərlə adım müasir memarlıq tarixinə düşəcək".

Hələ 1983-1993-cü illərdə "Bakı Dövlət Layihə İnstitutu"nda memar, II dərəcəli, I dərəcəli memar vəzifələrində işləyərkən Yeganə Hacıyevanın "Şimali Abşeron" Ümumittifaq kurort zonasının, Əhmədli, Günəşli yaşayış massivlərinin baş plan layihələrinin, Badamdar yaşayış rayonunun, 1,3, 6, 7-ci mikrorayonların, "Pirşağı" müalicə istirahət komplekslərinin, müfəssəl plan layihələrinin, Teleqüllə park zonasının, Səməd Vurğun küçəsinin park ərazisində müəllifi olduğu layihələri gerçəkləşib. Deyir ki, bir memar kimi şanslıdır: "Şəhərsalma layihələri çox geniş bir ərazini əhatə edən genişmiqyaslı, problemlər və proqnozlara bağlı layihələrdir. Şəhərimizi gəzərkən müəllifi olduğum işləri görəndə qürur duyuram. Onlar mənim yuxusuz gecələrimin gerçəkləşən layihələridir.

1994-cü ildə Azərbaycan Ali Tətbiqi Elmlər Kollecində pedaqoji fəaliyyətə başlayan memarlıq üzrə fəlsəfə doktoru Yeganə xanım hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Mühit dizaynı" kafedrasının müdiridir. Onun əməyi yüksək qiymətləndirilib. 2013-cü ildən Əməkdar memardır. Deyir ki, bir memar kimi arzusu bərpaolunan Qarabağda layihələrinin gerçəkləşməsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 12 mart (Çərşənbə günü) tarixli 135-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharşənbə, 9 cəmadiyələxir sənə 1337.
12 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalətın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

1919 sənəsi mart ayının 12-sində, çaharşənbə [çərşənbə] günü, gündüz saat 12-də **inqilabın ikinci səneyi-dövriyyəsi münasibətilə** Azərbaycan Məclisi-Məbusanının təntənəli iclası vaqe olacağı elan edilir.

*T-63*

## ÜMUM MÜSƏLMANLARA VƏ MÜSƏLMAN TƏŞKİLAT VƏ MÜƏSSİSƏLƏRİNƏ

Azərbaycan Məclisi-Məbusanı İdarəsinə təhrirən [yazılı olaraq] müraciət etdikdə türkcə müraciət etmələri və əgər başqa dildə müraciət edərlərsə, istida və xahişlərinin bisərəncam qalacağı elam edilir [bildirilir].

*T-62*

## RUS İNQİLABİ-KƏBİRİ

Bu gün Rus İnqilabi-Kəbirinin [Böyük Rus İnqilabının] iki illiyidir. Əsrlərcə hökm sürmüş olan rus istibdadı zahirən əzəmətli görünürdüsə də, batinən [daxilən] o qədər boş və çürük bir halətə düşmüşdü ki, inqilab zərbəsinə davam edə bilməyib yıxıldı. İstibdad yıxılmaqla bərabər rus padşahlığının şan, şövkət, izzət və hörməti dəxi məhv olub, dünən düvəli-müəzzəmə [böyük dövlətlər] ailəsində möhtərəm bir üzv hesab olunan bu padşahlıq, bugün tanınmaz və sanılmaz bir hala düşdü. Deməli, bu şan və şövkət, izzət və hörmət rus dövləti üzərində deyil, rus istibdadı üzərində imiş ki, istibdad yıxılmaqla bu şan və şövkət və sairə dəxi onunla bərabər yıxılıb, məhv olub getdi...

Rus istibdadını yıxmış olan bu inqilabi-kəbiri şayani-təzim və səzayi-ikram [təzimə və hörmətə layiq] ədd [hesab] edib hər il səneyi-dövriyyəsi hülulunda [ildönümündə] bir eydi-kəbir [böyük bir bayram] kimi salamlayıb əhəmiyyət və əzəməti qarşısında səfbəsteyi-ehtiram olub [hörmətlə cərgəyə düzülüb] baş əymək lazımdırmı?

Bəli! Rus çarlığı kimi qara bir istibdadı yıxıb məhv edən bir inqilab, bu nöqteyi-nəzərdən şayani-təzim və ehtiramdır. Lakin yalnız bu nöqteyi-nəzərdən!

Vəilla [yoxsa] aləmşümul [bütün dünyanı əhatə edən] müharibə müşkülatı nəticəsi olaraq meydana gəlmiş olan bu inqilabın tasiri aləmşümul deyildir. İstibdad yıxmaq cahan tarixində yeni bir hadisə ədd edilməz. Tarix uzunu bir çox istibdadlar yıxıldığı məşhurdur. Sosializm fikrinin rəvac və intişarına [yayılmasına] və bu yoldakı nəzəriyyatın həyata tətbiq edilməsi işinə gəlincə, rus inqilabi-kəbiri bununla dəxi aləmi-bəşəriyyəti heyran edə bilməz. Çünki sosializm fikrini meydana atan rus inqilabı deyildir. Sosializm bəşəriyyət əfradı[nın] [fərdlərinin] fikrini rus inqilabından əvvəl olaraq məşğul etmədə idi və halən [indi də] etmədədir. Rus inqilabı yeni olaraq meydana calibi-diqqət [diqqətəlayiq] bir şey çıxardısa, o da bolşeviklikdir. Lakin bolşevikliyin ideyası dəxi sosializmdən çıxan bir fikir olaraq ruslara məxsus olmayıb, ruslara məxsus olan cəhəti yalnız bir adı və bir də bu fikrin Rusiya həyatına qismən tətbiqi keyfiyyətidir.

Fəqət rus bolşevikliyi nəinki bəşəriyyəti, hətta Rusiya torpağında yaşayan millətləri belə sevindirmədi. Biləks [əksinə], bir çox cəhətdən ikrah edib [nifrət etdirib] bu fikirdən üz döndərtdi. Əgər din və millət ayrılığını aradan götürmək istəyən rus bolşevikliyi meydana "sinif" ayrılığı salıb da insanları iki müxasim [düşmən] hissəyə bölməsə və yalnız şəxsin, kim olur-olsun, hər bir süni qeyd [zəncir] və əsarətdən qurtulub da tam mənası ilə hürr və azad olmasına çalışsaydı, o, ümum bəşəriyyətcə təqdir ediləcək bir inqilab kimi tələqqi [qəbul] oluna bilərdi. Vəilla "burjuy"luğu öldürmək əvəzində "burjuy" adlandırdığı minlərcə bəşəriyyət əfradını divanəvar [dəlicə] bir vəhşiliklə öldürən bolşeviklik, kənardan baxanların ancaq istikrahını mövcib ola bilər [ikrahına səbəb ola bilər]...

Pəs [deməli], Rus İnqilabi-Kəbiri aləm-şümul bir mənanı haiz ola [daşıya] bilmədi və yalnız bir istibdadı yıxmaq şərəfincə nami-xeyr ilə [yaxşı adla] yad olunub bayram edilə bilər.

Amma... əgər rus inqilabını törədənlər bu inqilaba bəşəri bir əhəmiyyət vermək istəsəydilər, verə bilərdilər və verməyə də əllərində böyük bir vəsilə [imkan] var idi.

Cahanşümul müharibə bədayətində [əvvəlində] çaylarca axan insan qanının bəşəriyyət vicdanına toxunan sui-təsirini [mənfi təsirini] azaltmaq və insanları öz tərəflərinə cəlb etmək istəmiş olan müharib [savaşan] dövlətlər: "Biz bu müharibəni əsir millətlərin azadlıq və istixlası [qurtuluşu] üçün açmışıq" – deyə meydana bu kimi dilfirib [könül aldadan] bir şüar atdılar.

Bu şüar, filhəqiqə [doğrudan da], əsir olan millətləri dərin bir sevinclə mütəəssir qıldı. Əsarətdən bilaxirə azad olmaq arzusu, əsarət zülmətinin təzyiqi altında sönmüş olan ümidləri təkrar işıqlandırdı. Bir şəxsi qul halında saxlamaq kimi rəzalət və zəlalətdən qurtulmuş olan bəşəriyyət, bu aləmşümul müharibə bə'dində [sonrasında] bir milləti digər bir millətə qul və əsir etmək şərəfsizliyindən dəxi xilas olacaq deyə hər əsir millətə ruh verən bu şüar, rus inqilabının ruhu olub da istibdad yıxıldıqdan sonra rus imperializmi qurbanı olan millətlər tamamilə azad olsa idi, o halda bu inqilab istibdadı yıxmaq şərəfindən başqa bir də əsir millətləri azad etmək kimi cahannümun [qlobal] bir təsir bəxş edib "Daha bir millət digər bir millət üzərində ağa və sahib olmaz" fikrini bütün aləmə nəşr ilə [yaymaqla] ümum cahanda əsir halında yaşayan millətlərin istixlasına böyük bir yol açmaq izzəti ilə şayani-təzim və layiqi-ehtiram sanılan cahani bir inqilabi-kəbir olardı.

Millətləri azad etmək fikrinin nə qədər haizi-əhəmiyyət [əhəmiyyət daşıyan] bir ideya olduğunu bolşeviklər rəisi Lenin dəxi iqrar [qəbul, təsdiq] edirmiş ki, aləmi-islama müraciətən bir intibahnamə buraxıb "Sizləri imperializm əsarətindən azad edəcəyik" – deyə müsəlmanların təvəccöhünü qazanmaq istəmişdi.

Əgər Lenin öz sözünə əməl edib də Rusiyadakı millətləri azad etmək kimi məqduru olan əmri [gücü çatan bir işi] yerinə yetirsəydi, bolşevikliyə böyük bir xidmət göstərmiş olardı. Halbuki azadlıq əvəzinə nə gördük? Azad olmağa cürət etmiş olan millətlərin bolşevik qoşunları tərəfindən qətliam edilməsini gördük... Və bu qətliam hansı millətlər üzərində icra edildi? O millətlər üzərində ki, imperializm əsarətinin ən ağır bənd və zəncirləri altında inildəməklə hamıdan əvvəl azad olmağa möhtac və layiq idilər.

O millətlərin bir çoxu "Yanğından çıxdım, yalova düşdüm" müfadınca [mənasına uyğun olaraq], Nikolay istibdadı zülmündən xilas edilib də bolşevizm əsarəti altına düşməklə, indi də bu əsirliyin qurbanı mənzələsində [yerində] acı və ağır bir ömür sürməkdədirlər...

Türküstan, İdilboyu [Volqaboyu] və Krım müsəlmanlarının təkrar əsarət altında qalmalarına acınmaq və yanmaqla bərabər, sevinirik ki, biz Azərbaycan türkləri qəhrəman Osmanlı türk qardaşlarımızın imdadi-bəradərənəsi [qardaş köməyi] ilə bizi əsirlik təzyiqi altında məhv etmək istəyən rus inqilabçılarının müxalifi-insaniyyət olan bu arzusuna qarşı qiyam edib qanlar tökdük, canlar qurban etdik, xanimanlar yandırdıq da bilaxirə [axırda] əsarətdən qurtulduq. Lakin bu əsir saxlamaq hırsı [hərisliyi] nə qədər "şirin" bir ehtirasat qəbilindən imiş ki, bu ehtirasat mərəzinə mübtəla olan güruhlar hər bir növ ilə dami-təzvirlər [hiylə tələləri] qurub bizi təkrar əsir etmək həvəsilə dörd tərəfimizdə dolanırlar.

Lakin səyləri bicadır [əbəsdir]. Dami-təzvirin nə yerlərdə gizlədilmiş olduğunu görən gözümüz və hiylə kəməndinin iplərini qıracaq qollarımız olduğu kimi, demokratizm, sosializm fikirlərinin də mənasını anlayacaq başımız vardır. Bugünkü arzumuz xarici əsarətdən qurtarmaqdır. Vətənimizin daxili tərzi-idarəsini təyin və təşkil etmək isə öz xüsusi işimizdir. İstərik bolşevik idarəsi qurarıq, istərik menşevik olarıq. Qərəz özümüz bilərik, millətimiz öz səlahına [məsləhətinə] baxar və ümum millət əfradının mənafeyini nəzərə alıb hürr və azad olaraq demokratik bir dövlət əmələ gətirər. Arzuyi-yeganəmiz, təkrar edirik ki, özgələrin əsiri və qulu olmamaqdır. Vəssalam!

*Hacıbəyli Üzeyir*

## HÜRRİYYƏT BAYRAMI

Bugün martın 12-si böyük inqilabın ikinci səneyi-dövriyyəsidir.

1917 sənəsinin yanvar və fevral aylarında rus istibdadı tüğyan edərək işsiz, ac fəhlələrin "ya iş, ya çörək" verilməsi haqındakı tələbinə qarşı kar və kor qalaraq, eyni zamanda demokratiya üzərinə sıxıntısını gündən-günə şiddətləndirərək nəhayət bir dərəcəyə gəldi ki, martın 10-unda (təzə qayda) xalq nümayəndəliyi olan Dövlət Dumasını qovdu və çörək istəyən ac fəhlələrə damlardan pulemyot atışı ilə cavab verdi. Bu əmr nəhayət xalq həyəcanını, demokratiya qəzəbini artıraraq "qəhr olsun qara istibdad" deyə qələmlər, dillər, fikirləri bağlamış olan qara zənciri qırdılar. Protopopov hökumətini yıxaraq Dövlət Duması əzasından [üzvlərindən] bir komitə təşkili ilə ayaq altına salınmış hüquq yenə xalqa qaytarıldı.

Çar Nikolay özü və oğlu tərəfindən tac-taxtından əl çəkib veliki knyaz [böyük knyaz] Mixail Aleksandroviçə vermək istədi, fəqət o dəxi xalqın hüququnu xalqa tapşırmaq üzrə padşahlıqdan Məclisi-Müəssisan dəvətinədək vaz keçməyə məcbur oldu.

Nəhayət knyaz [Georgi Yevgenyeviç] Lvov başda olmaq üzrə əksəriyyən kadetlərdən ibarət bir müvvəqqət hökumət təşkil edildi. Lakin bu hökumət dəxi çox ömür sürə bilməzdi. Zira Nikolay hökuməti ilə onun arasında fərq çox az idi. Zatən Nikolay hökuməti həmişə cahangirlik [imperializm] siyasətində bu firqəyə və bu adamlara istinad edirdi.

Camaat isə cahangirlik, militarizm siyasətini rusluq, qeyri-rusluq şüarını, ruslaşdırma politikasını bir daha görmək belə istəməyirdi. Artıq "millətlərin təyini-müqəddərat hüququ" şüarı meydana çıxmışdı. O idi ki, Lvov-Quçkov-Milyukov kabinəsi də tez zamanda süqut etdi. İş başına o vaxtın kiçik tanrısı olan Kerenski başda olmaq üzrə müxtəlit [qarırşıq] hökumət keçdi.

Bu Kabinə dərhal hərbi dayandırmamaq bəs deyil, bir də hücum əmri verməklə özünə edam əmri yazdı. Fəqət bu əmrə əməl edəcək güclü bir qüvvə yox idi. İyulun 3-5-də Petroqrad çıxışı göstərdi ki, hələ bolşeviklər dəxi o qədər güclü deyildirlər. Bu surətlə Kerenski, kompaniyası ilə iş başında qaldı fəqət hücum xətasına bir səhv dəxi əlavə etdi:

İnqilabın böyük şüarı olan təyini-müqəddərat hüququnu millətlərə vermək istəmədi.

Burası artıq Rusiyada yaşayan xırda millətləri öyrətdi ki, Petroqraddan onlara kömək yoxdur. Özləri özlərinə çarə qılmalıdırlar. Bunu etiraf edən məhkum millətlər ilk qədəmdə Kiyev ədəmi-mərkəziyyətçilər qurultayını dəvətlə öz xahiş və qüvvələrini nümayiş etdirdilər və Petroqrada bildirdilər ki, artıq başlarına cilov vurulmağa izin verməyəcəklərdir.

Eyni zamanda bolşeviklər dəxi müharibədən yorulmuş əsgərləri evlərinə buraxmaq və fəhlələri "behiştə aparmaq" kimi vədlərlə öz tərəfinə çəkərək qüvvət kəsb etdilər [qazandılar] və nəhayət 1917-inci il oktyabrının 26-sında yeni bir inqilab qaldıraraq, Kerenski Hökumətini iş başından düşürərək işləri öz əllərinə aldılar.

O vaxtdan bir qədər keçib təqribən 1918 sənəsi ibtidalarında [əvvəllərində] nəhayət Rusiya ilə ətraf arasında münasibat tamamilə kəsildi. Rusiya qeyri-təbii bir surətdə istibdad zənciri ilə bağlanmış olan təbii parçalara ayrıldı. Əzcümlə [o cümlədən], Zaqafqaziya aprelin 9-unda özünü Rusiyadan ayrılmış elan etdi. Bundan sonra nəhayət Zaqafqaziya millətləri hər biri öz müqəddəratını öz əlinə almaq yolu ilə daha da irəliləyərək elani-istiqlal etdilər. O cümlədən, sevgili vətənimiz Azərbaycan dəxi 28 May tarixində müstəqil cümhuriyyət elan edildi.

Bizim başımız burada məhəlli [yerli] və milli məsələlərimizlə qarışmış ikən, demokratiyanın birinci zərbəsindən guşə-bucağa çəkilmiş olan Rusiya əksin-qilabçıları yavaş-yavaş baş qaldırmağa başlayaraq ötədə-bəridə padşah tərəfdarları təşkilatı əmələ gələrək Rusiyanı təcdid [bərpa] uğrunda çalışmağa iqdam etdilər [başladılar]. Hazırda bu qüvvənin ən böyüyü şərqdən Rusiyaya hücum edən Kolçak və şimaldan Qafqaziyanı, Dağıstanı sıxışdıran Denikin təcavüzkar və qəsbkarlarıdır ki, millətlərin müstəqil və azad yaşamasını istəməyərək, təzədən onların boynuna əsirlik zənciri vurmaq istəyirlər.

Fəqət keçmiş ola:

"Bir şəm' ki haqdan yana, hec bad ilə sönməz."

Azad millətlər bir daha istibdad boyunduruğuna baş əyməzlər. Hürriyyətpərvər millətlərin istiqlalını heç bir əks-inqilab yeli əllərindən qopara bilməz.

Bu gün Rusiya inqilabının ikinci səneyi-dövriyyəsini bayram edərək deyəlim ki:

Yaşasın Hürriyyət!

Qəhr olsun onu öldürmək istəyən qara qüvvələr!

Var olsun Denikin qabağına çıxan mübarizlər!

*X. İ.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Denikinin Dağıstana hücumu məsələsi**

Məclisi-Məbusanın 6 mart tarixli iclasında Denikin qoşununun Dağıstan üzərinə hücumu münasibətilə Parlamanda növbədən xaric müzakirat vaqe olaraq Rəisi-vükəla [Baş nazir] və fraksiya rəisləri Hökumət, Parlaman və firqələrimizin [partiyalarımızın] bu məsələyə nə nəzərlə baxdıqları və nə təsəvvürdə olduqları haqqında nitqlər irad etmişlərdi [söyləmişlərdi]. Qəzetəmizin srağagünkü nömrəsində bu münasibətlə Dağıstan siyasi nümayəndəsinin Hökumətimizə məktubu və Hökumətimizin Tomsona notasını dərc etmişdik. Şimdi həman gün Parlamanda söylənmiş olan nitqlərin məzmununu qarelərimizə [oxucularımıza] təqdim ediriz.

**Xan Xoyski** - (Baş vəzir) Möhtərəm məbuslar! Mən özümü borclu bilirəm son zaman vüqu bulan hadisat haqqında sizə bir qədər məlumat verəyim.

Bir neçə gün bundan qabaq, necə ki, eşitmişsiniz, hamımıza yaxın və dost və həmdin olan Dağıstan Cümhuriyyəti üzərinə Könüllü ordu qoşunu yürüş edib, yerlərini istila və hökumətinə təklif edir ki, özünü ləğv etsin, Dağıstan qoşunlarını buraxsın, özləri də cəbrən əhalidən əsgər yığmağa başlayırlar. Biz bu sözləri eşidən kimi onların səfirlərindən məlumat istədik – əhvalat nə yolda və hökumət nə fikirdədir? Dün Dağıstan Hökuməti səfiri tərəfindən Azərbaycan Xariciyyə Nəzarətinə bu barədə bir kağız gəlmişdir. Bu kağızdan anlaşılır ki, doğrudan da böylə şeylər olmuşdur. *(Kağızın məzmunu srağagünkü qəzetəmizdə vardı.)* Aşkardır ki, bu kağız gələndən sonra bizim Hökumət və Parlaman və bütün Azərbaycan camaatı bir fikirdədir ki, dağıstanlılara böylə zülm olan halda biz sakit otura bilməriz. O şey ki, əlimizdədir ediriz; o tədbirlər ki, lazımdır görəcəyiz. İmdi Hökumət özünü borclu bildi bu xüsusda Müttəfiqlər nümayəndəsi general Tomsona Azərbaycan Hökumətinin nöqteyi-nəzərini bildirsin. Hökumətimizin protestosunu elam olmaq [bildirmək] üzrə bu gün Tomsona bu məzmunda bir kağız yazdım. *(Notanın da tərcüməsi "Azərbaycan" qəzetəsinin srağagünkü nömrəsində vardı.)*

Hökumət özünü borclu bildi, bu xüsusda sizə məlumat versin. Biz var qüvvəmizlə Şimali Qafqaziya Hökumətinə kömək etməliyiz. Siz bilirsiniz ki, Könüllü ordunun əsl siması imdi açılır. Əvvəlcə onların hərəkəti bir balaca Gürcüstanda oldu. Azərbaycan dairəsindən biz onları çıxarmışıq. Şimali Qafqaziyada olan Könüllü ordunun fikri yalnız bolşeviklərlə mübarizə deyil, onların mübarizəsi cəmi xırda millətlərlədir və istəyirlər ki, xırda millətlərin ixtiyaratını yox edib tapdalasınlar. Bu barədə bir millət o birinin ixtiyarının əlindən alınmasına aşkardır ki, bitərəf baxa bilməz. Aşkardır ki, Dağıstan Hökumətinə dəyən zərbə bizə dəymiş kimidir. Mən bizim Hökumət və Parlamanımızın Dağıstan Hökumətinə kömək edəcəyini onların səfirinə xəbər verdim. Azərbaycanın nə Hökuməti və nə də Parlamanı qoymayacaqdır onların hüququ tapdalansın. Var qüvvəmizlə onlara kömək edəcəyiz. *(Gurultulu alqış)*

*(Məbuslar ayağa qalxaraq Dağıstan səfiri lojasına təvəccöhən [dönərək] şiddətli bir surətdə səfiri alqışlayırlar. Səfir əfəndi ayağa qalxır, alqış daha da şiddətlənir. Səfir baş əyərək təşəkkür edir, yenə gurultu qopur.)*

**Məhəmməd Əmin Rəsulzadə -** (Müsavat) Həzərat! Denikin ordusunun qara təhlükəsi qarşısında ilk zərbəni yeməkdə olan şimali qafqaziyalı qardaşlarımız ilə daima bərabər olaraq hüquq və istiqlalımızı müdafiə edəcəyimizi burada yüksək səslə bütün aləmə söyləməyə ehtiyac yoxdur. Çünki bu o qədər aydın və aşkar bir məsələdir ki, Azərbaycan Məclisi-Məbusanının, bu böyük Məclisin, Hökumətin düşündüyündən başqa cür düşündüyünü təsəvvür etmək mümkün deyildir. Bütün Məclisi-Məbusan fraksiyaları bu kürsüdən, şimaldan gələcək bir qorxu qarşısına ciddiyyətlə çıxaraq müqabilədə bulunacaqlarını öz bəyannamələrində söyləmişlərdi. Zatən qara bir qüvvənin gələcəyini biz həmişə mümkünatdan ədd [hesab] edirdik. O qüvvə də mütləqa şimaldan gələcəkdi. Bu təhlükəyə qarşı hökumətimizin gördüyü tədbirlər və dağıstanlı qardaşlarımıza yar və müin [köməkçi, havadar] olmaq təşəbbüsü firqələrin bəyannamələrində göstərilmiş və bəyannamələrin əsasını təşkil etmişdir. Biz bilirdik ki, düşmən ordusu "qəlyanaltı"sını Dağıstanda eyləsə, "nahar"ını Bakıda yeyəcəkdir. Ona görə bütün millət və Məclis bir təni-vahid [vahid bir bədən] kimi var qüvvəsilə çalışıb bu qara qüvvə qarşısında dayanmalıdır. Və dağıstanlı qardaşlarımıza deməliyiz ki: buraxmayın o qara qüvvəni, qoymayın o istibdadı gəlsin. Müharibə edin, biz də sizinlə varıq. Onlar nə simaya girəcəklər girsinlər, biz öz hüquq və istiqlalımızı müdafiə edəcəyiz. Biz əvvəldən bilirdik təhlükələr gələcəklərdir və bu təhlükə şimaldan gələcəkdir. İştə o təhlükə gəlir. Bu qüvvə əsl simasını açmayırsa da, lakin Soçi tərəfindən Gürcüstana, bu tərəfdən də Şimali Qafqaziyaya hücum edib, oradan da bizi boğmağa gəlmək istəyənlərin və daxildə də binamızın altına bomba qoyub patlatmaq istəyənlərin kim olduqlarını biz yaxşı tanıyırız. Onlar həman əski çarizmin müməssili [nümayəndəsi], bu qüvvə əski çarizm qüvvəsidir. Bunlar bu gün bolşeviklərlə mübarizə edirlərsə də, məhz millətlərə istiqlal kimi haqq və hüquq vermiş olduqları üçün edirlər. Məzkur [deyilən] qara qüvvənin çıxışı inqilab və hürriyyət əsasları əleyhinədir. Zira onlar – bu əks-inqilab qüvvətləri, artıq məhkum olmaq istəməyən sabiq məhkum millətləri yenidən zənciri-əsarət altına alıb məhkum etmək istəyirlər. Bu bir əks-inqilab qüvvəsidir. Qafqaziya cümhuriyyətləri – Azərbaycan da onlar daxilində olaraq – böylə əks-inqilab qüvvətlərinə tabe olmaq istəməzlər. Ona qarşı çıxıb bütün varlıqları ilə mübarizə edər, yaxın gəlməyə qoymaz, deyərlər ki: Qəhr olsun üzərimizə gələn qara qüvvət! Yaşasın Dağıstan! *(Şiddətli alqış)*

**Əhməd Cövdət** - (Sosialist) Mötərəm məbuslar! Rusiya inqilabının nəticəsi bu idi ki, Rusiya daxilində yaşayan bütün xırda millətlər öz müqəddəratını həll etmək ixtiyarına malik olsunlar. İnqilab vüququ [baş verməsi] ilə çarizm istibdadı kökündən vuruldu. Bütün millətlərin ixtiyarat və hüququ özünə verildi. Nəinki rus milləti çarizmin zülmündən qurtardı, hətta bütün millətləri – ki şimdiyə qədər nə olduqlarını bilmirdilər – onları da zülmdən qurtardı. Rus demokratiyası [xalqı] bütün digər millətlər demokratiyası ilə bərabər xırda millətlərin hüquq və ixtiyaratının özünə verilməsinə qol çəkdi. Demokratiya, hər millət öz müqəddəratına hakimdir, dediyi halda guşədə-bucaqda bulunan bəzi əks-inqilabçılar – ki onlar hamı hüququ ayaq altına almaq və ixtiyarat və sairəni ta-nımamaq istəyirlərdi – həmin bu qara qüvvələr yavaş-yavaş güc tapıb yığılmağa və qeyri xırda qüvvətləri güclə özlərinə tabe qılaraq çarizm əsasını möhkəmləşdirməyə başladılar. O cümlədən kolçaklar, denikinlər və qeyrilərinin idarələri altında bu qara qüvvələr azad xırda millətlərin üzərinə yürüyərək inqilabın bəxş etdiyi hüququ təkrar qəsbə başladılar. Xüsusən o tərəflərdə ki, qüvvətlər xırda-xırda, biri-birindən ayrı və gücsüzdürlər və bugünkü gündə Rusiyadan gücsüz görünürlər. Rusiyada qüvvə çox olduğu üçün bu Könüllülər dişlərini orada sınaya bilməyib üzlərini Qafqaziyada Dağıstana, Azərbaycana və qeyri xırda millətlərə çevirirlər. Buralara hakim olaraq öz qüvvələrini artırmaq istəyirlər. Rusiya demokratiyası ilə çarpışmaq üçün onlar müsaid bir zəmin olmaq üzrə Bakını intixab etmişlərdir [seçmişlərdir]. Onlar nə qədər şimdiki halda Gürcüstana və Şimali Qafqaziyaya hücum edə gəlməkdə isələr də, əsl məqsədləri Bakıdır. Bu qara qüvvə ilə çarpışmaq yalnız Dağıstan ya Gürcüstanın vəzifəsi deyildir. Çünki bu gün Dağıstan hüduduna gələn yarın Bakıya gələcək və Bakıya gələn qüvvə yarın Tiflisi də istila etmək istəyəcəkdir. Binaənileyh [ona görə], bu təhlükə ümum Zaqafqaziya təhlükəsi və millətlərin haqq və hürriyyətini təhdid edən bir təhlükədir ki, bunun qabağını bütün Qafqaziya millətləri və camaatı bir vücud kimi ittihad etməklə [birləşməklə] saxlamalıdırlar. Bu barədə Hökumətin verdiyi notaya bütün varlığımızla tərəfdarız. Ancaq bunlara qarşı yalnız nota ilə çıxmaq kifayət etməz. Bu qara qüvvələrlə mübarizə məsələsi, təkrar edirəm, yalnız inquş arvadları öhdəsinə buraxılmayaraq, böylə mühüm bir vəzifə qarşısında qətiyyən Zaqafqaziya millətlərinin birləşərək əlbirliyi ilə və ciddiyyətlə çarpışması lazımdır. Bunun üçün də biz öz tərəfimizdən Azərbaycana və Gürcüstana təklif ediriz qəti və şiddətli tədbirlər görməyə əcələ etsinlər. *(Bir səs: Ermənistanı da)* Bir də general Prjevalski öz atryadı [dəstəsi] ilə mühitimizdən çəkilib getdiyi halda, yenə o qara qüvvədən məmləkətimizdə bir çoxları mövcuddur. O cümlədən, onların nümayəndəsi Erdeli və sairədir ki, əlan [indi] buradadırlar. Onların barəsində Hökumətimiz qəti tədbirlər görüb həbs etməlidir. *(Ümumi alqış)* O fikirli adamlar daha da varsa, gərək onlar da məmləkətimizdən çıxarılsınlar. Bir də məlumunuzdur ki, qəzetələrin yazdığına görə, Dağıstanda bəzi köhnə çinovniklər Denikinə lazım olan məlumatı verib onun Dağıstana gəlməsinə müavinət göstərmişlərdir. O çinovniklərin misalı bizim paytaxtımızda da var. Ona görə öylə çinovniklərin buradan rədd edilmələri lazımdır. *(Alqış)* Bu kimi adamlar Gürcüstanda da mövcud idilər. Amma gürcülər böylə həriflərə qarşı bizdən daha qəti və şiddətli tədbirlər görərək onları öz aralarından rədd etmişlərdir. *(Səslər: Doğrudur)* Bizim də o surətlə hərəkət etməyimiz lazımdır.

Bundan başqa, bu qara qüvvələrə kömək edənlər dəxi vardır. O özü-özlüyündən gələn qüvvət deyildir. Xaricdən onlara qətiyyən kömək verirlər. Bu da Müttəfiqlər komandanlığı özüdür. O kömək verir, qüvvə də hərəkət edir. Müttəfiqlər müharibədən qabaq və müharibə əsnasında deyirlərdi ki, bu ümumi müharibə azadlıq müharibəsi və xırda millətlərin ixtiyaratı üçündür. Böylə söylənildiyi halda, xırda millətlərin haqq və ixtiyarını qəsb edən həmin qara qüvvələrə kömək edən yenə Müttəfiqlər komandanlığıdır. Əgər Müttəfiqlərin köməyi olmasa o qüvvə cəsarət edib üstümüzə gəlməz. Hal-hazırda həman qara qüvvə bütün varlığı ilə xırda millətlərin ixtiyarını qəsbə qalxışmışdır. Biz Müttəfiqlər komandanlığından qəti surətdə tələb etməliyiz ki, siz onlara kömək edirsiniz, binaənileyh onların bu hərəkətlərində siz məsulsunuz. Əgər siz həqiqətən xırda millətlərin ixtiyaratı tərəfdarı isəniz, bu gün hüququ qəsb edilən millətlərə kömək ediniz və qara qüvvəyə əmr veriniz buradan rədd olsunlar. Yoxsa bu gün Dağıstanı çiynəyən [tapdalayan] qüvvə yarın sırası ilə Azərbaycanı və Gürcüstanı da çiynəyəcəkdir. Əmin olunuz ki, təcavüz əsl Müttəfiqlərdəndir.

**Qarabəyov** - (İttihad) Həzərat! Üç ay bundan əvvəl həmin bu minbərdən bütün firqələrin dedikləri bu idi ki, Azərbaycan və bütün Qafqaziya millətləri istiqlalını son qətrə qanımıza qədər müdafiə edəcəyiz. Dağıstan Hökuməti də Qafqaziyada təşəkkül etmiş müstəqil dövlətlərin biridir. Şimdi görürüz o adamlar ki, özlərinə Rusiya sahibi deyirlər, Dağıstanın hürriyyətini dağıtmaq istəyirlər və Dağıstan bu yolda yalnız qalmışdır. Və halonki [halbuki] yayda bizim üzərimizə düşmən gələndə dağıstanlılar çaxmaqlı tüfənglə bizim köməyimizə gəldilər. Bu qardaşlıq hissi bizi vadar edir əlimizdə silah olaraq onların köməyinə gedək. Onların müharibəsi bizim müharibəmizdir. Biz burada söz ilə deyil, feilən onların müharibəsinə şərik olmalıyız. Onlar Qafqaziyanın müqəddi-mülceyşidirlər [öncül qüvvəsidirlər, avanqardıdırlar]. Onların qələbəsi bizim qələbəmizdir. Ona görə hökumətin ittixaz etdiyi [gördüyü] tədbirləri alqışlarız və daha da şiddətli tədbirlər ittixazını firqəmiz tərəfindən təklif edəriz. *(Sağdan alqış)*

**Bəhram bəy Axundov** - (Bitərəf) Möhtərəm məbuslar! Qabaqkı natiqlərin dediklərini eşitdiniz, ələlxüsus Əhməd bəy Pepinovun. Mən də bunların dediklərinə şərik olmaqla bərabər, Könüllü ordu haqqında bir neçə söz demək istərdim. Denikin[in] ətrafına toplananlar kimlərdir? Lyaxov kimdir? Lyaxov həman adamdır ki, neçə il bundan əvvəl İran inqilabı əleyhinə qalxıb İran demokratiyasını əzdi. Böyük alimlərdən müctəhid Məlikül-Mütəkəllimini asdırdı. İmdi Lyaxov və onun kimi generallar Denikin[in] ətrafına yığılmışlardır. Həmin Lyaxov əvvəl fikrində tutub ki, Badkubəyə gəlib bizim demokratiya və hürriyyətpərvər üləmamızı da [alimlərimizi də] parçalasın. Ona görə bitərəflər namından [adından] keçən natiqlərin dediklərini müdafiə edərək təklif edirəm ki, bizə yaxın olan Dağıstan Hökumətinə axır qanımıza qədər kömək edib canımızı da onlara fəda edək. *(Alqış)*

**Yusif Əhmədov** - (Tacirlər nümayəndəsi) Möhtərəm məbuslar! Məncə böylə məsələlər ki, indi eşitdiniz, həmişə inqilabdan sonra olar. İnqilab öylə bir şeydir ki, ondan sonra böylə çıxışlar təbiidir. Bir məmləkətdə ki, inqilab oldu, orada yaşayan cəmi camaat bir rəydə ola bilməz. Ən şədidləri [şiddətliləri, qəddarları] olduğu kimi, rəhmlisi də olar. Bunun bir çarəsi var. Olmasın Denikin, Lyaxov, olsun İvanov və qeyrə. O qara qüvvələr Bakıda, Gəncədə, Şamaxıda, hər yerdə, hətta Avropada da var. Lakin avropalılar dəqiqdirlər. Hər bir qorxunu vüququndan [baş verməmişdən] qabaq bilib çarəsini edirlər. Üç gün əvvəlki hadisə buna bir dəlildir. Onlar özbaşlarına getmədilər. Qara qüvvə var. Şimdi düşünməlidir, nə yapmaq ki, bu iş qorxusuz, qan tökməksizin bərtərəf olsun [aradan qaldırılsın]. Nə təhər etmək ki, qan tökülmədən işlər yaxşılaşsın? Necə ki, Müttəfiqlər hal-hazırda cəmi Avropaya hakimdirlər və haqları da varmış. Görünür ki, bu qüvvə ittihaddan [birlikdən] hasil olmuşdur. Deməli, müttəfiq qüvvə lazımdır. Öylə ittifaq qarşısında, əmin olunuz ki, qara qüvvə bərtərəf olar. Bu saat bu qara bəlanın dəf'i üçün bütün Qafqaziya millətləri bilafərq [fərq qoymadan] – erməni, gürcü, azəri türklər və sairləri lazımdır ittifaq etsinlər. Əqidəm budur ki, nə qədər Qafqaziyadakı cümhuriyyətlər bir olmasalar, nifaqları olsa, bu qara qüvvələrin təcavüzü olacaqdır. Əvvəl evin içini düzəltmək lazımdır. Əgər bu olmasa, qara qüvvələr daha da güclənib gələcəklərdir. Denikin qorxulu deyildir. Hətta bir məmləkət üçün beş məmləkət də qorxulu olmaz, əgər o məmləkət içində birlik ola. Yeganə bir çarə varsa, o da ittifaqdır. Doğrudan da o bəlalar nə səbəbdəndir? Bizim biri-birimizlə anlaşa bilmədiyimizdən. Bu mülahizələrlə dörd müstəqil hökumət yaxınlaşsın, hərgah Denikin bu dörd hökumətin birləşdiyini görsə, cürət edib gəlməz, deyər ki, şimdi onlara güc çatmaz, getmək nahaqdır. Hal-hazırda bizim üzərimizdə hakim bir millət var. Onlarla bir yerdə iş görməliyiz. Necə ki, şimdiyə qədər müraciət edirdik, şimdi də deməliyiz ki, bu vaxtədək nə olmuşsa bizim səhvimizdən idi, bundan sonra hər nə olsa sizin öhdənizədir. O Şimali Qafqaziya camaatı ki, Denikin qüvvəsini öz torpağına buraxıb, öylə güman ediblər ki, qabaqca onlara verilən söz doğrudur. Onlar Şimali Qafqaziyaya müraciət etdikdə qüvvələri yox idi. Varsa da az və əhəmiyyətsiz idi. Fəqət böylə intriqalar, vədlərlə Dağıstanda özünə bir qədər qüvvə tədarük etdi. İmdi Dağıstan Hökumətini tanımamağa, onların hüququnu qəsbə çalışırlar. Mən təklif edərdim Müttəfiqlərə denilsin ki, Parlamanı olan məmləkətlərdə böylə xətti-hərəkət yürütmək olmaz. Sizlər razısınızmı ki, millətlər biri-birilə vuruşsunlar, siz ki, həman qüvvəyə

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 11 mart (Çərşənbə axşamı günü) tarixli 134-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

kömək edirsiniz, o qüvvənin millətlərə əziyyət etməsinə və onları qırmasına tərəfdarsınızmı? Hərgah böylə yolsuzluqlar ədəb dairəsində bərtərəf edilməsə, gərək hər millət özü-özünü saxlasın. Mənim birinci təklifim budur ki, Qafqaziya cümhuriyyətləri birləşsinlər. İkinci təklifim budur ki, Müttəfiqlərə məlum edilsin ki, Şimali Qafqaziya Cümhuriyyətinə edilən hücumun qabağını saxlasınlar. Hərgah saxlamasa, biz özümüz istiqlalımızın bəqası üçün o hücumun qabağını saxlamaq qəsdi ilə Şimali Qafqaziya Cümhuriyyətinə kömək edəcəyiz. *(Alqış)*

**Aslan bəy Qardaşov** - (Əhrar) Bir vilayətə ki, xaricdən qorxu ola, zənn edirəm heç bir firqə olmaz ki, mübarizədən boyun qaçırsın. Məndən qabaqkı natiqlər məsələni ətraflıca söylədiklərindən, bu barədə çox danışmağı lazım bilmirəm. Natiqlərin sözlərinə və görülən tədbirlərə iştirak etməklə bərabər onu da deyərdim ki, Zaqafqaziya hökumətlərinin birliyi əmələ gəlməsə, mübarizə işi çətin olacaqdır. Ona görə ümidvarız ki, Hökumət tərəfindən bu barədə lazımi tədbirlər görüləcəkdir. *(Alqış)*

**Malxazov** - (Erməni fraksiyası) Rus dilində bir nitq söyləyir.

**Sultanməcid Qənizadə** - (İttihad) Rəisi-vükəla həzrətlərinin oxuduğu məktubdan hamı firqələr razı qalıb səmimi-qəlb ilə iştirak edirlər. Parlaman dəxi camaat nümayəndələrindən ibarət olub hamının fikrini təmsil etdiyindən, deməк bütün millət dağıstanlı qardaşlarımıza kömək etmək istəyir. Çünki onlara vurulan zərbə bizim ciyərimizə və ürəyimizə dəyən kimidir. Onlar ayrı, biz ayrı deyiliz. Xudanəkərdə [Allah eləməsin] Dağıstana bir qəza olarsa, bizə olmuş kimidir. Bir az fasilədə onların başına gələn bizim başımıza da gələ bilər. Bu Azərbaycan bayrağının bir ucu Dağıstan Hökumətinin çiynindədir. O yıxılarsa, bizim bayrağımız da yıxılar. Mən deyərdim ki, bu məsələ barəsində çox danışmaq lazım deyildir. Tezliklə iş görək. Əhməd Cövdət mərdanəlik ilə dedi ki, əgər Müttəfiqlər doğrudan da asayiş üçün gəlmişlər, qüvvətlərini götürüb Dağıstanı xilas etsinlər. Çünki biz onlara özümüzə baxan kimi baxırız. Əgər Dağıstan fövt olsa [məhv olsa], biz də olarız. Mən deyərdim Hökumət bir layihə düzəltsin ki, lazım olduğu zaman Denikin və Könüllü ordu ilə mübarizə üçün hamımız silahlanıb dağı aşaq və dağıstanlı qardaşlarımızın harayına çataq. *(Ümumi alqış)*

**Sədr** – "Müsavat" tərəfindən bir təklif varid [daxil] olmuşdur.

**Katib** - *(oxuyur)* Azərbaycan Məclisi-Məbusanı qara irtica qüvvəsinin qardaş Şimali Qafqaziya Cümhuriyyətinin hüququna təcavüzünü şiddətlə protesto edərək bu hüququn müdafiəsi yolunda Hökumətin görəcəyi hər növ qəti tədabir və qərarlarını təsvib edir [bəyənir].

Təklif müttəhidülrəy [yekdilliklə] qəbul olunur.

## TELEQRAF XƏBƏRLƏRİ

**Royter ajansından**

**Almaniya sülh şərtnaməsini qəbul etməyir**

Almanlar Müttəfiqlər tərəfindən təklif edilən sülh şərtnaməsini qəbuldan imtina etdikləri üçün Asiyada olan danışıq qət edilmişdir [kəsilmişdir]. Fransanın Asiyada mütarikə [atəşkəs] komissiyasında olan nümayəndələri oradan çıxmışlardır. Almaniya öz ticarət flotunu [donanmasını] Almaniya üçün ərzaq daşımaqdan ötrü Müttəfiqlərə verməkdən imtina edir və deyir ki, indiki biçinlə gələn biçinin arasında Müttəfiqlər iki milyon beş yüz min ton Almaniyaya taxıl verilməsi və ərzaq təmin etmədikcə gəmiləri verməyəcəkdir. Müttəfiqlər böylə məcburiyyəti qəbuldan imtina etmişlərdir. Bu axırıncı Asiya hadisəsi Parisdə bu gün müzakirə ediləcək. Ali İqtisadi Şura bu barədə təklifdə bulunacaqdır. Hər halda Müttəfiqlər Almaniyaya qandıracaqlar ki, ticarət gəmilərinin təslim edilməsi məsələsi mütarikə şərtnaməsində vardır və bu da Almaniya tərəfindən qəbul edilmişdir. Bu işin icrası Müttəfiqlərdən asılı deyildir. Ona görə Müttəfiqlər bu xüsusda heç bir məcburiyyət götürə bilməz. "Tayms" qəzetəsi Ali Şuraya və Xüsusi Şurada Klemansoya sübut edir ki, Almaniya tərəfindən imza ediləcək hərbi şərtnamə Marşal Foşun layihəsindəki şərtnamədən daha dəhşətli olmalıdır.

**Berlində iğtişaş**

Berlində əhval son dərəcə xətrəlidir [təhlükəlidir]. Hökumət qoşunları xətrəli məhəllələri mühafizə edirlər. Şəhərdə nizamsız atışma vardır. Yaralıların miqdarı artır. 50 nəfər spartaklar Lixtenberhov uçastokuna [rayonuna] həmlə edib qarətdə bulunmuşlardır. Demokratlar 40 milyon mark pul aparmışlardır. Reyn qoşunları bunlara həmlə edib onların qırmızı bayraqlarını zəbt etmişlərdir.

## SÜLH ƏTRAFINDA

* Verilən xəbərlərə nəzərən mart ayının 22-də aprelin 1-dən 19-dək nemeslərlə birlikdə Sülh Konfransı cələsələri [iclasları] təyin edilməsi qət ediləcəkdir [qərara alınacaqdır].

Royter ajansının xüsusi müxbiri yazır: Mükafat komissiyası təxmin edəcəkdir ki, [neçə] ildə və nə müddətdə Almaniya zərərləri iadə etməyi bacaracaqdır. Bu komissiyanın bəyanatına görə düşmənlər 24 milyon ingilis lirəsi verməlidirlər. Fransa bu əqidədədir ki, düşmən dövlətləri 100 milyon ingilis lirəsi qiymətində ticarəti əmtəə və gəmi və bir qismini də əcnəbi veksellөri və meşələri [taxta-şalban] ilə əda etməlidirlər [ödəməlidir]. Almanların Müttəfiqlərə verəcəkləri taxta və ağac malın qiyməti 8 milyon ingilis lirəsi miqdarında olacaqdır. "Deyli meyl" qəzetəsinin müxbiri zənn edir ki, Almaniyaya təklif ediləcəkdir ki, bu məbləğin bir hissəsi şimdi veriləcək, qalan hissələrinin verilməsinə isə Almaniyaya 20-30 il möhlət veriləcəkdir. Komissiya hələlik öz rəyini verməmişdir. Zira hələlik məsələni həll edilməmiş hesab edirlər.

## QƏZETƏLƏRDƏN

**Türkiyədə**
**Əhməd Paşanın həbsi**

Fevralın 8-indən xəbər verirlər ki, Ənvər paşanın atası Əhməd paşa Fransa jandarmaları tərəfindən həbsə alınmışdır. Əhməd paşa sabiq Hərbiyyə nazirinin sarayında olan əmvalı [malları] özü üçün götürmüş olduğundan müttəhim edilir. Bu şeylərin hamısı Əhməd paşadan alınmışdır. Verilən xəbərlərə görə məzkur [deyilən] sarayda general Franşe D'Esperi yaşayacaqdır.

**Trabzonda Jön türklər**

Türkiyədə nəşr olunan "Söz" qəzetəsi xəbər verir ki, Trabzonda olan Jön türklər Trabzon vilayəti əfkari-ümumiyyəsində [ictimai düşüncəsində] bir təbəddülat [hərəkət, dalğalanma] törətmək qəsdi ilə ciddi bir surətdə fəaliyyət göstərməkdədirlər. Jön türklərin Trabzonda olan nümayəndəsi Xəlil bəy iki aydır ki, Trabzon şəhərindədir və şəhər məmurları onun hər bir təşəbbüsatına müavinət göstərməkdədirlər. Məzkur [adı çəkilən] qəzetənin rəyinə görə, bu işlərin hamısının təqsiri hökumətdədir. Bununla hökumət İttihad və Tərəqqi komitəsinin təzədən fəaliyyətə başlamasına imkan verir.

**Ömər Faiq əfəndi həbsdən azad edilmişdir**

Gürcüstan Hökuməti tərəfindən həbsə alınıb Tiflis həbsxanalarında saxlanan məşhur mühərrir [publisist] və camaat xadimlərindən Ömər Faiq əfəndi Nemanzadə bugünlərdə həbsdən azad edilmişdir.

**Batumda**

Batumdan xəbər verirlər ki, martın 4-ündə Potidən "Proqress" paraxodu varid olmuşdur [gəlmişdir]. Sərnişinlərin rəvayətinə görə, paraxod Supsa sahilinə yaxınlaşdıqda gözlənilməyən bir surətdə paraxodda olan 15 nəfər oğru atəş açıb, paraxodun sahilə yaxınlaşmasını tələb etmişlərdir. Paraxod sahilə yan aldıqdan sonra quldurlar sərnişinləri qarət etməyə başlamışlardır. Sonradan qayığa oturub sahilə çıxmışlardır. Sərnişinlərdən bir milyon manata qədər nəğd para və qiymətli şeylər qarət edilmişdir. Qarət olunanlar arasında alış-verişçilər də vardır. Bunlar bu axır vaxt Gürcüstanla mal dəyişmək işlərinə məşğul imişlər. Bu əhvalat əhalinin narazılığına bais olmuşdur.

**Təfkilevin vəfatı**

Sabiq Dövlət Duması üzvü və Duma ictimalarının [yığıncaqlarının] hamısında müsəlman fraksiyası sədri Q.M.Təfkilev Ağməsciddə vəfat etmişdir.

## DAĞISTAN ƏHVALI

**Dəvətnamə**

3-üncü Dağıstan nişançı batalyonu komandanı camaata xitabən böylə bir dəvətnamə nəşr etmişdir:

Dağıstan oğlanları!

Kürreyi-ərzdə yaşayanlar dörd ildən artıq davam edən aləmşümul müharibəyə intəha [nəhayət] verdilər. Əmsalı tarixlərdə görülməyən bu davada hürriyyət və insaniyyət hüququna nail olmaqdan ötrü çalışan qəhrəmanlar məqsədlərinə nail olub dövreyi-istibdadı [istibdad dövrünü] əlil və zəlil mərtəbəyə salmağa müvəffəq olduğu halda, ümid olunurdu ki, bu qədər keşməkeşlər, bu qədər nahaq tökülən qanlardan sonra asudəçilik, asayiş bərpa olub və rifahiyyət törənib, mədəniyyət və maarifə yol veriləcəkdir.

Vəli [ancaq] təəssüflər olsun ki, sabiqki kimi vəhşiyanə, zalimanə xunxarlıqlar [qaniçənliklər] və dəhşətamiz hərəkat biri-birinin ardınca icra edilir. Bəzi müfəttinlər [fitnəkarlar], təhrikçilər, hürriyyət mənafeyindən məlumatı olmayanlar, şərəf və namuslarını düşünməyənlər kəndi rəzil olan amallarına nail ola bilmədikləri üçün asarı [əlamətləri] qalmış mədəniyyəti məhv etməyə sai olub [səy göstərib] böyük olan məmləkətimizi xarabazara döndərmək uğrunda çalışmaqdan bir an çəkinməyirlər. Bu növ əlləri qardaş qanı ilə boyanan vəhşi mütəəssiblərin xam xəyalların yırtıcı əlləri hər nəyə yetirsə fəqət özündən bir xarabalıq nişanəsi və səfahət asarı yadigar buraxırlar.

Hindəki [indiki] hərc-mərclik, asayiş və rifahiyyəti qeyb edib binizamlıq [nizamsızlıq] davam etdiyi vaxtda Şimali Qafqaz Dağlılar İttifaqı Cümhuriyyəti, Müttəfiqlərin himayəti və həmdərdliyi ilə mükafatsız və sədaqətlə öz qüvvələrini camaatımızın mənafeyinə fədakarlıq yapmaqlarından istifadə edərək məsuliyyəti böyük olan mühüm məsələni, yəni Şimali Qafqaz camaatının arasında ittihad, ittifaq törətməyə, məzkur [adı çəkilən] cümhuriyyətin daxilində qanun və asayişlə dolanmağa, dağlıları əhatə edən binizamlıq və hərc-mərclikdən və onlarla mərbut [bağlı] olan aclıqdan müdafiə etmək məsələsini kəndi öhdəsinə qəbul edibdirlər.

Lihaza [buna görə] hökumət güman edir ki, etimadlı, nafe [faydalı] və həqiqi qüvvə hazırda olduğu vaxtdaki qanun və ədalətlə camaatın malının və canının mühafizəçisi olsa, fəqət [ancaq, yalnız] ol zaman müsaviyülhüquq [bərabərhüquqlu] olan camaatın xüsusunda olan iqdamatları cari ola bilər [addımları baş tuta bilər].

Binaənileyh [buna görə], hökumətimiz tərəfindən əmr sadir olub [əmr verilib] ki, Şimali Qafqaz qüvvəsi toplansın. Hökumətimiz biz əfradi-millətdən [millət fərdlərindən] canfəşanlıqla hazır olmağı, onun işlərinə sədaqət nəzəri ilə baxıb var qüvvəmizlə yardım etməyi gözləməyə haqlıdır. Vaxtdır bizə ənvai əqsam müffətinanə intişar tapan səslərdən [fitnəkarca yayılıb ucalan müxtəlif növ səslərdən] etiraz etmək və həcviyyat [boş sözlər] danışmaqdan əl çəkib qəflət uyqusundan ayılmaq və sabiqi [keçmişi] nəzərə alıb istiqbalımız [gələcəyimiz] üçün çalışmaq və bunu da məddi-nəzərimizdə [gözümüzün qabağında] tutaq ki, biganələrdən heç kəs bizlər üçün işləməz və bizlərin işə böylə soyuqqanlı, arami-qəlb ilə [sükunətlə, narahatlıq keçirmədən] laqeyd və kəmetinalıqla baxmağımız fəaliyyət göstərənlərimizin, çalışanlarımızın iş başından kənar olmalarına bais ola bilər.

Şimdi ümum səhlənkarlıq, qafilliyi kənara tullayıb, nəticəsi olmayan qövldən [sözdən] sədaqətlə feilə [işə] keçmək zamanı gəlmişdir. Sədaqətlə vətənə xadim olmaq istəyənlərin cümləsinə iş vardır.

Mən 3-üncü Dağıstan nişançı batalyonu təşkil etmək səadətinə müvəffəq olub, bəradəranə [qardaşca] öz dəvətnaməm ilə əhaliyə müraciət edib ümid edirəm ki, hamılıqla bu işə lazımi diqqət, hümmət və qeyrətlə girişib, sədaqət və məhəbbətlə həman batalyonun səflərinə [cərgələrinə] daxil olub tez bir zamanda vətənin doğru və mühib [sevən] oğlanlarından olaq.

Cənabi-haqq hidayət və tövfiq kəramət buyursun [doğruluq və yardım qismət etsin] bizim batalyona safdil [təmizürəklilik] və can-qəlb ilə daxil olub Dağlılar İttifaqı Hökumətinin istiqbalı yolunda çalışanlara!

Qəhr və lə'n [lənət] olsun, qövlən və feilən [sözlə və işlə] bu işə rəxnə vurub [zərər vurub] pişrəftinə [tərəqqisinə] mane olanlara!

*3-üncü Dağıstan nişançı batalyonunun*
*komandanı polkovnik Hacıyev*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan qoşunlarının vürudu [gəlişi]**

Yekşənbə [bazar] günü, martın 9-unda Gəncədən Azərbaycan qoşunlarının bir hissəsi Bakıya varid olub [gəlib] və Salyan kazarmasında yerləşmişlər.

**Hürriyyət bayramı münasibətilə**

* Hürriyyətin iki illik səneyi-dövriyyəsi münasibətilə qəzetəmizin növbəti nömrəsi martın 14-ündə çıxacaqdır.

* Bu gün bütün hökumət və ictimai müəssisələr Hürriyyət bayramı münasibətilə işləməyəcəklərdir. Yeməli şeylər satan dükanlar açıq olacaqdır. Mədən dairələrində və şəhərin bir çox yerlərində mitinqlər tərtib ediləcəkdir. Müsəlman fəhlələri "Raboçi Klub"a [Fəhlə Klubuna] yığılacaqdır.

**Zabitlər haqqında**

Hökumət Şurasının qərardadına görə, bütün Nəzarətlərə [Nazirliklərə], valilərə və qəza qaimməqamlarına [qəza rəislərinə] yenə əmr olunmuşdur ki, Hərbiyyə Nəzarətinin icazəsi olmadan Azərbaycan ordusu zabitləri hökumət qulluğuna qəbul edilməsinlər.

**Kəndlilərin istidası**

Bakı qəzası Əmbizli kəndi camaatı, Bakı qubernatoruna bir ərizə verərək xhiş etmişdir ki, hökumətin binagüzarlığı [sərəncamı] ilə onlardan alınmış silah (70 dənə tüfəng) yenə onlara qaytarılsın. Çünki ətrafdan quldurlar onları narahat etdiyindən müdafiə üçün silahları yoxdur.

**Mühazirə**

* Cümə günü martın 15-ində Binəqədidə "Narodnı dom" [Xalq evi] binasında Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən Piri Mürsəlzadə Könüllü ordu və Qafqaziya millətləri mövzusunda mühazirə oxuyacaqdır. Mühazirə axşam saat 4-də başlanacaqdır.

* Yekşənbə [bazar] günü martın 9-unda Keşlə kəndində Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən Piri Mürsəlzadə əhvali-hazirə haqqında mühazirə oxumuşdur. Mühazirədə bir çox kəndlilər və Çornıqorodda [Qara şəhərdə] işləyən əmələlər hazır olmuşlardır. Yekşənbə günü martın 17-sində məzkur [adı çəkilən] kənddə ümum kəndlilər və Çornıqorod əmələlərinin yığıncağı vaqe olacaqdır. Burada Piri əfəndi Azərbaycanın indiki halı mövzusunda mühazirə oxuyacaqdır.

**İran şahı haqqında**

Bakıda müntəşir [nəşr olunan] rusca "Znamya truda" qəzetəsi neçə gün bundan əqdəm [qabaq] dərc etmiş olduğu bir xəbərdə İran şahı Sultan Əhmədin tiryək çəkib də vəfat etdiyini bildirmişdi. Bu xüsusda Bakı konsulu Məhəmməd xan Səidülvüzəra müxbirimizi həmin xəbəri təkzib etməyə vəkil etmişdir.

**Bakı Müsəlman Ünas Cəmiyyəti-Xeyriyyəsində**

1919-uncu il fevralın 28-də Müsəlman Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsinin iclası vaqe olmuşdur [baş tutmuşdur]. Məclisə Liza xanım Muxtarova sədarət [başçılıq] edirdi.

1) Məclisin sədri şəhərimizə gələn müsəlman fərarilərinin [qaçqınlarının] əhvalı barəsində dakladda bulunur. Qərar qoyulur ki, bu məsələ xüsusunda Müsəlman Cəmiyyəti-Xeyriyyəsi İdarəsi ilə məa [birgə] iclas qurulsun. Hələlik fərari Məhəmməd nama [adlı şəxsə] 500 manat maaş verilsin.

2) Darüleytam [yetimxana] xadiməsinə avans təriqi ilə [avans olaraq] 200 manat verilməsi məsələsi müzakirə edilərək bu məbləğin məzkura [adı çəkilən şəxsə] verilməsinə qərar verilir.

3) Sədr, darüleytamda olan uşaqlara məxsus bayram təsis edilməsi məsələsini bəyan edir. Qərar qoyulur ki, cəmiyyət sərmayəsindən 600 manat buraxılaraq uşaqlar üçün şirni hazırlansın. "Sentrodom" [Mərkəzi Ev Komitəsi] xərci ilə bayram günü uşaqlar üçün plov hazırlansın.

4) Sədr bayram münasibətilə uşaqlar üçün alt əlbisələrinin tikilməsini təklif edir və qərar qoyulur ki, H. H. Milyukova[ya] 5 cift [cüt] libaslıq ağ, 2 ip; X. X. Axundovaya 5 cift libaslıq ağ, 2 ip; C.X.Əlibəyova[ya] 4 cift libaslıq, 2 ip; Nigar xanıma 5 cift ağ, 2 ip verilsin.

5) Sədr 8 nəfər müsəlman fərarilərinə 1600 manat pul buraxılmasını təklif verir. Məsələ qəbul edilir.

6) Xəstə fərarilər nəfinə [xeyrinə] 2675 manat pul buraxılmasını sədr təklif edir və qərar qoyulur ki, bu məbləğ verilsin.

7) Sədr bəyan edir ki, cəmiyyət nəfinə tərtib verilmiş çay ziyafətindən 65775 manat mədaxil, 30 min manat məxaric olmuşdur və böyləliklə cəmiyyət nəfinə 35775 manat pul qalmışdır.

* Bu yaxın zamanlarda Birinci Realnı məktəbinin müsəlman mütəallimləri [tələbələri] təşkilatı tərəfindən ikinci təntənəli Milli Türk Müsamirəsi tərtib veriləcəkdir. (Birinci böylə müsamirə [konsert] keçən il, yəni 1918-inci ildə yapılmışdı və böyük müvəffəqiyyətlə kecmişdi.) Dəvətnamələri almaq olar hər gün saat 4-dən axşam saat 7-yədək Birinci Realnı məktəbinin binasında.

**Dağıstanlıların yığıncağı**

Düşənbə [bazar ertəsi] günü martın 10-da Təzəpir məscidində Bakı və ətrafında yaşayan dağıstanlıların yığıncağı vaqe oldu. Yığıncaqda şəhərdə və mədən dairəsində işləyən ümum dağıstanlılar – ləzgi, osetin, inquş və çeçenlərin nümayəndələri hazır olaraq bir çox adam iştirak edirdi. Azərbaycanlılardan dəxi gələnlər var idi. Məclis açıldıqda Dağıstan Hökumətinin Azərbaycan Hökuməti nəzdində siyasi nümayəndəsi Könüllü ordunun Dağıstan Cümhuriyyəti torpağına soxulması münasibətilə məruzədə bulunub dağıstanlıları müttəfiqən [birlikdə] hərəkət etməyə və vətəni müdafiəyə dəvət etdi. Bədəhu [sonra] Piri əfəndi Mürsəlzadə hal-hazırda Dağıstan üzərinə kəndi istiqlaliyyəti uğrunda üç sənədən ziyadə çarpışmış olan azadə Dağıstanın hürriyyətinə xain və qanlı əllərini uzadan general Lyaxovun İranda Məclis və Məşhədi-müqəddəsdə İmam Rza rövzəsini topa tutduğunu yadavər eylədi [xatırlatdı]. Azərbaycanlıların da vəzifəsi böylə bir ümumi təhlükənin qarşısını almaq üçün dağıstanlılara kömək etmələrini vacib bilərək bir qüvvə kimi ümum Qafqaziya türk və müsəlmanlarını mübarizəyə dəvət etdi. Başqa bir neçə natiqlər dəxi bu barədə söz söyləyərək ələlümum Bakı və ətrafında yaşayan dağıstanlı fəhlələrini istibdad və qara qüvvələrlə mübarizə və müdafiəyə dəvət etdilər. Nəhayət, bir çox müzakiratdan sonra yığıncaq müttəfiqülqövl olaraq [yekdilliklə] zeyldəki [aşağıdakı] qətnaməni qəbul etdi:

"Bakı və və ətrafında yaşayan ümum dağıstanlı əmələlər [fəhlələr] fövqəladə ümumi iclasda Könüllü ordunun Dağıstan Cümhuriyyətinin əleyhinə hərəkət etməsi barəsində məlumat alaraq həmin məsələni müzakirə etdikdən sonra zeyldəki qərara gəlir:

1) Könüllü ordunun zorən və xainanə hərəkətinə qarşı protesto edib, Müttəfiqlər komandanlığından həman ordu dəstələrinin tezliklə Dağıstan Cümhuriyyəti torpağından çıxarılmasını tələb edir.

2) Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətlərinin fəhlə və kəndlilərinə müraciətən onları Dağıstan xalqına yardıma dəvət edir.

3) Dağıstan Cümhuriyyəti Hökumətindən bütün qüvvəsi ilə son nəfəsinə qədər fəhlə sinfi və kəndlilərin hüququna təcavüz etmiş olan Denikin və Lyaxovun qarşısına çıxıb mübarizədə davam etməsini tələb edir.

4) Bern Əmələ Konfransına müraciətlə Dağıstan demokratiyasına yardım etməyə dəvət edir.

5) Həmin yığıncaq tərəfindən general Tomsonun yanına bir heyət göndərilib Könüllü ordunun Dağıstan torpağından çıxarılması qəti surətdə tələb edilsin.

Bundan sonra məclis dağıstanlılardan ibarət 6 nəfərlik bir məlumat heyəti intixab edir [seçir] ki, tez-tez Dağıstan əhvalı haqqında Bakıdakı dağıstanlılara məlumat versin. General Tomsonun yanına gedəcək nümayəndələr heyəti üç nəfəri mədən dairəsi əmələlərindən və bir nəfəri şəhərdən olmaq üzrə intixab edib məclis xitam buldu.

**Kəndçilər İttifaqında**

Yekşənbə [bazar] günü mart ayının 9-unda Kəndçilər İttifaqı İdarəsinin məclisi vaqe olaraq [baş tutaraq] qərar verilir ki, birinci növbədə tezliklə Ərzaq Nəzarətindən İttifaqın adına kəndçilərə paylanmaq üçün ərzaq istəmək məsələsi müzakirə olunaraq qərar verilir ki, bu barədə Ərzaq Nəzarətinə təcili bir məktub yazılsın. Sonra Ərzaq Nəzarətinə hər dəfə müraciət edib ərzaq şeylərini alaraq İttifaqın idarəsinə təhvil vermək üçün idarə üzvlərindən Ağarəşid Feyzullazadə, Nəsir Əlikərimov bu işdə İttifaq tərəfindən vəkil edilirlər. Bədəhu [sonra] qərar verilir ki, şəhər istiqraz cəmiyyətlərinin birində Kəndçilər İttifaqı adına hesabati-cariyyə [cari hesab] açılsın və banklarda[n] və qeyri istiqraz cəmiyyətlərindən alınacaq və həmçinin məzkur [deyilən] idarələrə veriləcək pullar İttifaqın sədri ilə iki nəfər idarə üzvlərinin imzası ilə olsun. Axırda qət olunur, Ərzaq Nəzarətindən xahiş olunsun, Nəzarət binası otaqlarından bir və ya ikisi İttifaqın idarəsinə verilsin.

## ƏRZAQ İŞLƏRİ

* Ərzaq Nəzarətinin əqd etdiyi müqavilənaməyə görə Kuban oblastından 60 min put un və buğda alıb Ərzaq Nəzarəti namına [adına] göndərməkdən ötrü Dmitri Sidoroviç Sverçkov Kuban oblastına göndərilir.

* Ərzaq Nəzarəti üçün qənd, çay almaq, həmçinin parası verilməsi və buraya gətirmək məsələsini aşkar etməkdən ötrü Ərzaq Nəzarəti nəzdində olan agent (renter) [kirayəçi] Gürcüstan daxilinə göndərilir. Ərzaq Nəzarəti bu barədə Gürcüstan Hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsinə bir məktub yazıb məzkur [deyilən] agentə lazım olan zaman müavinət göstərilməsini xahiş etmişdir.

* Mərkəzi Ev Komitəsi Ərzaq Nəzarətinə müraciətlə Bakıdan Lənkərana öz xüsusi anbarlarından min put səbzə [tərəvəz] və 25 put çay aparıb əvəzində un və taxıl gətirməyə icazə verilməsini xahiş etmişdi. Ərzaq Nəzarəti, Mərkəzi Ev Komitəsinə xəbər vermişdir ki, Komitənin bu xahişi Vükəla Şurası tərəfindən qəbula keçməmişdir.

* D. V. Stroqov Ərzaq Nəzarətinə bir ərizə verib Bakıdan ötrü min put Suxum[i] tənbəkisi gətirməyə və əvəzində Bakıdan Gürcüstana düyü, kişmiş, çərəz, balıq və neft aparılmasına icazə verilməsini xahiş etmişdir. Ərzaq Nəzarəti bu ərizə mövcibincə [əsasında] məzkur Stroqova icazə vermişdir ki, Bakıya Ərzaq Nəzarəti namına [adına] putu 400 manata qədər min put tənbəki gətirib tənbəkidən hasil olan məbləğdən ziyadə olmamaq şərtilə istədiyi şeyləri aparsın.


**Elan**

Gimnaziya müəllimi dərs verməyə pansiyona şagird qəbul edir. Adres: Suraxanski 113, Rzabəyov.

*5736*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad həkimi**
**Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*


**Elan**

Bakıda İrəvanlıların Həmtorpaqlılar Cəmiyyəti idarəsi cəmiyyətin üzvlərindən və Bakıda sakin [yaşayan] İrəvan müsəlmanlarından ümumi iclasa təşrif gətirməklərini rica edir. İclas Azərbaycan Parlamanı salonunda mart ayının 13-ündə pəncşənbə [cümə axşamı] günü, saat 6-da vaqe olacaq.

*Sədri-idarə: Teymur Makinski*
*Katib: Rəşid bəy İsmayılov*
*5739*

**Bakı "Obşestvennı Sobraniyasının"**
**[Bakı İctimai Yığıncağının]**
**Şurası**

Öz üzvlərinə məlum edir ki, kantor tərəfindən "starşina" intixab edilmək [seçilmək] üçün blanklar, üzvlərin siyahısı və 1918, 1919, 1920-ci illər üçün rəis (starşina) intixab etmək [üçün] paketlər hazır edilibdir. Həmin blanklar Sobraniyanın xidmətçiləri ilə üzvlərin evlərinə göndərilir. Üzvlərin hər birisinə həmin blanklardan çatmayıb, Sobraniyanın kantorunda ala bilərlər. Paketlərin və intixab siyahılarının alınmağının axrıncı vaxtı martın 15-inə qədərdir.

*T-60*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Hürriyyət bayramı***

"Bugün martın 12-si böyük inqilabın səneyi-dövriyyəsidir.": Rusiyada 32 fevral – 6 mart (yeni təqvimlə 8-16 mart) 1917-ci ildə baş vermiş burjua-demokratik inqilabı nəzərdə tutulur. 27 fevral (12 mart) tarixində Petroqradda silahlı üsyan başladı. Çar Hökuməti son ilcasını keçirdi. Dövlət Dumasının Müvəqqəti Komitəsi hakimiyyəti öz əlinə aldığını elan etdi. 12 mart inqilabın qalib gəldiyi gün kimi qəbul edilir.

"Çar Nikolay özü və oğlu": Rusiya çarı II Nikolay və oğlu Aleksey Nikolayeviç Romanov nəzərdə tutulur.

"Lvov-Quçkov-Milyukov": Rusiyada Müvəqqəti Hökumətin sədri Georgi Yevgenyeviç Lvov, bu hökumətin Hərbi və Dənizçilik naziri Aleksandr İvanoviç Quçkov və Xarici İşlər naziri Pavel Nikolayeviç Milyukov nəzərdə tutulur.

"X.İ.": bu imza Xəlil İbrahimə (Xəlil İbrahimova) məxsusdur.

***Azərbaycan Məclisi-Məbusanında***

"Rus dilində bir nitq söyləyir.": qəzetdə belədir: "Rus dilində bir nitq söyləyərək." Malxazov nitqində, Qafqaz xalqlarının ilk dəfə öz azadlıqlarını itirmə təhlükəsi ilə qarşı-qarşıya qaldıqlarını söyləyərək onları birləşməyə çağırmışdır.

***Teleqraf xəbərləri***

"Spartaklar": Birinci Dünya müharibəsindən sonra Almaniyada fəaliyyət göstərən Marksist təşkilat Spartak İttifaqı [Spartakusbund] nəzərdə tutulur.

"Lihtenberhof uçastoku": güman ki, Berlinin inzibati rayonu olan Lixtenberq [Lichtenberg] nəzərdə tutulmuşdur.

***Sülh ətrafında***

"Deyli meyl" [Daili Mail]: Londonda nəşr edilən qəzet nəzərdə tutulur.

***Qəzetələrdən***

"Jön türklər" (yaxud "Gənc türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəzlinin meydana gətirdiyi siyasi hərəkət.

***Bakı xəbərləri***

"Əmbizli": güman ki, Xızı rayonunun Əmbizlər kəndi nəzərdə tutulur.

"Yekşənbə günü martın 17-sində": tarixlə həftənin günü arasında uyğunsuzluq var; bazar günü 16 mart olmalıdır.

"Bern Əmələ Konfransı": Sosial-demokrat partiyalarının 1919-cu ilin fevralında Berndə baş tutan konfransı nəzərdə tutulur.

# Gəncə şəhər rəhbərliyi Milli Qəhrəman Natiq Qasımovun ailəsini ziyarət edib

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP şəhər təşkilatının sədri Bayram Aslanov, Kəpəz bələdiyyəsinin sədri Yaşar Abdullayev ŞİH-in məsul əməkdaşları ilə birlikdə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun ailəsini ziyarət ediblər.**



Milli Qəhrəmanın anası Dursun Qasımova ilə görüşən qonaqlar qeyd ediblər ki, Azərbaycan xalqı həm Birinci Qarabağ savaşı, həm də Vətən müharibəsində qəhrəmanlıq göstərərək adını tarixə yazan igid oğullarımızla fəxr edir. Belə qəhrəmanlardan biri də Natiq Qasımovdur. O, xalqımızın tarixində iz qoyan igidlərimizdəndir.

Dursun ana övladının keçdiyi qısa həyat yolundan danışıb, uşaqlığından, yeniyetməliyindən söz açıb. O, övladının xatirəsinə göstərilən ehtirama görə Ali Baş Komandan, Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Niyazi Bayramov Dursun ananın səhhəti ilə maraqlanıb, müayinəsi və müalicəsi ilə bağlı aidiyyəti quruma müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, Natiq Qasımov 1971-ci il yanvarın 2-də Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. 1975-ci ildə ailəsi Mingəçevirə köçüb və gələcək qəhrəman orta məktəbi burada tamamlayıb. Rusiyanın Krasnoyarsk vilayətində Daxili Qoşun hissələrində xidmətini başa vurduqdan sonra 1991-ci ildə Vətənə qayıdan Natiq elə həmin il də könüllü olaraq cəbhəyə yollanıb. Ağdamda Yaqub Rzayevin (Qatır Məmməd) başçılığı altında "Qarabağ şahinləri" dəstəsində ermənilərə qarşı döyüşüb.

Prezident İlham Əliyevin 25 iyun 2024-cü il tarixli sərəncamı ilə Natiq Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda "Azərbaycanda yaşayan tatların etnokonfessional tarixi" mövzusunda tədbir təşkil olunub

**İyunun 28-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) "Azərbaycanda yaşayan tatların etnokonfessional tarixi" mövzusunda tədbir keçirilib.**



BBMM-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirin moderatoru - BBMM-in Analitika şöbəsinin müdiri Rəşad İlyasov bildirib ki, tədbir "Azəri" Tat Mədəniyyət Mərkəzi İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra etdiyi "Azərbaycanda yaşayan tatların etnokonfessional tarixi" layihəsi çərçivəsində təşkil olunub. O diqqətə çatdırıb ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib.

Layihə haqqında ətraflı məlumat verən "Azəri" Tat Mədəniyyət Mərkəzi İctimai Birliyinin sədri Elman Əhmədov bildirib ki, əsas məqsəd Azərbaycanda yaşayan tatların etnik tarixi, din və dil mənşəyi, ölkə ərazisində məskunlaşma tarixi, adət-ənənələri və bu ənənələrin nə dərəcədə qorunub saxlanılmasını təhlil və təşviq etməkdən ibarətdir. Qeyd olunub ki, multikultural ənənələrə malik Azərbaycanda qədim zamanlardan bəri digər xalqlarla yanaşı, tatlar da yaşayır, yaradır, inkişaf edir və inkişafa töhfə verirlər. Lakin Azərbaycanda yaşayan tatlar az öyrənilib, kifayət qədər tədqiq olunmayıb. Mənbə qıtlığı çətinlik yaratsa da, birbaşa və bilavasitə mənbələrdən, tədqiqat əsərlərindən istifadə etməklə müəyyən araşdırmalar aparılıb və bunların nəticəsi olaraq silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulub. İyun-avqust aylarını əhatə edən "Azərbaycanda yaşayan tatların etnokonfessional tarixi" layihəsinin icra olunması da bu məqsədə xidmət edir.

Tədbirdə Azərbaycan Dillər Universitetinin dosenti Məhəmməd Əliyev tatların etnik tarixi, din və dil mənşəyi, Azərbaycan ərazisində məskunlaşma tarixi, adət-ənənələri barədə danışıb.

Hərbçi Bəhram Şeydayev Qarabağ uğrunda döyüşlərdə tatların iştirakından bəhs edib. Bildirib ki, Zəfərlə başa çatan Vətən müharibəsində bütün Azərbaycan vətəndaşları kimi, tatlar da "dəmir yumruq" ətrafında sıx birləşdilər, tarixi Azərbaycan torpaqlarının işğaldan azad olunmasında həmrəylik göstərdilər.

Digər çıxış edənlər - Talış icmasının ağsaqqalı İmamverdi Həmidov, Elçin Mirzəbəyov, Cavid Maqsudov, Süleyman Rəhmanov, Fuad Sultanov, Fərman Əliyev tarixən formalaşmış multikultural mühitdən danışıblar. Vurğulanıb ki, Azərbaycanda yaşayan bütün etnik qruplar vahid ailədə, qarşılıqlı anlaşma və hörmət şəraitində yaşayırlar.

Tədbirdə məktəblilər Ayxan Əliyev və İnci Əliyeva tat dilində Azərbaycan şeirini səsləndiriblər.

# 32 ildir itkin düşmüş sayılan şəhid Elman Cavadovun nəşinin qalıqları Sumqayıtda torpağa tapşırılıb



**Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Cavadov Elman Xurşud oğlunun meyitinin qalıqları Sumqayıt şəhərində torpağa tapşırılıb. O, Bakı şəhərindəki Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn edilmişdi.**

AZƏRTAC xəbər verir ki, bu gün şəhidin evində vida mərasimi keçirilib. Vida mərasimində şəhidin ailə üzvləri, qazilər, eləcə də şəhər icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Cənazə namazı qılındıqdan sonra Elman Cavadovun nəşi şəhərdəki Şəhidlər xiyabanında torpağa tapşırılıb, dualar oxunub.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

Sumqayıt Şəhər Veteranlar Şurasının sədri, şəhid atası Sovet Şükürov Elman Cavadovun qardaşına tabuta bükülən Azərbaycan bayrağını təqdim edib.

Qeyd edək ki, Cavadov Elman Xurşud oğlu 1992-ci ildən itkin düşmüş sayılırdı.

# Şəhid Ucar Zeynalovun nəşinin qalıqları Göygöldə dəfn olunub



**Birinci Qarabağ müharibəsinin şəhidi Zeynalov Ucar Fidail oğlunun cəsədinin qalıqları iyunun 27-də doğulduğu Göygöl rayonuna gətirilib.**

AZƏRTAC xəbər verir ki, şəhid Ucar Zeynalovla keçirilən vida mərasimindən sonra Göygöl rayon Pənahlılar kənd qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Göygöl Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon şöbəsinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və sakinlər iştirak ediblər.

Şəhidin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb, məzarına tər güllər düzülüb, əklil qoyulub.

# Böyük qayıdışa həsr edilən nəşrlərin təqdimatı keçirilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Əmlak və İnvestisiya Zirvəsində təmsil olunub.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə komitənin "Böyük qayıdış nəşrlərdə" adlı sərgisi də nümayiş etdirilib. Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində hazırlanmış nəşrlərin təqdim olunduğu sərgiyə tədbirin 100-dən çox iştirakçısı baxıb.

Milli Məclisin deputatı Mahir Abbaszadə tədbirdəki çıxışında işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri, Böyük qayıdışın ilkin nəticələri, bu prosesin səmərəli təşkilində maarifləndirmə, təbliğat-izahat və təşviqat işlərinin əhəmiyyəti barədə danışıb, Dövlət Komitəsinin hazırladığı nəşrlərin təkcə məcburi köçkünlərin deyil, həm də geniş ictimaiyyətin məlumatlandırılması məqsədi daşıdığını deyib.



Sərgi iştirakçılarına məcburi köçkünlər üçün hazırlanmış 6 adda maarifləndirici, 9 adda məlumatlandırıcı, həmçinin "Şuşa qalası" seriyasından 10 adda tarixi-etnoqrafik broşürlər təqdim olunub. Maarifləndirici broşürlər mina təhlükəsizliyi, məşğulluq və sahibkarlıq, sosial müdafiə tədbirləri, icma quruculuğu və fəaliyyəti, dövlət xidmətləri, ətraf mühitin mühafizəsi və ekologiya mövzularını əhatə edir. İşğaldan azad edilmiş ərazilərin tarixi və həmin ərazilərdə aparılan bərpa-quruculuq işləri barədə məlumatlandırıcı-maarifləndirici broşürlər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan rayonlar haqqındadır. Həmçinin məcburi köçkünlər üçün məlumat kitabı və azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasından bəhs edən kitab nəşrə hazırlanıb.

"Şuşa qalası" seriyasına isə "Şəhərin yaranması", "Məhəllələr və küçələr", "Toponimlər", "Tarixi-memarlıq abidələri", "Flora və fauna", "Müqəddəs məkanlar", "Karvansaralar, hamamlar, bazarlar", "Sənətkarlıq", "Ticarət" və "Bulaqlar" adlı broşürlər daxildir.

Böyük qayıdışa təbliğat-təşviqat və izahat dəstəyi olaraq hazırlanan nəşrlər sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb.

EURO 2024 GERMANY



# Avro-2024





## Gürcüstan millisi mükafatlandırıldı



"Avro-2024"də 1/8 finala vəsiqə qazanmaqla növbəti dəfə tarix yazan Gürcüstan millisinin futbolçuları mükafatlandırılıb. Yığma üzvlərinə ümumilikdə 30 milyon lari (10 milyon dollardan bir qədər artıq-red.) verilib. 1/4 finala vəsiqə qazanacağı halda komandanı eyni məbləğdə mükafat gözləyir.

"Qrupdan çıxmağa görə vəd olunmuş 30 milyon lari komandaya təqdim edilib. Millinin üzvləri ilə görüşdə xatırladıldı ki, növbəti oyunun mükafatı da bu qədərdir", - deyə Gürcüstanın baş naziri İrakli Kobaxidze bildirib.

Xatırladaq ki, Gürcüstan millisi 1/8 finalda sabah İspaniya ilə qarşılaşacaq.

## UEFA Albaniyanı yenə cərimələdi

**UEFA Albaniya Futbol Federasiyasını növbəti dəfə cərimələyib. Buna səbəb yenə azarkeşlərin davranışı olub.**



"Avro-2024"ün 3-cü turunda İspaniya ilə oyunda alban azarkeşlər meydançaya yad əşyalar atıb, qəbuledilməz mesajlar yayıb və fakel yandırıblar. UEFA-nın buna görə cəriməsi 86 500 avro olub.

Albaniya Futbol Federasiyası ümumilikdə 171,375 avro xərcə düşüb. UEFA Albaniyaya qrup mərhələsində İtaliya ilə görüşə görə 37,375, Xorvatiya ilə qarşılaşmaya görə 47,500 avro pul cəzası kəsib. Qeyd edək ki, qrup mərhələsində 1 xal toplayan Albaniya yığması sonuncu yeri tutub.

## 1/8 FİNAL MƏRHƏLƏSİ

**29 iyun**

**20:00. İsveçrə - İtaliya (Berlin)**
**23:00. Almaniya - Danimarka (Dortmund)**

## Kvaratsxeliyadan qələbə şərhi



**Gürcüstan millisinin futbolçusu Xviça Kvaratsxeliya "Avro-2024"ün qrup mərhələsində Portuqaliyanı məğlub etdikləri (2:0) görüşdən sonra fikirlərini bölüşüb.**

Matçda birinci qolu vuran Xviça 1/8 finala yüksəlmələri haqda bunları deyib: ""Napoli" ilə Skudettonu qazandığım gün unudulmaz oldu. İndi isə daha qürurluyam. Çünki öz ölkəm adına böyük nailiyyət əldə etdik. Çox xoşbəxtəm. Həyatımın ən xoşbəxt günüdür. Titul qazanmaq arzum idi, bu uğuru da arzulayırdım. Hisslərimi sözlə ifadə edə bilmirəm, çox xoşbəxtəm".

## Rekord vərəqə

**"Avro-2024"ün qrup mərhələsinin 3-cü turunun Çexiya-Türkiyə matçında 18 sarı vərəqə, 2 qırmızı vərəqə göstərilib. Görüşün referisi rumıniyalı İstvan Kovaçs olub. O, Türkiyə millisindən 11 futbolçuya sarı vərəqə göstərib.**




Bunlar Salih Özcan, Kenan Yıldız, İsmail Yüksek, Mert Günok, Hakan Çalhanoğlu, Uğurcan Çakır, Mert Müldür, Samet Akaydın, Kaan Ayhan, Orkun Kökçü və Arda Gülerdir.

Çexiya yığmasından isə 5 futbolçuya sarı vərəqə göstərilib. Çexiya millisinin üzvü Antonin Barak 20-ci dəqiqədə 2-ci sarı vərəqə ilə cəzalandırıldığı üçün qırmızı vərəqə alaraq meydandan qovulub. Həmçinin onun komanda yoldaşı Tomas Çori 90+8-ci dəqiqədə qırmızı kart görüb. Digər sarı vərəqə alanlar isə Patrik Şik, Vitezslav Yaroş, Lukas Çerv, Ladislav Kreyçi və Tomas Souçekdir.

## İordanesku ittihamlara cavab verdi

Rumıniya yığmasının baş məşqçisi Edvard İordanesku Slovakiya ilə oyunla bağlı ittihamlara cavab verib. Rumıniya-Slovakiya görüşünün nəticəsinin əvvəlcədən razılaşdırılması ilə bağlı yayılan şayiələrə münasibət bildirib.

Rumıniyalı mütəxəssis yayılan informasiyaları ciddi şəkildə təkzib edib. İordanesku bu söz-söhbətləri biabırçılıq adlandırıb: "Hər iki yığma bütün gücü ilə oynadı. Komandanı, futbolçuları, bizim işimizi və vicdanımızı ləkələmək sadəcə biabırçılıqdır".

Qeyd edək ki, E qrupunun son turunda Rumıniya ilə Slovakiya arasındakı qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb. Rumıniya, Belçika, Slovakiya və Ukrayna yığmaları 4 xal toplasalar da, top fərqinə görə, ukraynalılar pley-offdan kənarda qalıblar.

## Haşek qrupda qalmağın səbəbini açıqladı



Çexiya millisinin baş məşqçisi İvan Haşek Türkiyəyə uduzmaları (1:2) və yarışda mübarizəni dayandırmaları barədə danışıb. Mütəxəssis deyib: "Bəli, uğursuz olduq. Evimizə qayıdırıq. Uğursuzluğun əsas səbəbi 2-ci turda Gürcüstana qalib gələ bilməməyimizdir. Mübarizəni dayandırdığımız üçün məyusuq. Çünki bu komandanın qrupdan çıxmaq potensialı var. Biz bunu burada göstərmək istəyirdik. Futbolçularımız son anadək mübarizə apardılar. Təəssüf...".

***Hazırladı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Laçın şəhərinə daha 21 ailə qayıtdı






**Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca uzun illərdir torpaq həsrəti yaşayan keçmiş məcburi köçkünlər mərhələli olaraq yurdlarına qovuşurlar. Artıq 1997 ailə - 7762 nəfər əzəli məskənlərinə qayıdıb.**

İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 126 ailə (491 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

## "Üç yaşımda çıxdığım Laçına üçyaşlı oğlumla qayıdıram"

Böyük qayıdışın əsas ünvanlarından biri olan Laçın şəhəri dünən daha bir qayıdış karvanına qucaq açıb. Bu mərhələdə daha 21 ailə - 65 nəfər dədə-baba ocağına dönüb. Bununla da Laçın şəhərində 534 ailənin, yəni 1971 nəfərin daimi məskunlaşması təmin edilib.

Uzun illərdir yurda dönüşünü səbirsizliklə gözləyən keçmiş məcburi köçkün Möhübbət Süleymanov deyir ki, ailəsi hər zaman ona Laçın barədə danışıb: "İşğal mənim Laçınlı həyatımı dondurdu. Üç yaşından məcburi köçkün həyatı yaşadım. Abşeron rayonu Pirəkəşkül kəndində, hərbi şəhərcikdə çətin həyat yaşamışıq. İndi isə doğma yurduma qayıtdım. Yaşım az olduğu üçün xatırlamıram, amma ailəm mənə Laçınla bağlı o qədər danışıb ki, sanki illərlə orada yaşamışam. Hər qarışı mənə doğmadır. İndi isə üç yaşımda çıxdığım Laçına üçyaşlı oğlumla qayıdıram. İtirdiyimiz 32 ili bundan sonra bərpa edəcəyik, burada qurub-yaradacağıq".

Laçın sakini Sevil Allahyarova söyləyir ki, bu günü təsəvvürünə gətirmək belə onun üçün çətin olub: "Ancaq biz dövlət başçımıza güvənirdik, inanırdıq. Mən bu gün doğma yurduma qayıtdığım üçün çox sevinirəm. Başda Ali Baş Komandan olmaqla, Milli Ordumuzun hər bir üzvünə, hər bir zabit və əsgərinə bizə bu günləri yaşatdıqları üçün minnətdarlığımı bildirirəm. Torpaqlarımız uğrunda şəhid olan, öz qanı ilə torpaqlarımızı azad edən şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Mən rəhbərliyimizlə, xalqımızla, ordumuzla, mübariz oğullarımızla fəxr edirəm".

Laçın sakini Nəcibə Rəhimova söyləyir ki, bu günə qədər çox çətinlik, sıxıntı, həsrət çəksə də, torpağına qovuşmağın ümidi ilə yaşayıb: "Laçın yolu yaşadığımız ərazidən keçdiyinə görə həmişə sıxıntı keçirirdik ki, öz doğma yurdumuza qayıda bilməyəcik. Amma dövlət başçımızın uzaqgörən siyasəti nəticəsində bu gün yurdumuza qovuşduq".

## Vətən nisgili çəkən qalmayacaq

Laçın şəhərində sakinlərin rifahının yüksəldilməsi və işlə təminatı istiqamətində mühüm tədbirlər görülüb, rahat və firavan həyat şəraiti üçün lazım olan infrastruktur yaradılıb və proses davam edir. Ərazilərin bərpası müasir yanaşmalar əsasında həyata keçirilir, yaşayış məntəqələri "ağıllı şəhər" və "ağıllı kənd" konsepti ilə qurulur, burada sakinlərin rahatlığı üçün bütün şərait yaradılır. Həmçinin işğal dövründə vandalizmə məruz qalan tarixi-mədəni abidələr, tikililər bərpa edilir.

Laçınlıların istirahətinin səmərəli və maraqlı təşkili istiqamətində də tədbirlər həyata keçirilir. İşğaldan əvvəl şəhərdə fəaliyyət göstərən kinoteatr binası yenidən bərpa olunaraq istifadəyə verilib. Şəhərdə, həmçinin Həkəri çayının sahilində bulvar yaradılıb. Burada çay üzərində körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb.

2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitəcək. O zamana qədər Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin dayanıqlı və təhlükəsiz məskunlaşması təmin ediləcək. İşğaldan azad edilmiş ərazilərimizdə sistemli şəkildə uğurla həyata keçirilən layihələr onu deməyə əsas verir ki, yurdlarından didərgin salınan, məcburi köçkün həyatı yaşayan bütün vətəndaşlarımız tezliklə əzəli yurdlarına qovuşacaqlar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Qubada "Tarixin izi ilə: yaddaşımız gələcəyimizdir" II gənclər düşərgəsi açılıb

**İyunun 28-də Gənclər və İdman Nazirliyi, Qərbi Azərbaycan İcması, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, "ASAN Könüllüləri" Təşkilatı və "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə Quba rayonunda keçirilən "Tarixin izi ilə: yaddaşımız gələcəyimizdir" II gənclər düşərgəsinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, düşərgə iştirakçıları əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini və Quba rayonundakı Şəhidlər xiyabanını ziyarət ediblər.

Tədbir Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Quba rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının nəzarət-təftiş komissiyasının sədr müavini və Gənclər Birliyinin üzvü Şahin İsmayılov, Heydər Əliyev Fondunun şöbə müdiri Cəmil Əliyev, "ASAN Könüllüləri" Təşkilatının sədri Anar Musayev və "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin sədri Leyla Zeynalova çıxış ediblər.

Çıxış edənlər bu gün dövlətimizin, xalqımızın ümummilli mübarizəsinə çevrilmiş Qərbi Azərbaycana qayıdış ideyası uğrunda görülən işlərin Prezident İlham Əliyevin göstəriş və tövsiyələri rəhbər tutularaq sülh, beynəlxalq hüquq və ədalət prinsipləri əsasında məqsədyönlü və sistemli şəkildə davam etdirildiyini diqqətə çatdırıblar. Vurğulanıb ki, beynəlxalq ictimaiyyətin soydaşlarımızın ata-baba yurdlarına qayıtması istiqamətində ölkəmizin haqlı mövqeyi ilə bağlı düzgün məlumatlandırılmasında gənclərin aktiv iştirakı vacibdir. Çıxışlarda gənclərin bilik və bacarıqlarını bu amalın reallaşması - Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın hüquqlarının bərpası uğrunda səfərbər edəcəklərinə inam ifadə olunub.

Qeyd edək ki, Quba Olimpiya İdman Kompleksində iyunun 30-dək davam edəcək gənclər düşərgəsində Qərbi Azərbaycan İcması gəncləri, "Regional İnkişaf" İctimai Birliyi, "ASAN Könüllüləri" Təşkilatı və "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin könüllüləri iştirak edirlər.

Düşərgə çərçivəsində mövzu ilə əlaqədar panel müzakirələr, məlumatlandırıcı sessiya, intellektual oyun və qrup işləri təşkil ediləcək, həmçinin Qərbi Azərbaycan həqiqətlərindən bəhs edən fotosərgi və film nümayiş olunacaq.

Layihənin məqsədi ölkəmizin müasir tarixinin aktual mövzuları, Qərbi Azərbaycan həqiqətləri ilə bağlı könüllülərin daha geniş məlumatlandırılması və onların proqram əsaslı işinin təşkil edilməsi, həmçinin Azərbaycan həqiqətlərinin yerli və beynəlxalq ictimaiyyət arasında mütəşəkkil yayılmasında könüllülərin fəallığının təşviq olunmasıdır.

# Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək

Azərbaycanda iyunun 29-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək.

Lakin günün birinci yarısında havanın arabir tutulacağı, yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 26-30° isti olacağı proqnozlaşdırılıb. Atmosfer təzyiqi 757 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 65-75, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 24-25°, cənub çimərliklərində isə (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq.


Azercell

# abunəçilərinin nəzərinə!

Təqdim edilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və müştərilərə təklif olunan xidmətlərin optimallaşdırlması məqsədi ilə 30 iyul 2024-cü il tarixindən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) və fakturalı xətt sisteminin abunəçilərinin istifadəsi üçün nəzərdə tutulmuş "Tiktok internet paketi" və "Günlük Bölgə" kampaniyaları ləğv ediləcək. Həmin kampaniyalara qoşulmuş abunəçilər müvafiq kampaniya çərçivəsində təqdim edilən paketlərdən istifadə müddəti bitənədək istifadəyə davam edə biləcəklər.

30 iyul 2024-cü il tarixindən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) və fakturalı xətt sisteminin abunəçilərinin istifadəsi üçün nəzərdə tutulmuş "Duet Kart", "Əkiz Kart" və "Video Zəng" xidmətləri ləğv ediləcək.

"Duet Kart" və "Əkiz Kart" xidmətindən istifadə edən abunəçilər 30 iyul 2024-cü il tarixinədək Müştəri Xidmətlərinə yaxınlaşaraq ödənişsiz əsaslar ilə SIM kart dəyişikliyi əməliyyatını həyata keçirə bilərlər.

**Qeyd:** Abunəçilər müxtəlif güzəştli danışıq, internet xidmətləri ilə də bağlı əlverişli istifadə şərtləri olan digər paketlərdən yararlana, həmçinin internet və danışıq dəqiqələrinin bir araya gəldiyi sərfəli tarif paketlərindən istifadə edə bilərlər. Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



# "Səba" ASC-nin səhmdarlarının nəzərinə!

29 iyul 2024-cü il tarixdə saat 15:00-da Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. "Səba" ASC tərəfindən emissiya edilmiş səhmlərin bir qisminin geri alınması haqqında;
2. "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-nin nizamnamə kapitalındakı "Səba" ASC-yə məxsus payların satılması haqqında.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

**Əlaqə telefonu: +994124044441;**
**Ünvan: AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1.**

***"Səba"ASC-nin İdarə Heyəti***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi AMEA-nın Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru Vaqif Abbasova qardaşı

**MÜTƏLLİM MƏHƏRRƏM oğlu ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4477**
**Sifariş 1410**

**Qiyməti 60 qəpik**